AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ
TARİX, ETNOQRAFİYA VƏ ARXEOLOGİYA
İNSTİTUTU

HACI QADİR QƏDİRZADƏ

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ:

*Bayramlar, mərasimlər, adətlər, münasibətlər*

*AMEA Naxçıvan Bölməsi rəyasət heyətinin ("04" sentyabr 2012-ci il tarixli, 9/2 №-li) qərarı ilə nəşr edilir.*

Naxçıvan-2012

Elmi redaktor: **İ.Ə.Həbibbəyli**
*AMEA-nın həqiqi üzvü*

Rəyçilər: **İ.M.Hacıyev**
*AMEA-nın həqiqi üzvü*
**H.F.Səfərli**
*Tarix elmləri doktoru, professor*

*Monoqrafiyada milli-mənəvi dəyərlərin tərkib hissəsi olan təqvimlə əlaqəli müəyyən bayram və mərasimlərin tarixiliyi, adət və inamların genezisi araşdırılmış, bir sıra qaranlıq məqamlara aydınlıq gətirilmişdir. Bunlarla yanaşı ailədaxili münasibətlərdə "yaşınma" adəti, qadına münasibət, uşaqların ənənəvi tərbiyəsində milli uşaq oyunlarının yeri, müasir məişət münasibətlərimizin tarixiliyi və s. məsələlər tədqiq olunmuşdur. Kitab milli dəyərlərimizi öyrənmək istəyənlər, bu sahədə araşdırma aparanlar və geniş oxucu kütləsi üçün faydalı ola bilər*

*Hacı Qadir Qədirzadə, Milli-mənəvi dəyərlərimiz: Bayramlar, mərasimlər, adətlər, münasibətlər. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan-2012. 128 səh.*

4700000000
053-2012

© "Əcəmi" 2012.

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz ........................................................................ 4

Giriş ............................................................................ 7

**I. Fəsil.** Mənəvi mədəniyyət: bayramlar, mərasimlər ..... 10

1.1. Novruz bayramı və onun mənşəyinə dair bir neçə söz.... 15

2.2. Qışla bağlı təqvim adətləri, «xıdır nəbi» bayramı və hz. Xızır peyğəmbərlə bağlı inamlar ........................ 31

1.3. Xalq təqvimindən – çərşənbələr............................ 41

1.4. Naxçıvan toylarında və "Kitabi Dədə Qorqud"da bəylik məsələsi, Novruzda «xanbəzəmə» adəti: ortaq cəhətlər.........................................................51

**II. Fəsil.** Adətlər, münasibətlər.................................64

2.1. Naxçıvanda "yaşınma" adəti və onun genezisinə dair ................................................ 64

2.2. İslam-türk düşüncəsində və ailədə qadın................. 80

2.3. Uşaqların ənənəvi tərbiyəsi məsələsi...................... 88

2.4. Meydan: fiziki və mənəvi tərbiyyə mərkəzi............ 94

2.5. Müasir məişət münasibətlərimizdəki bəzi məsələlərin genezisinə dair: "Bilqamis", "Kitabi-Dədə Qorqud» dastanları ilə ortaq cəhətlər........................................ 107

## ÖN SÖZ

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir sıra çətinliklərlə rastlaşsa da xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində bu çətinliklər aradan qaldırıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər tərəfindən əsası qoyulan siyasəti uğurla davam etdirməkdədir. Müstəqillik illərində xalqımızın sosial-iqtisadi inkişafı ilə yanaşı milli-mənəvi dəyərlərimizin qorunmasına xüsusi diqqət yetirilir. Məhz elə buna görə 2012-ci il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən "Milli dəyərlər ili" elan edilmişdir. Muxtar Respublikanın rəhbərliyi həmçinin milli-mənəvi dəyərlərimizin qorunub saxlanması sahəsində xeyli işlər görmüşdür. Dövlət qayğısının nəticəsidir ki, son illər tarixi abidələrin, mənəvi mədəniyyət nümunələrinin, o cümlədən xalq yaradıcılığı nümunələrinin və etnoqrafik materialların tədqiqi, nəşri və təbliği sahəsində ziyalılarımız çoxsaylı məqalə və irihəcmli monoqrafik əsərlər yaratmışlar. AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru H.Q.Qədirzadə uzun illərdir ki, Azərbaycan etnoqrafiyasının müxtəlif məsələlərinin tədqiqi ilə məşğul olur. Milli-mənəvi dəyərlərimizi özündə yaşadan etnoqrafik materialların tədqiqi hazırda ən aktual məsələlərdən biridir. Əgər nəzərə alsaq ki, qloballaşma dövründə xalqımızın həyatında və məişətində meydana yeniliklər bir sıra əski adət-ənənələrimizin sıradan çıxması ilə nəticələnir, o zaman bu işin aktuallığı daha da aydın olar.

H.Q.Qədirzadənin "Milli-mənəvi dəyərlərimiz: Bay-

ramlar, mərasimlər, adətlər, münasibətlər" adlı monoqrafiyası Azərbaycan etnoqrafiyasının aktual problemlərindən birinə həsr olunmuşdur. Monoqrafiyada mənəvi mədəniyyətimizin əsas sahələrindən biri olan bayramlar və mərasimlər araşdırılmışdır. Bu baxımdan Novruz bayramının mənşəyi ilə bağlı tədqiqatlar xüsusilə diqqətəlayiqdir. Tədqiqatçı bu bayramın yazın gəlməsi, ilin dəyişməsi və təbiətin oyanması ilə bağlı olduğunu qeyd etmiş, bayramla bağlı adət və ənənələrdən, xüsusilə bayram şirniyyatının hazırlanması, baca-baca, niyyətə getmə, bayramın ilk günü əkinə getmə, at yarışları və digərlərindən söhbət açmışdır.

Monoqrafiyada həmçinin qışla bağlı təqvim adətləri, "Xıdır Nəbi" bayramı və Hz.Xızır peyğəmbərlə bağlı inamlar, xalq təqvimi ilə bağlı adət və mərasimlərdən bəhs edilmiş, xalqımızın həyat tərzinin uzun müddət bu adətlərlə bağlı olduğunu göstərmişdir. Monoqrafiyada "Kitabi Dədə Qorqudda" bəylik məsələsi, "Xanbəzəmə" adəti ilə bağlı keçirilən əyləncə və mərasimlər geniş şəkildə araşdırılmışdır.

Monoqrafiyanın "Adətlər, münasibətlər" adlı fəslində Naxçıvanda "yaşınma adəti" və onun mənşəyindən bəhs edilmiş, bu adətin qədim tarixə malik olduğunu göstərmişdir. Müəllif müqayisəli materiallar əsasında bu adətin digər türk xalqları arasında da yayıldığını müəyyən etmişdir. Tədqiqatçı bu adətin Azərbaycanın qədim sakinləri olan udilər arasında yayıldığını və İslam dini ilə bağlı olmadığını qeyd etmişdir.

Monoqrafiyanın "İslam-türk düşüncəsində və ailədə qadın", "Uşaqların ənənəvi tərbiyəsi məsələsi", "Tarixilik və müasir məişət..." adlı bölümləri də milli-mənəvi dəyərlərimizin qiymətləndirilməsi baxımından diqqəti cəlb edir.

Ümumiyyətlə, monoqrafiya milli-mənəvi dəyərlərimizi özündə əks etdirən sanballı tədqiqat əsəridir. Monoqrafiya Azərbaycan xalqının adət və ənənələri, onların yayılma arealı və mənşəyi ilə bağlı bütöv təsəvvür əldə etməyə imkan verir.

Belə uğurlu tədqiqat əsəri üçün tədqiqatçı, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru H.Q.Qədirzadəyə təşəkkür edir, ona gələcək işlərində uğurlar arzulayırıq.

Vəli Baxşəliyev
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru*

# GİRİŞ

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasındakı çıxışında ***"Tarix sübut edir ki, hər bir xalqı yaşadan onun milli dəyərləri-dili, adət-ənənələri, mədəniyyətidir"***-deyən Ali Məclisin Sədri Vasif Talıbov bu sahədə qarşıda duran vəzifələri yığcam *halda şərh etmişdir:* ***"Milli dəyərlərimizin bərpası, qorunması və gələcək nəsillərə ötürülməsi ilə bağlı muxtar respublikamızda əvvəlki illərdə başlanmış tədbirlər "Milli dəyərlər ili"ndə-2012-ci ildə daha geniş şəkildə davam etdirilməlidir".***

Problemlə əlaqəli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun əvvəlki illərdəki sərəncamlarını, yuxarıdakı çıxışını və göstərişlərini nəzərə alaraq biz də uzun illərdən bəri toplanmış materialları sistemləşdirərək onların bir qismini nəşrə hazırlamaq qərarına gəldik.

Qırx ildən artıq milli dəyərlərin araşdırılması ilə məşğul olan bir tədqiqatçı kimi bizim də qarşımızda müəyyən vəzifələr dayanır. Hər şeydən öncə uzun illər araşdırma aparmış insanlar özləri ayrıca tarixi mənbədilər. Elə problemlər vardır ki, onlar ilk dəfə qarşılaşmış, araşdıraraq elmi dövrüyəyə daxil etmişlər.

Məsələyə keçməmişdən öncə milli dəyər anlayışına yığcam halda nəzər yetirməyi məqsədəuyğun sayırıq. Milli dəyər-öncə özünü millət kimi dərk etmək, tarixin alt qatlarında yaranmış, uzun illərin sınağından keçərək sintez olunmuş mədəniyyət məcmuna sahib çıxmaq, onu müasir tələblər daxilində zənginləşdirmək və nəsillərdən-nəsillərə ötürərək yaşatmaqdan ibarətdir.

Milli dəyər maddi və mənəvinin vəhdəti və ya mənəvinin

maddidə təzahür formalarından biri olmaqla özündə tarixi keçmişi, ilkin münasibətlərin milli münasibətlərə çevrilməsi prosseslərini qoruyub saxlayan şərtlər sayılır ki, buradan da milli mədəniyyətin formalaşması yaranır.

Milli mədəniyyət anlayışının əsas şərtlərindən biri də mənəvinin maddidə təcəlləsidir. İnsan maddi və mənəvinin ən kamil nümunəsi olduğundan hər ikisinin inkişafı ondan asılıdır. İnsanın yaratdığı, çalışaraq düzəltdiyi, fiziki əməyinin məhsulu olan hər şeyi maddi mədəniyyətə aid etmək olar. Təbii ki, bütün maddi geniş anlamda müəyyən düşüncənin nəticəsidir. Sadədən-mürəkkəbə tikililər, sənətkarlıq nümunələri, məşğuliyyət sahələri və s. insan düşüncəsini təzahür formasıdır. Deməli, insanın yaratdığı hər maddinin mayasında mənəvilik, dünyabaxışı, təbii-coğrafi amillər, regionallıq, ənənəvilik dayanmaqla, sonda təklərin, ayrıların vəhdətindən millilik meydana gəlir. Bu baxımdan mənəvinin yüksək təsiri olmadan millinin təzahürü mümkün deyil. Millət anlayışına uyğun olaraq milli dəyərlər müəyyən zaman və məkan daxilində, ümumi dil, mənəvi-psixoloji, tarixi-coğrafi əraziyə, uzun illər boyu formalaşmış adət-ənənəyə uyğun olaraq yaranmış mədəniyyətdir.

Bizim uzun illərdir apardığımız araşdırmaların ana xəttini mənəvi mədəniyyətin tədqiqi təşkil etmişdir. Toplanmış çöl materiallarının sistemləşdirilməsi, onların tarixi mənbələrlə qarşılıqlı təhlili nəticəsində bu qərara gəldik ki, mənəvi mədəniyyətlə bağlı bəzi məsələləri monoqrafiya halında nəşr etdirək. İki fəsildən ibarət olan kitabın birinci fəslində xalqımızın məişətində, milli düşüncə tərzinin və dünya baxışının formalaşmasında ciddi rol oynayan bayram və mərasimlərlə əlaqəli bir sıra qaranlıq məqamlara, mübahisəli məsələlərə aydınlıq gətirməyə çalışmışıq.

Kitabın "Adətlər, münasibətlər" adlanan ikinci fəslində hazırda ciddi transformasiyaya uğramış "yaşınma adəti"nin tarixiliyi, genetik bağları, müasir məişət münasibətlərimizdə yeri araşdırılmışdır. Tarixi-etnik əlaqələrin öyrənilməsindəki elmi əhəmiyyətini nəzərə alaraq əsərdə müasir məişətimizdə mövcud olan bir sıra adət və inamların, alqış və qarğışların Kitabi Dədə Qorqud və Bilqamıs dastanları ilə qarşılıqlı əlaqələri tədqiq edilmişdir. Bunlarla yanaşı monoqrafiyada ailə məişət münasibətlərində qadının yeri, ailədə uşaqların sayı, onların ənənəvi tərbiyyəsi məsələləri, hazırda məişətdən çıxmış, ancaq yaddaşlarda qorunub saxlanan milli uşaq oyunları və onların keçirildiyi meydana münasibət araşdırılmışdır.

# I FƏSİL.

## MƏNƏVİ MƏDƏNİYYƏT:
### *Bayramlar, mərasimlər*

Milli-mənəvi dəyərlərimizin tarixi köklərinin, onun mifaloji-dini, etnik-milli yönlərinin araşdırılması etnoqrafiya və bu qəbilən olan elmlərin qarşısında duran mühüm vəzifələrdən biridir. Bu baxımdan təqvimlə bağlı xalq arasında mövcud olan adət və inamlar, onların genezisi məsələsi diqqəti daha çox cəlb edir. Biz uzun illərdən bəridir ki, bu sahəyə aid geniş etnoqrafik materiallar toplasaqda hər dəfə problemlə əlaqəli müəyyən yeniliklərlə qarşılaşır və düşünməli olursan, Allahım, bu xalq heç fərqinə varmadan böyük dəqiqliklə əməl etdikləri adət və inamlara necə sahib olmuşdur? Kim nə deyir desin, nə yazır yazsın, necə təhlil aparır aparsın insanlar həyatlarını, bütün məşğuliyyətlərini min illərlə formalaşmış təcrübələrinə və onlar əsasında yaratdıqları xalq təqviminə görə qurmuş, ona uyğun olaraq hərəkət etmiş, ətraf aləmlə ciddi təmasda olmuşlar. Naxçıvanlı heyvandar "Ülkər doğma"yınca yaylaqa qalxmaz, ayrı-ayrı bölgələrdə müxtəlif əkinlərin aparılması ətrafdakı dağların, bitkilərin əlamətlərinə görə həyata keçrilərdi. Taxılı döyüb, sovruğa verənlər səmt küləklərinin nə vaxt başlayacağını, əkinçi, maldar hansı dağın başını bulud alanda yağış yağacağını və digər əlamətləri olduğu kimi söyləyərdilər.

Xatırıma bir hadisə düşdü. İsti yay günlərini birində Ordubad bölgəsinin Aza kəndində material toplayırdım. El

dili ilə desək: "külək adamı aparırdı". Mən yaşlı müsahibimdən soruşdum ki, burada küləyin dayandığı vaxt olur? Cavab verdi ki, olur. Zarafatla dedim ki, onda niyə köçüb getmirsiniz? Cavab verdi ki, bizi burada saxlayan bu küləkdir. Küləklər əsasən ilin isti fəslində əsir. Əgər külək dayansa istidən nəfəs almaq olmaz.

Digər ərazilərdə olduğu kimi Naxçıvanda da ilin fəsillərə görə bölgüsü vardır. Lakin yerli təbii-coğrafi şəraitə, min illərlə topladığı təcrübəyə əsaslanan xalqımız özünəməxsus, bölgü sistemi, təqvim adətləri və bununla əlaqəli inamlar sistemi formalaşdırmışdır. Xalq arasında mövcud olan deyimə görə-payızın bir ayı qışdan, qışın bir ayı yazdandır. Deməli, xalq təcrübəsinə əsasən fəsillərin bölgüsü yerli şəraitə uyğun olaraq dəyişdirilmişdir. Bu elə belə söylənməmişdir. Xalq bütün təssərüfat fəaliyyətini, yaşam tərzini bu deyimə uyğun qurmuşdur. Toplanmış çöl materiallarına və özümüzün təcrübələrimizə əsaslanaraq deyə bilərik ki, Naxçıvanda ilk qarın nə vaxt yağacağını heç kəs söyləyə bilməz. Ola bilər ki "Qoçqarışan"dan ("Qoç boranı"ndan) sonra soyuqlar başlasın və uzun müddət davam etsin. Əksinə, ilk qar yağdıqdan sonra əriyib getdiyi, Kiçik çilləyə qədər havaların xoş keçdiyi də müşahidə olunmuş, ağacların erkən çiçəkləməsi təhlükəsi yaranmışdır. Deməli, kəskin kontinental iqlimə malik olan Naxçıvanda payızın orta ayında, ən geci ilk qar yağana qədər ailələrin qış hazırlığı, yanacaq toplanması, payızlıq əkinlər, heyvandarlıqla bağlı məsələlər və digər problemlər həll edilməli idi. El arasında bunlara əməl etməyən insanları "dirriksiz" adlandırırdılar. Bununla əlaqəli bölgədən topladığımız bir deyim və rəvayət diqqətimizi çəkir: "Qarı deyir: "Öləcəyəm", qız deyir: "Ərə gedəcəyəm" Beləliklə, onlar qış hazırlığı görmürlər. Qar

yağır qapını alır. Nə qız ərə gedir, hə də qarı ölür". Həmin qışı hazırlıq görməyən qız və qarı özgələrinə möhtac olurlar.

Soyuqların ilk əlamətinin el dili ilə desək: "Yayın orta ayı"nda, "yayın oğlan çağı"nda, "qorabişirən"də, "yay yarı olan gün"də, xalq arasında "quyruq doğdu" (bəzi araşdırıcılara görə "quyruq dondu", "quyruq doldu") adlanan gündən, yəni, indiki təqvimlə avqustun 5-ində, axşamdan başlandığına inanılır. El arasında deyirlər ki, bundan sonra gecələr şeh düşəcək. Həmin günü bütövlükdə təbiətdə ciddi dəyişiklik baş verdiyinə inanan xalqımız mineral suların (şor suların) kəsərdən düşdüyünü, onlarda yuyunmağın insan orqanizmi üçün zərərli olduğunu söyləyirlər. Ümumiyyətlə, təqvim adətlərimizdə yeganə gündür ki, heyvandarlıqda, əkinçilikdə, bütövlükdə insan həyatında müəyyən yasaqlara əməl edilməyə başlanılır. Buna görə də məsələnin ciddi şəkildə araşdırılmasına ehtiyac duyuruq. "Quyruq doğdu", "quyruq dondu" və "quyruq doldu" məsələlərindən bir sıra yazılarımızda bəhs etdiyimizdən onun üzərində geniş dayanmayacağıq. Elmi dəlillərə və xalq arasındakı materiallara əsasən "quyruq doğdu"nun astronomik dəyişikliklə bağlı olduğu, həmin günün axşamı səmada quyruqlu (arxasında quyruq kimi işıq olmasına görə belə adlanır) ulduz görünməsi reallığı daha çox əks etdirir. Yoxsa, dəqiq bir gündən, avqustun 5-i axşamından başlayaraq ərinmiş quyruğun donması və ya heyvanların quyruq tutması baş verə bilməz. Ümumiyyətlə, məsələ ilə əlaqəli çox sayda müxtəlif istiqamətli, bəzən də ziddiyyətli fikirlər mövcuddur ki, onları ayrıca olaraq tədqiqata cəlb etmək gərəkdir. Biz isə daha çox min illərin təcrübəsinə və ondan qaynaqlanan mənbələrə söykənməyə çalışmışıq.

Problemi araşdırarkən bir məsələ diqqətimizi çəkdi.

Astronomik təqvimə əsasən yaz və payız bərabərliyi mövcud olsa da xalq arasında təqvimlə əlaqəli iki dövr daha təntənəli şəkildə qeyd edilir-qışın yola salınıb yazın qarşılanması (Xıdır Nəbi, Çilləbeçələr və Novruz) və qışın qarşılanması (Çillə gecəsi, dekabrın 20-si axşamı). Hər şeydən öncə bu qarşılanma və yolasalınmalarla bağlı bir məqama diqqət verək. Birinci halda müəyyən məqsəd, məram, sınaq üçün çağırılmadan, sevilmədən gəlmişin yola salınmasından və gəlişi üçün bir aydan artıq hazırlıq görülmüşün qarşılanmasından, sükunətə çəkilmişin, səfərə getmişin qayıtmasından bəhs edilir. Onun gəlişi, bayram, gecəsi bayram axşamı adlanır. Geyimi şadlıq rəmzi olan qırmızı, ətraf aləmin donu isə yenidən canlanma, həyat rəmzi olan yaşıldır.

Qışa gəlincə, onu qarşılamaqda böyük təntənə olmur. Bu sanki gəlməsi gözlənilsə də gəlişindən çox da sevinilməyən, içində sıxıntı olan bir məqamdır. Bəlkə, bunun təsiridir ki, onun qarşılandığı axşam bayram axşamı deyil, "Çillə gecəsi", yəni dərdin, qəramətin, çətinliyin başlanmas gecəsi kimi adlanır. Bu elə bir dövrdür ki, qaranlıq, sükunət daha çox hakimdir. Təbiət və ətraf aləm yarım ölü, yuxulu haldadır, passivlik üstünlük təşkil edir. Ona görə bu belədir ki, canlı aləm uzun və bol günəşli günlərdə topladığı aktiv enerjini məhdud şəkildə sərf edərək yaza çıxa bilsin. Eyni şey bioloji varlıq olaraq insana da aiddir. Beləliklə, qış insan həyatı üçün daha çox maddi-fiziki cəhətdən özünüqoruma, növbəti sınaqdan keçmə, mənəvi cəhətdən zənginləşmə mərhələsidir. Qış bir hünər mərhələsi, 9 aylıq cəfanın səfasıdır. Bu dövrün geyimi də fərqlidir: qalın, daha çox tünd rəgli, daha çox yun. Təbiət isə qocalıq, paklılıq rəmzi olan ağ geyimə, özgə sözlə desək yenidən oyanmaq üçün ağ kəfənə bürünüb qış yuxusuna, qayıdış yuxusuna gedib.

Bu ölüm kəfəni deyil, Əshabi Kəhfdəkilərin, digər seçinlərin yuxusu timsalıdır. İnsana həyatının məqamlarını göstərməkdir. Bu həyatın əsası olan dörd ünsürün özünəçəkilməs, yeniləşmək üçün yatışıdır-Günəş solğun, az görünən və soyuqdur, qaranlıqlar hakimdir. Sular buz bağlamış, torpaq ağ yorğanını bürünüb yatmış, nəfəslər içəri çəkilmişdir. Bu yuxu Çilləbeçələrə, Axır Çərşənbəyə qədər davam edəcəkdir. Qışın ağ geyimi isə yaza hamilə olan aləmin paklıq libasıdır. Bəlkə, bu Çillə gecəsi yenidən doğulmaq üçün hamilə aləmin əildolu, özündə dünya, bakirəlik, artıb-çoxalmaq, adında qar və buzu birləşdirən, yetkinlik (qırmızı) rəngi ilə günəşi, istiliyi, yaşıl rəngi ilə varolmanı, yazı təmsil edən, bütövlük timsalı olan qarpızla qarşılanmasıdır?! Heç təsadüfü deyil ki, xalq arasında "Çillə qarpızı"nın şəfavericiliyinə, xəstələri sağaldacağına, ondan yeyənlərin qış boyu xəstələnmiyəcəklərinə inanılır. Təbiətin bu iki məqamında həyat məsələsi, insanların düşünməsi gərəkən böyük mənalar vardır.

Bu iki qarşılanmanın arasındakı günlərə diqqət yetirsək avqustun 5-i, yəni yay yarı olan gün, yaz bərabərliyi ilə ilin ən qısa gününün, qışın başlanması arasındakı ortaq gündür. Yəni, Novruzdan, martın 21-dən avqustun 5-i axşama qədər 137,5 gün, avqustun 5-i axşamdan dekabrın 21-nə, qışın başlanmasına qədər 137,5 gün, toplam 275 gün. Bura dekabrın 21-dən martın 21-ə qədəri də əlavə etsək 365 gün. Allahım, dünya günəş təqviminə keçməmişdən öncə Sənin "Mənim ordum" dediyin bu millət nə qədər yüksək dünyabaxışına malik olmuşdur. Bəli, bu bölgünün içərisində bir millətin varolma, yetişmə, zahiri ölüm (bizlərin ölümü kimi), yenidən doğulmaya məkumluq vardır. Beləliklə, xalqın min illərlə qoruyub saxladığı, zaman-zaman zəngin-

ləşdirərək günümüzə qədər çatdırdığı hər bir adət, inam uzunmüddətli düşüncə tərzinin, ətraf aləmlə qarşılıqlı təmasın, real mövcudluğun dərkinin təzahür formasıdır. Bütün bunları nəzərə alaraq xalq arasında mövcud olan bayram və mərasimlərlə əlaqəli bəzi məsələlərə, onların elmi-mifoloji, tarixi-etnik məqamlarına diqqət yetirməyə çalışmışıq. Ənənəvi olaraq təqvim adətləri ilin fəsillərinə görə araşdırılır və daha çox qışın yola salınması və yazın qarşılanması ilə bağlı bayramlar, adət və inamlar, mərasimlər ön plana çəkilir. Bizcə bu bölgü şərtidir. Dünya təcrübəsində bu adət və inamları "qışın qarşılanması və yola salınması" adı altında da araşdırmışlar. Biz isə elmi əhəmiyyətini, daha çox etnik-milli tərəflərini nəzərə alaraq ana xətdən başlamaq, onaqədərki və ondan sonrakı bəzi məqamlara nəzər yetirmək niyyətindəyik. Beləliklə, fəslin kiçik ön sözündən sonra Novruzla əlaqəli müəyyən məqamlara diqqət yetirək. Bir məsələni də qeyd edək ki, bəzi cəhətləri şərh edərkən baş vermiş təkrarçılıqlar fikrin möhkəmləndirilməsinə əsaslanır.

## 1.1. NOVRUZ BAYRAMI VƏ ONUN MƏNŞƏYİNƏ DAİR BİR NEÇƏ SÖZ

Xalq təqvimi içərisində Novruz və onunla bağlı adətlərin və inamların araşdırılması xüsusi yer tutur. Biz əvvəlki illərdə də Novruzla bağlı geniş materiallar toplamış və bir neçə məqalə nəşr etdirmişik. Buna görə də bu məsələ ətrafında qısaca olaraq bəhs edəcəyik. Bu bayramın keçmiş tarixi, xalqımızın həyatındakı əhəmiyyətli rolu qədim mənbələrdən başlamış Oğuz dastanı «Kitabi-Dədə Qorqud»a,

böyük Nizamidən başlamış bu günəqədərki tariximizə bayramlar bayramı, el bayramı, yeni il, təbiətin oyanması, yazın gəlməsi, fəsil dəyişilməsi bayramı kimi daxil olmuşdur.

Novruz bayramı bütün şimal yarımkürəsində başverən astronomik dəyişiklik ilə bağlı olub, qışın getməsi, yazın gəlməsi, təbiətin oyanması, ilin bar, çiçək bayramıdır. Bu bayram dünyanın bir sıra xalqlarında, xüsusən Orta Asiya və Qafqaz xalqlarında təntənə ilə qeyd edilir.

Bayramın şimal yarımkürəsində yerləşən bir sıra xalqlar arasında qeyd edilməsi təbii amillərlə əlaqəli olmaqla qanunauyğun haldır.

Lakin onun qarşılanması ilə bağlı adət və inamlar fərqlənirlər ki, bundan milli cəhətlər formalaşır. Özgə sözlə desək Allah tərəfindən qoyulmuş astronomik dəyişilməyə milli don biçilməsi onu öz mədəniyyətə çevir.

Dünyanın elə xalqları vardır ki, onlar sadəcə olaraq bu günü yaz bərabərliyi kimi bilir və heç bir xüsusi mərasimə əməl etmirlər (Bizdə payız bərabərliyində olduğu kimi). Artıq, burada milli cəhətdən danışmaq olmaz. Digərlərinin iddialarından fərqli olaraq bizim əməl etdiyimiz bayramlar min illərdir ki, milli zəmində həyata keçirilir. Biz milli dəyər deyərkən milliliyin bəşərilikdə təzahürünü nəzərdə tutur və ona sahib çıxırıq. Bu özünü geyim və bəzəklərdə, ailədaxili münasibətdə, mənəvi-psixoloji amillərdə, təbiət-insan münasibətlərində, adət və inamlar sistemində göstərir.

Azərbaycanlılar arasında bayrama hazırlıq və onun keçirilməsi prosesini öyrənmək məqsədi ilə geniş etnoqrafik materiallar toplanmışdır. Əsas məqsəd isə bayramın bu günkü vəziyyəti və onun keçirilmə prosesini öyrənməkdən ibarətdir.

Etnoqrafik tədqiqatlar göstərir ki, Novruz bayramı Naxçıvan ərazisində keçirilən bayram və mərasimlərin ən təntənəlisidir. Bu bayram xalq arasında «Novruz bayramı», "Yaz bayramı", bir sıra hallarda isə sadəcə olaraq «bayram» adı ilə məlumdur. Novruz bayramı qışın sonu, yazın başlanğıcı bayramıdır. Naxçıvan ərazisində bayrama dörd həftə qalmış hər cərşənbə axşamı (Naxçıvanda həftənin Çərşənbə axşamı Tək adı ilə də bilinir. Bizcə qədim təqvimimizdən qalma və sırf türk mənşəli olan sözün araşdırılmasına, beləliklə həftənin günlərinin daha qədim adlarının bərpasına ehtiyac var) təbiətdə baş verən bir dəyişikliklə əlaqələndirilir və xüsusi mərasim keçirilir. Bunlar su, od, torpaq və külək çərşənbələri adlanır. Son dövrdə bəzi müəlliflər çərşənbələri oddan başlayırlar. Guya, gərək od qızdıra sonra su, torpaq qıza. Onlar sadəcə olaraq dörd ünsürü istiliklə dəyişik salırlar. Bu qızma deyil oyanmadır. Yatmışın, sükunət halına keçmişin hərəkətə gəlməsidir. Özgə sözlə desək yay yarı olan gündən kəsərdən düşmüş mineral (şor) suların oyanmasıdır. Bu məsələdən ayrıca başlıqda bəhs edəcəyik. Xalqın adət və inamlarını hər kəs öz düşüncəsinə uyğun dəyişə bilməz.

Yuxarıda göstərilən bir ay müddətində bayrama ciddi hazırlıq görülür. Qışdan sonra evlər, həyət-baca təmizlənib təzədən yığışdırılır, paltar-palaz yuyulur. Bu el arasında «ev tökmə» adlanır

Bir sıra ailələrdə bayramaqədərki dövrdə səməni göyərdilir, Göyərdilmiş səmənidən səməni (səməni halvası) bişirmək adəti olmuşdur (30). Lakin son illərdə bu adət aradan çıxmağa başlamışdır.

Bayram şirniyyatı, meyvə və s. hazırlanır. Bununla yanaşı, bir ay müddətində təbiətin. iqlimin dəyişilməsi ilə

əlaqəli inamlar da vardır. Xalq arasında olan inama görə, bayram ayındakı dörd həftənin hər birində bir dəyişiklik baş verir. Xalq arasında olan adətə görə, bütün yaslılar bayrama qədər yasdan çıxmalıdır. Bunun üçün ili tamam olmamış bütün mərhumlara «Qara bayram» keçirilir. Qara bayramdan sonra isə yaslılar yasdan çıxmış hesab olunur. Bayramdan əvvəl kənar yerdə olanlar çalışırlar ki, evlərinə qayıtsınlar. El arasında olan inama görə, kim Novruz günü evdə olmasa yeddi il həmin günü evdə olmayacaq. Qədimdən formalaşmış belə bir inam da mövcuddur ki, kim bayramı küsülü olsa, ağlasa, pis iş görsə, bu, yeddi il təkrar olacaq. Ona görə də bayram günü küsülülər barışırlar, hamı çalışır ki, şən olsun.

Naxçıvan bölgəsində Novruzdan əvvəl köhnə ilin axır çərşənbə axşamı çox təntənəli keçirilir. Bu gün el arasında «baca-baca» adlanır. Həmin gün bütün ailələrdə plov hazırlanır. Çalışırlar ki, ailə üzvləri təmiz və səliqəli geyinsinlər. Ata evi və digər qohumlar ərdə olan qızlara pay göndərirlər. Payda meyvə, şirniyyatla yanaşı mütləq plov olmalıdır. Payı aparan adam isə pay apardığı evdə az da olsa, plov yeyir. Şənliyin ən təntənəli hissəsi gün batandan sonra başlanır. Bütün həyətlərdə tonqal qalanır, atəşfəşanlıq edilir, fişəng və uşaqların özləri hazırladıqları «şar»lar ( bəzi kəndlərdə"lopa") yandırılıb fırladılaraq göyə atılır, taraqqa partladılırdı. Ailənin bütün üzvləri tonqal başına toplanır, şən mahnılar oxuya-oxuya od üstündən tullanır və deyirlər:

Ağrım-uğrum tökül bu odun üstünə,
Dərdim-bəlam tökül bu odun üstünə.

Bununla bərabər qarşıdan gələn ildən müxtəlif arzular diləyirlər. Hətta evlərin damının üstündə də tonqal yandırılır. Tonqalın külünü evin dörd küncünə tökürlər və bununla

təzə ildə şər qüvvələrin evə yaxın gələ bilməyəcəyinə inanırlar.

Axır çərşənbə axşamı Ordubad rayonunun Nüs-Nüs, Əndəmic, Vənənd, Şərur rayonunun Kərimbəyli, Vərməziyar, Culfa rayonunun Yaycı kəndlərində daha təntənəli keçirilmişdir. Ordubad və Şərur rayonunun adları çəkilən kəndlərində «Xan bəzəmə» adəti vardır. Kəndin geniş meydanı təmizlənir, xan paltarı geyinmiş bir nəfər özünün vəzir-vəkili və təlxəyi ilə meydanda çox məhzəkəli məhkəmə işləri aparır. Ətrafda isə qara zurnada el havaları çalınır, camaat dəstə-dəstə rəqs edir, gənclər qurşaq tuturlar. Belə şənlik axşama qədər davam edir. Axşamüstü isə meydanda ümumi bir tonqal yandırılır. Bütün fəxri işləri görmək Xana həvalə olunur (Son illərdə bu adət aradan çıxmağa başlayıb). Şənlikdən sonra bütün ailələr öz evlərində süfrə başına toplaşırlar (29, s. 18).

Axşam qaranlıq düşəndən sonra qızların, qadınların qapıya getməsi (niyyətə getmə, qapı pusma, qulaq falı, qulaqasma) başlanır. Qapıya gedənlər ürəklərində müəyyən niyyətlər tuturlar; onlar evdən yaxşı söz eşitsələr, niyyətlərinin həyata keçəcəyinə inanırlar. Ordubad rayonunun Dəstə, Aşağı Əylis, Yuxarı Əylis, Aza və s. kəndlərində niyyət edən adamın «qapıya açar salması» adəti də vardır. Bu adətə görə qapıya açar saldıqdan sonra evdən eşidilən ilk söz əsas götürülür. Babək rayonunun Vayxır, Xal-Xal, Nəzərəbad, Cəhri və s. kəndlərində niyyət edən adam evə girib danışmadan hər iki əlini uzadır qabağa, evdən bir nəfər onun ovuclarından birinə şirniyyat qoyur və ya su tökür. Niyyət etmiş adamın niyyəti düz olduqda o, bildirir ki, niyyəti düz tapılıb. Çünki o hələ gəlməmişdən niyyətində tutur ki, əgər arzum yerinə yetəcəksə, suyu sağ və ya sol

əlimə töksünlər. Şahbuz, Şərur, Culfa və Ordubad rayonunun bir sıra kəndlərində oğlanların «qurşaq atma» adəti də diqqəti cəlb edir. İçəri atılmış torbalara yumurta, meyvə, şirniyyat, bəzən corab-dəsmal qoyurlar. Xalq arasında olan inama görə, axır çərşənbə gecəsi görülən yuxu çin olur. Axşamdan niyyət edər və başlarının altına açar qoyub yatırlar ki, yuxuları çin olsun. Axşam gördükləri yuxunu səhər axar suya danışırlar. Ümumiyyətlə, xalq arasında görülmüş yuxunun, dərdin suya söylənməsi, su ilə təmizlənmə, suyun həyat verməsi və s. ilə bağlı inamlar geniş yayılmışdır. Babək rayonunun bir sıra kəndlərində «baca-baca» gününün səhəri tonqal qalanır, evdəkilər od üstündən hoppanırlar. Sonra isə ailə üzvlərinin çoxusu çay kənarına, bulaq başına gedib su üstündən tullanır. Mal-qara da su üstündən keçirilir. Yuyunduqdan sonra hər kəs əl atıb sudan kiçik daşlar götürür və gələn ilin Axır çərşənbəsinə qədər bu daşları saxlayırlar. Belə daşlar xeyir-bərəkət daşları hesab edilməklə pul kisəsinə, ərzaq saxlanan qablara qoyulur və gələn il daşlar yeniləri ilə əvəz edilir. Qadınlar həmin gün evə «çərşənbə suyu» gətirirlər. Çərşənbə suyu ilin axırına qədər saxlanır. Hər dəfə xamır yoğrulduqda həmin sudan bir az tökürlər. Uşaqların boğazı ağrıyanda, xəstələndikdə həmin sudan az miqdarda uşağın üzünə atırlar, boğazını ovurlar. Axır çərşənbədən sonra şənliklər bir neçə gün davam edir və Novruz günü başa çatır.

Martın 20-si "bayram axşamı" sayılır. Həmin gün mərhumları yad etmək üçün qəbirstanlığa getmək adəti vardır. Bu adət «Əhliqübur» ziyarəti, «Ata-Baba» günü adlanır. Adətə görə hər kəs əziz adamının məzarını ziyarət edir, qəbrin ətrafını təmizləyir. Həmin gün ağlayıb-sızlamaq, ahu–zar etmək olmaz.

Xalq arasında ilin təhvil olması anına xüsusi önəm verilir. Bir sıra müəlliflərin məlumatlarından, həmçinin ədəbiyyat materiallarından aydın olur ki, ilin təhvil olunmasını bilmək üçün balıqdan istifadə edilir. İri qabdakı suya üç balıq buraxılır (balıqların sayı üçdən az olmur və onlar ağsaqqallar tərəfindən nəzarətdə saxlanılırlar). Balıqlar eyni vaxtda arxası üstə çevriləndə deyirlər ki, il təhvil oldu. Guya bu vaxt suya baxan adam ilin hansı heyvan üstündə təhvil olduğunu da bilir. Yəni suda həmin heyvanın şəklini görür. Təbii ki, min illər boyu 12 heyvanın bir–birlərini əvəz etməsinə əsasən ilin hansı heyvan üstündə təhvil olacağını əvvəlcədən bilirlər.

Kərimbəy İzmailovun məlumatlarından aydın olur ki, XIX əsrdə Nehrəm kəndində ilin təhvil olmasını bilmək üçün yuxarıdakı qaydadan istifadə etmişlər [60, s. 192-201]. 1637-ci ildə Şamaxıda olmuş alman elçisi Oleari ilin təhvil olması ilə bağlı dəyərli məlumatlar vermişdir [20, s. 83]. Novruz günü doğulmuş oğlan uşaqlarının adını Novruz, Bayram qoymaq adəti vardır. Həmin gün yumurta boyayır, kökə bişirirlər. Martın 21-də, səhər erkəndən cavanlar yaşlıların görüşünə gedirlər. Ordubad rayonunun Aza, Sabir Dizə, Culfa rayonunun Saltaq, Göydərə, Ləkətağ və s. kəndlərində kəndin bütün camaatı ağsaqqal və ağbirçəyin görüşünə gedirlər. Görüş bayramdan bir müddət, bəzən bir neçə həftə sonra da davam edirdi. El arasında, görüşdə alma böyük pay hesab olunur. Toplanmış materiallardan aydın olur ki, Naxçıvan bölgəsində, həmçinin Qərbi və Cənubi Azərbaycanda Axır çərşənbə Norvuza nisbətən daha təntənəli keçirilmişdir. Bayram axşamı həmin təntənə başa çatır, səhər yaşlıların görüşünə gedilir.

Deməli, Novruz bayramı qışın yola salınması, yazın

qarşılanması ilə bağlı mərasimin sonu, bir növ yekun nöqtəsidir. Qurulmuş bütün təntənə, inanclar onunla bağlıdır. Novruz bir günün deyil, bir ilin təntənəsi olmaqla daha çox bəşəri bayramdır. Bunları nəzərə alaraq Novruzla bağlı bəzi məsələlərə diqqət yetirmək yerinə düşərdi.

Bir sıra bayram və mərasimlər vardır ki, onlar dünyanın müxtəlif xalqlarında geniş şəkildə yayılmışdır. Bu, həmin xalqların eyni qurşaqda, coğrafi bölgədə yaşaması, qarşılıqlı təması ilə əlaqəlidir. Yazın gəlməsi, il dəyişməsi olan Novruz bayramı da belə mərasimlərdəndir. Müqayisəli araşdırmalar sübut edir ki, türk toplumlarının yayıldıqları bütün coğrafiyalarda, Novruz müxtəlif adlarla təntənəli şəkildə qeyd olunur. Lakin uzun illər xalqın qədim bayramına yasaq qoyulmuş, yaşı bəşər övladının özünüdərkindən başlayan ulu bayrama qaralar yaxılmışdır.

Novruz-Şanı uca Allahın seçdiyi bir gün, Şimal yarımkürəsində oyanış, yaranma bayramı kimi qeyd olunmuşdur.

Tarixi mənbələr sübut edir ki, hələ təqvimlərin formalaşmadığı, il və zaman hesabı ayın fazalarına görə müəyyən edildiyi bir dövrdə xalq buna ilbaşı, yeni ilin başlanğıcı demişdir. Coğrafi mövqeyinə, təbii şəraitinə uyğun olaraq təbiətin məhz Novruzda oyanması, yeni ilin başlanması daha çox türklərin yaşadıqları orta qurşaqda müşahidə edilir. Yəni, nisbətən cənubda, ekvatora yaxın bölgələrdə havanın ciddi dəyişikliyi hiss edilmir. Şimal bölgəsində isə yazın gec gəlişi ilə bağlı olaraq mart ayında təbiətdə oyanma hiss olunmur. Bu özünü daha çox Doğu Türküstandan başlamış Orta Asiya, Cənubi Sibir, Qafqaz, Anadoluda göstərir. Yazılı mənbələrdə də türk qövmlərində ilin yazdan başlandığı xəbər verilir. Lakin bəzi müəlliflər

heç bir əsas olmadan Novruz sözündən, həmçinin bayramın İranda qədimdən keçirilməsindən istifadə edərək onu farslarla əlaqələndirirlər. Digər məsələlərdə olduğu kimi, burada da «Avesta» önə çəkilir. Bu vəziyyətdə bayramın digər xalqlarda qeyd edilməsi arxa plana keçirilir. Mənbələr isə İranda yeni ilin martda (Novruzda) deyil, yay girən günü qeyd edildiyini göstərir. Yəni, günəş Qoç bürcünə deyil, Xərçəng bürcünə keçərkən (21 iyunda) il dəyişir. A.Biruninin məlumatından aydın olur ki, hətta Miladın V yüzilliyində farslarda yeni il fərverdin-mah ayının birində, yəni yayın başlanğıcında qeyd edilmişdir [46, s. 223]. Müəllif bunu ilin ən uzun günü olması, insanların onu müşahidəsi ilə əlaqələndirir [46, s. 226] və göstərir ki, İranda yeni ilin Novruzdan başlaması islamlaşmadan sonra olmuşdur [46, s. 227].

Novruz bayramı ancaq hind-arilərlə deyil, bir sıra müəllif tərəfindən şiəliklə bağlanmışdır. Xüsusən, XIX əsr mənbələrində o tez-tez «şiə bayramı» kimi təqdim edilir (43). Sonrakı dövrlərdə də Novruz bayramına qara yaxılmış, hətta XX əsrin 20-30-cu illərində Novruza yasaq qoyulmuşdur. Dövri mətbuat, arxiv materiallarına əsasən demək olar ki, 1928-ci ildən başlayaraq Novruz bayramının qarşısını almaq üçün hələ fevral ayından "dağıdıcı dəstələr" düzəldilmişdir.

Mənəvi mədəniyyətimizin digər sahələrində olduğu kimi, Novruzu da türklərə İrandan-farslardan keçmə hesab etmişlər. A.E.Tenişeva Analdoluda Novruz və Xıdırelyaz bayramlarından bəhs edərək yazır ki, Anadoluda Novruz şənlikləri İranın təsiri ilə yaranmışdır [81, s. 73]. Ümumiyyətlə, bir sıra müəlliflər buradakı etnik tərkibi, məskunlaşmanı nəzərə almadan İran ifadəsinin, yəni coğrafi mənada olan məqamı farsçılıqla eyniləşdirirlər. Bu özünü Zərdüşlük və "Avesta" məsələsində də göstərir. Hər şeydən öncə din və

inamlar etnik kimliyin təyinedicisi ola bilməz. Digər tərəfdən din təkcə yarandığı ərazinin deyil, həmçinin yayıldığı xalqların da ortaq mədəniyyətinə aiddir. Əvvəlki illərdə olduğu kimi, belə ziddiyyətli baxışlar son dövrlərdə daha da geniş yayılıb. Lakin yuxarıda A.Birunidən gətirdiyimiz misallar, çox sayda mənbələr həmin fikirlərin yanlış olduğunu göstərir.

Qaynaqlara söykənərək demək olar ki, əski türk xalqlarında ilbaşı ilk baharda olmuşdur. Onlar bunu daha çox təbiət hadisələri ilə əlaqələndirirdilər. Bu məsələdə mifoloji baxışlar mühüm yer tutmaqla, bitki və həşəratların oyanması yenidən yaradılış, ölüb-dirilmə hesab olunmuş və təntənəli halda qeyd edilmişdir. Bir sıra qaynaqlarda türklərin baharı ilk ildırım çaxmasından başladıqları xəbər verilir. N.Y. Biçurinin məlumatından aydın olur ki, əski hunlarda ildırım vuran yer müqəddəs sayılmaqla orada qoç qurban kəsilərdi. İlk ildırım çaxması, göy gurlamasından sonra bayram keçirilərdi [47, s. 215-216].

Görkəmli türkoloq N.F.Katanov yazır ki, Sibir və Altay türklərində yazın, təzə ilin başlamasını göyün ilk gurlaması ilə əlaqələndirirlər [63, s. 424]. Dyankova V.P. tuvalılarla bağlı araşdırmalarında ilk göy gurlaması, ildırım çarpması zamanı bayram şənliklərinin keçirildiyini xüsusi qeyd edir [57, s. 287]. Oxşar adət və inamlara Sibir və Altay xalqlarında da əməl olunur. N.A.Alekseyev bu xalqlarda ilk ildırım çaxmasını baharın başlanması, onun insanların, heyvanların və təbiətin təmizlənməsi, saflaşması kimi qəbul edildiyini göstərir [39, s. 83-85]. Qarşılıqlı olaraq qeyd etmək yerinə düşər ki, indi də Naxçıvanda yazın başlıca əlaməti ilk ildırım çaxması, göy gurlaması hesab edilir. Əski inanclara görə, ildırım çaxmayınca, göy gurlamayınca göyərti yemək

olmaz. Buna görə də göy ilk dəfə gurlayan kimi deyirlər ki, göyərti yemək olar. «Kitabi-Dədə Qorqud»da oğuzlarda ilk baharda şənliklər keçirilməsindən xəbər verilir [16, s. 36].

Bəhlul Abdulla Novruzun mənşəyinin, onun Azərbaycanda çox qədimdən təntənəli şəkildə qeyd edilməsinin tarixini «Avesta»dan, irandillilərdən çox qədimə aid edir. Müəllif bir sıra ədəbiyyat materiallarına söykənərək Novruzun heç bir dinlə bağlı olmadığını, həmçinin onun genetik cəhətdən İran deyil, Azərbaycanla bağlılığını sübut edir [40, s. 180-185]. Problemlə əlaqəli Bəhlul Abdulla və Tofiq Babayevin tərtib etdikləri "Novruz bayramı ensiklopediyası"nda geniş məlumat vardır (24)

Tanınmış türk tədqiqatçısı Mustafa Turan tarixi mənbələr əsasında Novruzun qədimdən türklərlə bağlı mərasim olduğunu göstərir [38].

Türkün mənəvi mədəniyyətində, düşüncə tərzində Novruzun önəmli yer tutduğunu yazan Belkıs Temren onun tarixiliyinə, türklərlə bağlılığına xüsusi önəm verir [36, s. 173-179].

Volqaboyu türklərdə yazın qarşılanması ilə bağlı çoxlu adət və inanclar vardır ki, bizim adət-inanclarla üst-üstə düşür. Bizdə olduğu kimi, onlarda da bayramın əsas simvollarından biri qırmızı yumurta hesab edilir. Tatarlarda «Sabantuy» adlanan bu bayramdan bəhs edərək R.K.Urazmanova yazır ki, «sabantuy» əkinçiliklə bağlı olmaqla ilk qar əriyib yazın gəlməsi ilə başlayır. Saban-kotan, tuy-toy, şənlik deməkdir. Sabantuyda qırmızı yumurta boyanır, müxtəlif şirniyyatlar hazırlanır, at yarışı keçirilir [84, s. 94-100]. Volqaboyu türklərdə olduğu kimi Azərbaycanda, o cümlədən Naxçıvanda da təzə ilin ilk günü əkinə çıxmaq, bayramda at yarışları keçirmək geniş yayılmışdır.

Ümumiyyətlə, bayramın türk mənşəli olması və qədim türklərlə bağlılığına aid geniş ədəbiyyat materialları vardır ki, bunların hamısından bəhs etmək mümkün deyil. Lakin necə olursa-olsun, xalq hələ elmi mübahisələrdən, sizin-bizim məsələsində min illərlə öncə bayrama öz damğasını vurub, ona türk kimliyi verib.

Bunun üçün bayramla bağlı adət və inancların xarakterinə diqqət yetirmək kifayətdir. Kimlərsə bizim adətlərə, inanclara, mənəvi mədəniyyətə şəriklik etmək istəyirlərsə, bu adı çəkilən inancların, mədəniyyətin daha çox bəşəriliyi, humanistliyi, heç bir dini, irqi ayrı-seçkiliyə yol verilməməsi ilə bağlıdır. Yəni, hər bir etnos müsbət cəhətlərin özününkü olmasını istər. Diqqət etsək min kilometrlərlə əraziyə, 15 mln $km^2$ sahəyə yayılmış bir etnosun eyni inama əməl etməsi onun özünəməxsusluğu, vahid dəyərlərə aid olması ilə bağlıdır.

Kimliyindən, kimə məxsusluğundan asılı olmayaraq insanlara sevgi, barış, qarşılıqlı yardımlaşma, sağlamlıq gətirən bu bayrama insanlığın ortaq mirası kimi baxılmalıdır. Amma bəşəri xarakter daşıyan ortaq dəyərlərin yaradıcılarının türklər olduqları unudulmamalıdır.

Novruzun, yeni günün, yaz bayramının başlanğıcı Allahdandır. Kimsə deyil, şanı uca Allah təbiətə, dünyaya belə nizam verib. Biz türklər isə böyük neməti üçün Allaha daha tez boyun əyib, o günü şənliklər, dualar, könül xoşluğu, sevgi-barış, ulu şənlik kimi qeyd etmişik. Nəsiminin dediyi kimi Novruz cənnət timsalıdır:

Xüsusən novruzun xoş günlərində ki,
Sular kövsərə, dünya isə cənnətə dönübdür (11. s.258).

Beləliklə, Novruz bayramı bəzilərinin adlandırdıqları kimi hər hansı bir dinə məxsus bayram deyil, astronomik

təqvimlə bağlı, il dəyişilməsi, yazın gəlməsi, təbiətin oyanması, Allahın insanlığa verdiyi bayramıdır. Burada insan həyatının qədim dövrü ilə bağlı-su, od, daş və s. ayinlərin güclü olması bayramın nə dərəcədə qədim tarixə məxsusluğunu göstərir.

Novruzla, yazla əlaqəli nə dərəcədə geniş materiallar, müxtəlif şeirlər, nəğmələr toplasamda M.Ə.Sabirin "Yaz günləri" şeiri ayrıcalıq təşkil edir:

Gəl-gəl, a yaz günləri,
İlin əziz günləri.
Dağda ərit qarları,
Bağda ərit qarları.
Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.

Düşünürəm ki, ustad şair əziz gün adlandırdığı yazı Nəsimi kimi cənnət timsalı, yenidən var olmanın, sevincin, çətinlikdən qurtarmanın, bar-bəhərin, bolluq-bərəkətin başlanğıcı hesab etmişdir.

Xalqın uzunmüddətli müşahidələrinə əsasən demək olar ki, yazın ilk əlaməti leyləklərin qayıtmasıdır. Leyləklər əsasən Kiçik çillənin sonu, Çillə-beçənin əvvəllərində gəlirlər. Bundan sonra havalar bir neçə günlüyə soyuyur, soyuq küləklər əsir. Buna «leylək boranı» deyilir. Xalq arasında deyirlər ki, gərək leylək yumurtasının üstünə qar yağa. Ümumən leyləklər erkən qayıtdıqlarından öz köhnə yuvalarına dönürlər. Onlar Novruzu yuvalarında keçirirlər.

Anadolu türklərində də inanırlar ki, leylək Novruzu yuvasında keçirməlidir. Yəni o, Novruza qədər mütləq qayıtmalıdır. Erzincan eli yörəsində olan inama görə leylək: «Səkkizi marta (yeni təqvimlə 21 mart) gəlməm, 9 marta qalmam»-deyər.

Bayramqabağı güclü küləklər əsir ki, buna «vədə yeli» deyilir. Vədə yeli köçəri quşların kütləvi sürətdə qayıtmasına səbəb olur.

Biz tədqiqat nəticəsində Naxçıvan ərazisində düşən yağıntıların, xüsusən qarların adını müəyyənləşdirə bilmişik: quşbaşı-güclü və iri qar, sulu-yağışla qarışıq, narın (narın darağa salma), kəpək, qaryeyən (yazqabağı yağır) və s.

Qışdan fərqli olaraq yaz iki yerə ayrılır: «Qarayaz» (buna «yazanquru» da deyirlər), güllü yaz. Yazdan 40 gün keçənə qədər «qara yaz» adlanır. Qarayaz ərzağın, heyvanların yeminin tükəndiyi, çöllərin tam yaşıllaşmadığı dövrdür. «Qarayaz» ildən asılı olaraq çöl pencərləri (şömu, əvəlik, qazayağı, cacıq və s.) yeyilənə qədər davam edir. Heyvandarlar «qarayazın» əvvəllərindən çox ehtiyat edirlər. El arasında deyilir: taxçada saxla, buxçada saxla, «qarayaza» bir pencə (10 bağ) ot saxla. Çünki ilin bu vaxtında tez-tez boran olur. Yem də az olduğundan heyvanlar doymur. Ordubad bölgəsində yazın ən qorxulu dövrü «Şeşəsovan» adlanır. İnama görə, bayramdan 36 gün keçənə qədər mal-qara üçün qorxuludur. Gərək bu müddətə qədər ehtiyat yem saxlana. Tanınmış etnoqraf H.Həvilovun məlumatından aydın olur ki, Azərbaycanın digər zonalarında da Novruzdan sonrakı 50 gün müddəti mal-qara üçün qorxulu hesab edilmişdir (15. s. 17).

Burada bir məqam diqqətimizi çəkir-qırxçıxma. Sanki, insan övladında olduğu kimi Novruzdan, yeni doğulmadan əmələ gələnlərin 40-nın çıxması, çillələrinin sovuşması baş verir.

Yaz elə bir dövrüdür ki, bütün il ondan asılıdır. Yəni, təsərrüfat məsələsi bu fəsildə qaydaya salınmalı, payızlıq və yazlıq əkinlərə qulluq edilməli, heyvandarlıqla bağlı

məsələlər həll olunmalıdır. Heç təsadüfi deyil ki, xalq arasında yazı «Tərlan quş» adlandırırlar. Deyirlər ki, Tərlan quşun vaxtıdır. Əgər onu tuta bilməsəniz uçub gedəcək, peşman olacaqsınız.

Ümumi sevinc, gənclik sevgisi ilə yanaşı Azərbaycanda, o cümlədən Naxçıvanda bayram xüsusiyyətlərinə görə aşağıdakı müsbət keyfiyyətlər və cəhətlərlə fərqlənir:

Ətraf mühitin qorunması, yeni ağaclar əkilməsi, yaztarla işlərinin başlanması.

Sağlamlıq-gigiyena cəhətdən isə uzun müddətli qışdan sonra bütün ev əşyalarının təmizlənməsi, paltar-palazın yuyulması, həyət-bacanın zibildən təmizlənməsi, hər kəsin təmiz və səliqəli geyinməyə çalışması diqqəti cəlb edir.

Yaslıların yasdan çıxması, küsülülərin barışması, camaatın bir-birinin görüşünə getməsi, şən və oynaq musiqi xalqın mənəvi cəhətdən zənginləşməsində böyük rol oynayır.

Burada ən önəmli məqamlardan biri bayramlaşmaqdır. Bu ailədən, evdən, qohumlardan başlayıb məhəlləyə,kəndə, bütün elə yayılan, barış və hörmət timsalı olan zirvə mərasimidir. Uşaqlar, gənclər yaşlıları, ağsaqqal və ağbirçəkləri təbrik edib, sizi sevənlər, sizin ardınızca gələnlər var duyğusunu ortaya qoyurlar.

Novruz qədim adət və inamlara qayıdış, milli düşüncə tərzinin yeniləşməsi, bərpası, insani münasibətlərin qorunub saxlanması, nəsillərdən-nəsillərə ötürülərək yaşadılması məqamıdır.

Yuxarıdakılardan belə nəticəyə gəlmək olar ki, dünyanın müxtəlif xalqlarında təntənə ilə qeyd olunan Novruz bayramı ilə bağlı adət və inamların əksəriyyəti tarixin alt qatlarında formalaşmaqla Azərbaycan ərazisində daha qədim dövrdən yayılmışdır. Onların çoxu təbii-coğrafi amillərlə, xalqımızın

milli düşüncə tərzi ilə bağlı olmaqla burada yaranmış və qorunub saxlanmışdır. Həmin adət və inamlar digər türk xalqları arasında da mövcud olmaqla ümumtürk xarakteri daşıyır. Burada bir məqamı xüsusi vurğulamağa ehtiyac duyuruq. Yuxarıda deyildiyi kimi bayram, onun milliliyi ilə əlaqəli müəyyən elmi əsası olmayan iddialar mövcuddur. Unutmaq olmaz ki, hər hansı bayram, mərasim milli olmur. Onda əməl edilən adətlər, inamlar, düşüncə tərzi milli olur. Təbii ki, Şimal yarımkürəsində gecə ilə gündüzün bərabərliyi, həyatın, təbiətin yeniləşməsi, oyanış, yeni həyatın başlanması dünyanın bir çox xalqları üçün sevinc gətirir. Amma, həqiqət üçün tarixi keçmişə də baxmaq gərəkdir. Onda daha dəqiq məlim olar ki, hansı xalqlarda bu gün bayram kimi daha qədimdən, təntənəli şəkildə qeyd edilmişdir və bu məsələdə təbii-coğrafi amillərin rolu nədən ibarətdir? Hər şeydən öncə tarixdə həmin günü bayram kimi qeyd edən daha çox türk xalqlarıdır. Bu bir sıra amillərlə yanaşı onların yayıldıqları coğrafi bölgə ilə də əlaqəlidir. Bizdən güneydə yaz erkən başlamış, quzeydə isə yazın əlamətləri görünmür. Deməli, bu məsələdə orta qurşaqda yerləşməyin böyük təsiri vardır. Digər mühüm şərt burada əməl olunan adət və inamların bir çoxunun ortaq türk xüsusiyyətləri daşıması və bunun tarixi mənbələrdə öz əksini tapmasıdır. Digər qonşu xalqlarda bununla bağlı oxşar adət və inamlara gəlincə, bu daha çox etnoslar arasında qarşılıqlı təsir məsələsi ilə izah edilməlidir. Böyük xalqlarla eyni ortamda yaşayan digər etnik birliklər zaman-zaman onların maddi və mənəvi dəyərlərini mənimsəyərək özününküləşdirməyə çalışırlar. Bununla da qalmayıb mənimsədiklərini dünyaya özününkü kimi təqdim edirlər. Bu baxımdan Novruz bayramı sırf milli xarakter daşımaqla, müəyyən dəyişikliklərlə qonşu xalqlara da keçmişdir.

## 2.2. QIŞLA ƏLAQƏLİ TƏQVİM ADƏTLƏRİ, «XIDIR NƏBİ» BAYRAMI VƏ HZ. XIZIR PEYĞƏMBƏRLƏ BAĞLI İNAMLAR

Problemlə əlaqəli məsələlərə keçməmişdən öncə bayramaqədərki bəzi məqamlara diqqət yetirməyi məqsədəuyğun sayırıq. Uzunmüddətli araşdırmalar sübut edir ki, payızın son ayları və qış xalq arasında daha çox toy-düyün, müxtəlif mərasimlərin, bayram və şənliklərin keçirildiyi dövrdür. Bu bir tərəfdən çöl-tarla işlərinin bitməsi, heyvanların ət tutması, insanların sərbəsləşməsi ilə bağlıdırsa digər tərəfdən təbii proseslər, təqvim adətləri ilə əlaqəlidir.

Xalq arasında Novruz bayramından sonra geniş şəkildə olmasada müxtəlif məşğuliyyət sahələri (yaylağa qalxma, xırmanüstü, qoçqarışan və s.) ilə əlaqəli müəyyən mərasimlər keçirilsədə onlar ümümxalq xarakteri daşımırlar. Bunların əksinə olaraq qışın ilk gecəsində (indiki təqvimlə dekabrın 20-si axşamı) «Çillə gecəsi» adlı ümumxalq mərasimi keçirilir. Bu gecənin əsas simvolu payızdan həmin gün üçün xüsüsi qaydada (daha çox samanın içərisində) saxlanılan və el arasında "Çillə qarpızı" adlanan sovqatdır.

Adətə uyğun olaraq həmin gün oğlan evindən nişanlı qızlara "Çillə payı" gətirilir. Payın içərisində digər hədiyələrlə yanaşı qarpız da olmalıdır. Pay apararkən gənc qızlar müxtəlif haxıştalarla yanaşı qarpızla bağlı el nəğmələri oxuyurlar:

Əzizim Çillə qarpız,
Düşübdür dilə qarpız.
Yığılıb xurcunlara,
Gedir yargilə qarpız.

* * *

Əzizim qara qarpız,
Düşübdür qara qarpız.
Qoyulub xonçalara,
Aparılır yara qarpız.

* * *

Əlimi bıçaq kəsdi oy,
Dəstə bıçaq kəsdi oy.
Yarın çillə qarpızın,
Yastı bıçaq kəsdi oy.

Adətə görə bəy evindən nişanlı qıza göndərilən "Çillə qarpızı" xonçasına qarpızı kəsmək üçün xüsusi bıçaq qoyulur. Çillə qarpızı evin ağsaqqalı tərəfindən kəsilib dilimlənir, bütün ailə üzvlərinə paylanır. Maraqlıdır ki, məclisin sonunda bıçaq bir dilim qarpızla yenidən oğlan evinə qaytarılır. Bunun səbəbini bir neçə nəfərdən soruşsaq da dolğun cavab ala bilmədik. Xalq arasında belə bir inam mövcuddur ki, çillə qarpızı yeyən adam sağlam olur, o, xəstəlikləri sovuşdurur. Buna görə də xəstələrə çillə qarpızı ən böyük töhfə hesab edilir.

Ordubad bölgəsinin bir sıra kəndlərində "Çillə gecəsi" süfrəsində "q" hərfi ilə başlayan 7 cürə (yeddi ləvin) meyvə, şirniyyat və yeyəcək olmalı idi: qatıq, qarpız, qurud aşı, qoz, qax, qayğanaq, qabaq (bal qabaq) və s. Digərləri dəyişsə də qarpız mütləq idi. Süfrədəkilərin "q" hərifi ilə başlanmasını qışla, qarla əlaqələndirsələr də uzunmüddətli araşdırmalara baxmayaraq qarpız haqqında dəqiq məlumat toplaya bilməmişik.

Toplanmış ədəbiyyat materiallarına əsasən demək olar ki, bizlərdə olduğu kimi qədim türklərin yayıldıqları Mərkəzi Asiya, Monqolustan və Tibetdə də qış fəslini təntənəli

şəkildə qarşılamışlar.

Xalqımız qışı «çillə» adı ilə üç yerə bölür. Böyük çillə 40 gün (21 dekabr-30 yanvar), kiçik çillə 20 gün (31 yanvar-19 fevral), çillə-beçələr –dörd həftə ( el arasında bu dövr "boz ay," "bayram ayı" adları ilə də bilinir) (20 fevral –20 mart). El arasında bunlar üç bacı, daha çox böyük və kiçik çillələrlə bağlı olaraq böyük və kiçik bacı adlandırırlar. Bir rəvayətdə deyilir ki, Böyük çillə ömrünü başa vurub yerini Kiçik çilləyə verərkən Kiçik çillə soruşur: «nə etdin»? Böyük çillə deyir ki, tayaları yarıladım, unluqların, qovurma küpələrinin başını yendirdim, qalaqları sökdüm. Kiçik çillə cavab verir: «Mən gedib unluqları, qovurma küpələrini silib-süpürəcəyəm, qalaqları yandırıb göyə sovuracağam, ot taylarını yox edəcək, qarıları təndirə salıb küflədən çıxaracağam. Hayıf ki, mənim ömrüm azdır, yoxsa hər şeyi məhv edərdim». Beləcə, xalq Kiçik çilləni çox qorxulu hesab edir və deyir ki, «Kiçik çillənin (Bəzi kəndlərimizdə Cahar-Caharın) soyuğu təndirə təpər toyuğu». "Cahar-cahar" ifadəsi daha çox Ordubad bölgəsində işlədilir. İnama görə Böyük çillənin son dörd günü və Kiçik çillənin ilk dörd günü qışın ən sərt dövrüdür.

Yuxarıda göstərdik ki, qış üç çilləyə bölünür. Xalq Böyük çilləni mərd hesab etməklə ondan qorxmur. Tarixi təcrübələrə əsaslanaraq əhali belə hesab etmişdir ki, Böyük çillə mülayim keçir, sular zəif donur.

İlin ən uzun gecələri hesab olunduğundan qış gecələrini keçirmək məqsədi ilə böyük evlərdə, çayxanalarda, "tövlə otaqları"nda el bilicilərinin söhbətləri, aşıq məclisləri təşkil edilir, yaxın qohumlar və qonşular bir-birinin evinə toplaşıb maraqlı söhbətlər edirdilər. Bu bütün Azərbaycan üçün xarakterik idi.

Qış gecəsi tövlələrin otağı,
Kətillərin oturağı, yatağı,
Buxarıda yanar odun yanağı,
Şəbçörəsi, girdəkanı, iydəsi,
Kəndi basar gülüb-danışmaq səsi. (21,s.42)

Qış gecələri uşaqlar üçün nağıl dünyası, mənəvi zənginlik məqamı idi. Hər kəs kürsünün başına toplaşar və kürsünün üstündə iydə, müxtəlif meyvələrin qurusu, mövüz, kişmiş, qoz və s. qoyulurdu. XIX əsrin sonu, XX əsrin əvvəllərini xatırlayan məlumatçılar söyləyirdilər ki, çox az ev tapılardı ki, xaral dolu iydə, kisələrlə quru meyvələr olmasın. Kolxoz quruluşu dövründə isə adı çəkilən çərəzlərin illik qazanca görə bölünməsi bu vəziyyəti daha da yaxşılaşdırdı. İndi də xatırlayıram ki, ilin payız və qış dövrlərində bir iş üçün kimin evinə getsə idik, el arasında deyildiyi kimi "yanağından qan daman", xala, bibi, nənə deyib müraciət etdiyimiz qadınlar cibimizə, ətəyimizə müəyyən çərəz qoymamış bizləri yola salmazdılar.

Qışda qadınlar daha çox əyiricilik və toxuculuqla (yun corablar, əlcəklər, isti köynəklər, xalça və s.) məşğul olurdular. Xalça toxumaq böyük zəhmət və kömək tələb etdiyindən qadınlar arasında "öməci" (qarşılıqlı yardımlaşma) adlanan adətə əməl edilirdi.Belə yardımlaşmada gənc qızlara toxuculuğun öyrədilməsi xüsusi yer tuturdu. Olurdu ki, qızın anası onu xalça toxuyanların yanına gətirib öyrədilməsini xahiş edirdi. Xalq arasında bununla əlaqəli maraqlı bir deyim formalaşmışdır: "İşlə mənim üçün, öyrən özün üçün". Beləliklə el məktəbi yaranırdı. Təssüf ki, indi bunların çoxusu aradan çıxmışdır.

Təsərrüfatda əsas fəaliyyət isə mal-qaraya qulluq sayılırdı və bu işlə oğlan uşaqları və kişilər məşğul olurdular..

Beləcə, qışla birlikdə müxtəlif şənliklər və mərasimlər başlanardı. Xalq arasında deyildiyi kimi: "Qış hazırlığı olanlar onun ağırlığını hiss etməzdilər". Topladığımız bir rəvayətdə deyilir ki, qışın sərt vaxtı (el arasında "oğlan çağı"), bayırda çovğun, şaxta qılınc kimi kəsir. Xan baxır ki, nökər çox narahatdır. Ona deyir ki, çıx eşiyə küləyə denən uğuldamasın, o mənə heç nə edə bilməz. Nökər eşiyə çıxıb qayıdır. Xan soruşur ki, dedin. Nökər deyir: "Bəli". Xan deyir: "O, sənə nə dedi?". Nökər cavab verir ki, o dedi: "Xanla işim yoxdur, amma, səni ağlar qoyacağam". Xan nökərin qışa hazır olmadığını bilir və ona pul verir ki, get qış hazırlığı gör. Nökər qayıdıb gələndə xan deyir ki, deyəsən yenə qar-borandı. Nökər cavab verir ki, xan sağolsun onun bizə gücü çatmaz.

Naxçıvan bölgəsinin bir sıra kəndlərində və Naxçıvan şəhərində fevral ayında yəni, «qışın oğlan çağında», «kiçik çillə tüğyan edən vaxt» xalq arasında «Xıdır Nəbi» adı ilə bilinən mərasim təntənə ilə qeyd edilir. Toplanmış etnoqrafik materiallara əsaslanaraq demək olar ki, bayram Xızır peyğəmbərin şərəfinə keçirilir. Lakin maraqlı cəhət bundan ibarətdir ki, bayram nəyə görə məhz fevralda, qışın ən sərt vaxtı qeyd edilir. Məlum olduğu kimi, Xızır peyğəmbər ən çox çətinlik anında insanlara yardıma gəlir. Qədim Azərbaycan və Anadolu türklərinin inamına görə qışın çətin dövründə, hazırlanmış qida, yanacaq və yem ehtiyatının azaldığı vaxt Xızır peyğəmbərin çağırılması onun yardımına böyük ehtiyacla bağlıdır. Xızır özü ilə xız gətirəcək, havalar istiləşəcək «qara qış»a son veriləcək. Qışın ağırlığını bilən xalq dardakılara yardıma çatan Xızır peyğəmbəri çağırmaq üçün onun şərəfinə mərasim keçirir. Etnoqrafik materiallara söykənərək demək olar ki, bayram kiçik çillənin 10- cu

günü, yəni fevralın 9-da qeyd olunur. Bir məsələ xüsusi vurğulanmalıdır ki, Naxçıvan şəhərində yanlış olaraq mərasim İslamla əlaqələndirilərək Kiçik çillənin ilk cümə axşamında qeyd olunur. Deməli bu konkret tarixdən çıxır. Hətta xalq arasında «bəylərin xıdırı», «nökərlərin xıdırı», «rəiyyətin xıdırı» deyə mərasimin üç cümə axşamı qeyd edildiyi də söylənməkdədir. Ədəbiyyiat materiallarına söykənərək demək olar ki, şimal yarımkürəsinin bir sıra xalqlarında fevralın 9-u və 10-da buna bənzər mərasimlər vardır. Həmin mərasimlərdə məqsəd istiliyi çağırmaq, qışı yola salmaqdır. Hətta geniş meydanda qışın müqəvvasını düzəldib yandırırlar. Deməli mərasim müəyyən cəhətdən bəşəri xarakter daşımaqla sırf astronomik məsələlərlə bağlıdır. Yəni bu sabit vaxta malikdir.

Naxçıvanda Xıdır Nəbinin əsas simvolu qovurğa və qovut hesab edilir. Qovurğa ilə bərabər çətənə, küncüt, günəbaxan toxumu, şabalıd, badam, noxud və s. qovrulur. Qovurulmuş toxumlar qovurğa ilə qarışdırılır. Qarışığa iydə, kişmiş, mövüz və başqa çərəzlər də qatılır. Qovurğa kərkirə, əl daşı (dəstər) adlanan alətlə çəkilir və qovud hazırlanırdı. Quru qovudu yemək çətin olduğundan ona doşab, şəkər tozu əlavə edib ovurlar. Bu qovudu yeməyi asanlaşdırmaqla bərabər onu şirin edir. Çəkilmiş qovudu bir qaba doldurub axşamdan yükün üstünə və ya taxçaya qoyurdular ki, Xızır peyğəmbər gecə ona əl basacaqdır. İnama görə belə qovud şəfaverici xüsusiyyətlərə malik olur. Xıdır-Nəbidə nişanlı qızlara, təzə gəlinlərə pay aparmaq adəti geniş yayılmışdır. Bayram gecəsi oğlan uşaqları qapılara gedib torba atar və bayramlıq alardılar. Bayramlıq almaq üçün uşaqlar aşağıdakı sözləri oxuyardılar:

Xıdıra Xıdır deyərlər,
Xıdırın payını verərlər.

Və yaxud:

Çatma-çatma çatmaya,
Çatma yerə batmaya,
Hər kəs Xıdırın payını verməsə,
İstəyinə çatmaya.

Müxtəlif variantda olan uzun şeir parçasını yəni, Xızırla bağlı sözləri hər kəs əzbər bilirdi. Olurdu ki, sözləri söyləməyi ev sahibi tələb edirdi.

Beləcə, bütün tanış-bilişlərin, qohumların qapısını gəzib pay toplayırdılar. Xıdır Nəbidə müxtəlif inamlara əməl edilir. Həmin gün evin kişisi baltanı götürüb gəlir barverməyən ağacın yanına və ucadan deyir ki, hava soyuq keçir, bu ağac isə barsızdır, kəsirəm yandıraq. Kənardan bir nəfər yaxınlaşıb onu tutur ki, kəsmə bu il bar verəcək. Adət «balta çəkmə» adlanır. Oxşar inam yumurtlamayan toyuqlara qarşı da edilir. Onlar bir təlisə yığılır, sahibi deyir ki, dadlıq qurtarıb bunlar isə yumurtlamırlar aparıram hamısını kəsdirəm. Belə toyuqlara Xıdır Nəbi qovurğası səpmə adəti vardır. İnama görə bundan sonra toyuqlar yumurtlamağa başlayırlar. Xalq arasında mərasimin bir mənalı olaraq Xızır peyğəmbərin şərəfinə keçirildiyi, çətinlikdən qurtarmaq üçün edildiyi söylənilir. Doğu Anadolunun bəzi yörələrində bu vaxt Hz. Xızır üçün üç gün oruc tutulur. Doğan Türkdoğan «Alevi İslam inancı içerisinde Hz. Xızır» məqaləsində yazır ki, inama görə ocak ( yanvar) ayının son həftəsindən başlayaraq şubat (fevral)ın 18- ə qədər hər aşirət və ocak üç gün oruc tutmalıdır. Bu «Xızır orucu», orucluqdan sonra verilən pay isə «Hz. Xızır loxması» adlanır. Bu «Qurani- Kərim»in

«İnsan» surəsinin ayələri, Hz. Əli, Hz. Fatimə və ailəsinin 3 gün oruc tutması ilə bağlıdır. Müqayisəli araşdırmalar sübut edir ki, Naxçıvanda bu inam yoxdur.

Qarşılıqlı müqayisələr göstərir ki, Anadolunun bir sıra bölgələrində, Balkanın müsəlman- türk xalqları arasında «Xızır günü» aprelin 23- də qeyd olunur. Bu gündən əsl yazın başlandığına, 5- 6 may isə Xızır peyğəmbərlə İlyas peyğəmbərin görüşünə inanılır. Diqqət verilsə bu Naxçıvanda «qara yazın», «yazan qurunun» bitməsinə uyğun gəlir. Beləliklə istilik və yaşıllıq məbudları birləşirlər. Bundan sonra mal- qara, xüsusən quzular üçün şeşə sovuşur («şeşə sovan»), meyvə ağaclarının və digər bitkiləri şaxta vurması təhlükəsi tam keçir. Oxşar inam Naxçıvanda « Gülənay», «Gülay» adları ilə qeyd olunmuşdur. Bütün bunlar Xıdır Nəbi, Xıdır-İlyasla bağlı xalq arasında olan adət və inamlardır. Elmi ədəbiyyatlarda, yazılı mənbələrdə Xızır peyğəmbərlə, Xızır Nəbi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Müəlliflərin bir qismi Xızır sözünü istilik, etnos adı, təqvim adətləri ilə bağlayırlar. Təbii ki, Xıdır Nəbi mərasimi təqvimlə bağlıdır. Lakin adətin Xızır peyğəmbərin şərəfinə keçirildiyi, ondan kömək umulduğu aydın şəkildə görünməkdədir. Anadoluda və dünyanın digər türk xalqlarında Xıdır Nəbi, Xıdır-Elləz bayramı ilə əlaqəli Yaşar Kalafatın "Hezret Hızırdan Sultan nevruza" kitabında geniş məlumat və ümumiləşmələr vardır (33).

Hz. Xızır darda qalanların imdadına çatır, xəsətələrə şəfa verir, insanı muradına çatdırır. «Kitabi Dədə Qorqud»da Hz. Xızır yaralı vəziyyətdə olan Buğacın üstünə gəlir, yarasını sığallayıb deyir ki, bu yaradan sənə ölüm yoxdur, dərmanın ana südü, dağ çiçəyidir (16, s.39). «Aşıq Qərib» dastanında Qəribi Şahsənəmə çatdırır (3, s.358) çox darda

qalanlara yardım edir. Xızır peyğəmbər təkcə fiziki yardım deyil, elmi-mənəvi zənginləşmədə də ciddi rol oynayır. O söz sahibidir, ilhamvericidir. Şeyx Nizaminin, Nəsiminin, Xətayi və başqalarının əsərlərində onların Hz. Xızırdan, həyat çeşməsindən (Abı-həyat) bəhrələndikləri dönə-dönə qeyd edilmişdir. Qaynaqlara söykənərək demək olar ki, Hz. Xızırın elmi digərlərindən daha fərqli olmaqla çox yüksəkdir. O dərəcədə yüksəkdir ki, təkcə adi insanlara deyil Hz. Musa (ə.s) a elm öyrədir. Hansı ki, peyğəmbərlər elmi vəhy yolu ilə alırlar. Fikirimizi əsaslandırmaq üçün «Qurani Kərim»in Hz. Xızır (ə.s) və Hz. Musa (ə.s) ilə əlaqələndirilən, Kəhf surəsinin 60-82 ayələrinə diqqət yetirmək olar. Həmin ayələrdə Hz. Musa (ə.s)nın yüksək elm, bilik almaq üçün birini axtardığı və onunla rastlaşdıqları bəlli olur: «Qullarımızdan bir qulla rastlaşdılar ki, biz ona qatmızdan bir rəhmət və lədünnümüz bir elm öyrətmişdik» (ayə 65). Ayədən aydın olur ki, ona adi elm deyil lədünn elmi öyrədilmişdir. Müqayisəli tutuşdurmalar göstərir ki, «Qurani-Kərim»in bir sıra açıqlamalı məalında, tərcümələrində orijinaldakı «lədünn» ifadəsi verilməməşdir. Hansı ki, bu ifadənin böyük önəmi vardır. «Min lədünna»-qatımızdan, tərəfimizdən mənasındadır. Yəni Allah qatından, Allah tərəfindən elm öyrədilməsi mənasındadır. Bir sıra təfsirçilər bununla Hz. Xızır (ə.s) a Musa peyğəmbərdən fərqli bir elm verildiyini yazırlar. Kəhf surəsinin 66-cı ayəsində deyilir: «Musa ona : Sənə öyrədilləndən, mənə doğrunu bilməyə yardım edəcək bir bilgi öyrətmən üçün sənə tabe olummu? dedi». Görünür ki, Hz. Musa (ə.s) Hz. Xızıra tabe olmaq istəyir. Hz. Xızır isə ona: "Dedi ki, doğrusu, sən mənimlə bərabərliyə səbr edənməzsən. Qavramadığın bir bilgiyə necə səbr edəcəksən? Musa: inşallah, dedi, sən məni səbredən görəcəksən. Sənin

əmrinə də qarşı gəlmərəm" (ayə 67-69). Sonrakı ayələrdən məlum olur ki, Hz. Musa, Hz. Xızırın işlərinə səbir edə bilmir və Hz.Xızır törətdiyi hadisələrin səbəblərini ona izah etməklə onun elm öyrənmək üçün səbr edə bilmədiyini və yollarının ayrıldığını söyləyir. Bir məsələni qeyd etməliyik ki, bu ayələrdə Xızır peyğəmbərin adı birbaşa çəkilmir. Lakin təfsirçilər həmin şəxsin Hz.Xızır olduğunu söyləyirlər. Musa peyğəmbərin Xızır peyğəmbəri tapmasında yemək üçün götürdükləri quru balığın suya düşüb canlanması əsas rol oynayır. Oxşar məsələyə Nizami Gəncəvinin «İsgəndərnamə» əsərində, İsgəndərin dirilik suyu axtarmağa getməsində rast gəlirik. Əbədi həyat arzusunda olan İsgəndər bu səfərdə ona Hz. Xızırın rəhbərlik etməsini istəyir.

Söylədi o zaman böyük İsgəndər,
Ona rəhbər olsun Xızır peyğəmbər (23,s.381).

Musa (ə.s) peyğəmbər kimi İsgəndər də müşkül işini aşırmaq, əbədi həyat qazanmaq üçün Hz. Xızırı rəhbər seçir. Lakin heç biri istəyinə çata bilmir. «İsgəndərnamə»də abi-həyat suyu ilə bağlı bir rəvayətdə İlyas peyğəmbərin də Xızır peyğəmbərlə birlikdə olmasından, süfrədəki duzlanmış quru balığın suya düşüb canlanması və beləliklə dirilik suyunu tapmalarından, onların hər ikisinin həmin sudan içib qiyamətə qədər yaşayacaqlarından bəhs olunur. Burada da «Qurani Kərim»dəki quru balıq məsələsi ilə bağlılıq vardır. Musa (ə.s) peyğəmbər səbirsizlikdən Hz.Xızırdan istədiyini öyrənə birmirsə, İsgəndər də dirilik suyundan içə bilmir.

Naxçıvanda yayılan bir rəvayətə görə İsgəndərlə zülmətə gedən və Dirilik suyunu tapan Hz. Xızır (ə.s) peyğəmbər bir bardaq dirilik suyu götürür ki, gətirsin insanlara. Yolda bir ağacın bəzi rəvayətlərə görə çinarın kölgəsində yatır,

bardaq tökülür və su dolur bir çuxura. İki qarğa gəlib sudan içirlər. Ona görə də qarğalar üç yüz il yaşayırlar. Çinar ağacları da uzunömürlüdürlər. Aktuallığını və elmi əhəmiyyətini nəzərə alaraq gələcəkdə Xızır peyğəmbər, Şeyx Nizami və "İsgəndərnamə"dən ayrıcana bəhs edəcəyik.

Həm «Qurani Kərim»in ayələrindən, həm Xızır peyğəmbərlə bağlı yazılı məlumatlardan, əsərlərdən aydın olur ki, Allah tərəfindən ona xüsusi elm, əbədi həyat verilmişdir. Xızır peyğəmbər darda qalanların, çətinliyə düşənlərin, xəstələrin hamisinə çevrilməklə ən çətin anda onların dadana çatmışdır. Məhz qışın ən çətin dövründə Xızır peyğəmbərin şərəfinə mərasim təşkil etmək, onu çağırmaq da «qara qışın» çətinliyindən xilas olmaq anlamına gəlir.

## 1.3. XALQ TƏQVİMİNDƏN - ÇƏRŞƏNBƏLƏR

Azərbaycan etnoqrafiyasında və folklorşünaslığında geniş şəkildə araşdırılmış məsələlərdən biri də xalq təqvimi ilə bağlı problemdir. Tədqiqatçılar daha çox qışın yola salınıb yazın qarşılanması məsələlərinə diqqət yetirirlər. Sovetlər dönəmində bu məsələlərin öyrənilməsinə o dərəcədə diqqət verilməsə də keçən əsrin 80-ci illərinin sonlarından başlayaraq bununla bağlı çox sayda kitablar, məqalələr nəşr edildi. Təqvim adətlərinin, onunla bağlı inamların ayrı-ayrı sahələri ilə yanaşı qışın yola salınması, yazın qarşılanması ilə əlaqəli məsələlər də geniş tədqiqata cəlb edilmişdir. Bu öz əksini B. Abdullayevin «Haqqın səsi» (1), «Azərbaycan mərasim folkloru» (2), R.Əsgərovun «İqlimdən-iqlimə, təqvimdən-təqvimə» (10), A. Nəbiyevin «İlaxır çərşənbələr» kitabında (22), digər kitablarda (6, 8), müxtəlif toplularda (24) və məqalələrdə tapmışdır. Təbii ki, bunların böyük

əhəmiyyəti vardır. Lakin müsbət tərəflərlə yanaşı problemin öyrənilməsində yerli materiallardan, xüsusən etnoqrafik çöl materiallarından geniş istifadə edilmədiyindən müəyyən məsələlər dolaşıq salınmışdır. Bu özünü daha çox çərşənbələr, Novruz bayramı, Quyruq doğdu və s. göstərir. Hər şeydən öncə müəlliflərin eyni mövqedən çıxış etməməsi vahid fikirə gəlməyə imkan vermir. Bunun başlıca səbəbi isə onların bəzilərinin yerli materiallardan az istifadə etmələri, onları birbaşa xalqın özündən deyil dolayısı ilə toplamaları və ya toplatdırmalarından qaynaqlanır. Bunları nəzərə alaraq son illərdə daha çox dolaşıq salınan çərşənbələrlə əlaqəli məsələyə münasibət bildirməyi məqsədəuyğun hesab edirik. Qeyd edək ki, bizdən əvvəl bu məsələ G. Yoloğlunun yazılarında müzakirə mövzusuna çevrilmişdir (27, s.134-152). Bizim əvvəlki yazılarımızda, A. Orucovun dissertasiya işində (25) problemin Naxçıvanla əlaqəli ümumi tərəflərindən bəhs olunsada müəyyən məsələlərin elmi izahına ehtiyac duyulur. Biz yazını nəşrə hazırlayarkən tarixi mənbələrdən, hər hansı müəllifin əsərindən çox başlıca diqqəti xalq arasından toplanmış materiallara yönəltmişik. Çünki onlar təhrif olunmamaqla reallığı daha çox əks etdirirlər.

Naxçıvanda xalq arasında qışın son ayı Çillə-beçələr, və ya çərşənbələr adı ilə dörd yerə bölünür. Göyüzünün daha çox buludlu olması ilə əlaqədar olaraq bu dövr Boz ay da adlanır.

Xalq arasında olan inama görə Kiçik çillədən sonrakı ilk çərşənbədən başlayaraq Novruz bayramınaqədərki hər çərşənbədə təbiətdə müəyyən dəyişikliklər baş verir. Toplanmış etnoqrafik materiallara söykənərək demək olar ki, Naxçıvanda hər çərşənbənini ayrıca adları vardır. Həmin adlar bölgələr üzrə fərqlənsələr də birinci çərşənbə- Əzəl,

Yalançı çərşənbə, ikinci çərşənbə-Xəbər, Külə çərşənbə, üçüncü çərşənbə- Quyruqlu, Qara Çərşənbə, dördüncü-Axır (İlaxır) çərşənbə adlanır. Bu adlar daha arxaik olmaqla xəbəri gəldi, formalaşdı və axıra çatdı. Üç çərşənbədə Ordubadın bəzi kəndlərində axşamüstü od yandırılır, axır çərşənbə isə çox təntənəli qeyd edilir. Cuzi fərqlərlə belə bölgü G.Yoloğluda da vardır (27, s.139). Toplanmış materiallara əsaslanaraq deyə bilərik ki, xalq arasında son dövrlərə qədər adlar belə bilinmişdir. Bununla yanaşı çərşənbələr təbiətdə baş vermiş dəyişikliklərlə, özgə sözlə desək dörd ünsürlə əlaqələndirilir. Belə əlaqə olmasına baxmayaraq xalq çərşənbəni onun əlamətləri ilə adlandırmırdı. Son dövrlərdə müxtəlif məqalələrdə, xüsusən televiziya verilişlərində çərşənbələr xalq arasında olan adlarına görə deyil dörd ünsürə uyğun-Su, Od, Torpaq və Yel çərşənbələri deyilməyə başlanmışdır. Digər çərşənbələrin adı unudulsa (unutdurulsa) da Axır çərşənbə qalmaqdadır. İstər-istəməz düşünməli olursan çərşənbənin axırı olduğu kimi əvvəli də olmalıdır. Yəni, yuxarıda dediyimiz adlar qorunub saxlanmalıdır. Digər xoşagəlməz hal eyni gündə, ayrı-ayrı televiziya kanallarında çərşənbələrin müxtəlif adlarla təqdim edilməsidir. Beləki, kanalın birində Su çərşənbəsi, digərində Od çərşənbəsi qeyd edilir. Bunlar bir tərəfə, guya xalq arasında hər çərşənbədə aid olduğu ünsürlərlə bağlı mərasimlərin keçirildiyi qeyd edilir.

İnama görə hər çərşənbə bir ünsürü təmsil edir. Xalq arasında olan məlumatlara söykənərək demək olar ki, son dövrlərə qədər Axır çərşənbə müstəsna olmaqla digər çərşənbələr geniş şəkildə qeyd edilməmişdir. Sadəcə olaraq Ordubadın bəzi kəndlərdə, həmin gündə, axşam od yandırmaq adəti olmuşdur. Əlavə olaraq heç bir adətə əməl edilməmişdir.

İnama görə günlərin əsas əlaməti el arasında Cəmrə, Cəmərə, Cəlimə adı ilə bilinən dəyişiklikliyin baş verməsidir. Bu, «Cəmrə düşməsi» adlanır. Deyirlər ki, Əvvəl (Əzəl), Yalançı çərşənbədə Cəmrə suya düşdü, sular coşmağa, qızmağa, dəyişilməyə başladı. İnama görə həmin gündən quyuların suyu artır, suların donuşluğu aradan qalxır, Quyruqdoğduda kəsərdən düşmüş (tərkibi dəyişilmiş) şor sular (mineral bulaqlar) müalicəvi xüsusiyyətlərini bərpa edirlər. Bu dövrdən yazın ilk əlaməti olan suların bulanması baş verir. Sonrakı çərşənbələrdə Cəmrə ardıcıl olaraq oda, torpağa, yelə (küləyə) düşdüyünə inanılır. Öncə Cəmrə məsələsinə açıqlama gətirmək istərdik. Araşdırmalar nəticəsində sözün ərəb mənşəli «cəmərət»dən yarandığı, sözün kökünün «cmr»-buxar, hərarət anlamına gəldiyi məlum olmuşdur. «Fərhənge Səbba» lüğətində sözün üç mənada işləndiyi yazılmışdır ki, bundan biri buxar, hərarət, yəni istilik, enerji anlamına gəlməsidir. Lüğətdə yazılır ki, bu qışın axır ayında, yeddi gündən bir yerdən qalxan hərarəti anladır (14, s.340). Oxşar fikirlər Qahirədə nəşr edilmiş «Tacəl Əruz» kitabında da öz əksini tapmışdır (28, s.564). (Tərcümədə yardımcı olduğuna görə F. Elyazova minnətdarlıq edirik). Beləliklə, Cəmrənin Cəmərət sözünün təhrif edilmiş forması olduğunu müəyyən edə bildik. Bizcə sözün əlavə şərhinə ehtiyac qalmır, xalq arasında olan inama tam aydınlıq gəlir. İlk Cəmrədən sonra sular bulansa da, qaynayıb-coşsa da havalar soyuq olduğundan xalq bunu Yalan çərşənbə, Əzəl çərşənbə adlandırır. İkinci çərşənbədə havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açılması baş verir ki, bu Xəbər çərşənbə adlanır. Həmin dövrdən ağaclara qulluq, ildən asılı olaraq bəzi məhsulların əkilməsi başlanır, subay heyvanlar yaxın örüşlərə otarılmağa çıxarılır, bəzi köçəri quşlar, xüsusən leyləklər

qayıdırlar. Xəbər gəlsə də istilik dəyişkən olduğundan yaşlılar bunu aldadıcı hesab etməklə qaramalı açıq havaya çıxarmamağı məsləhət görürlər. «Qanın oyanması» adlanan bu dövr insanlar üçün çox qorxulu hesab edilir. El arasında deyirlər ki, günəşin işarmasına baxmayın, hələ torpaq qızmayıb, insana tez soyuq dəyər. Belə xüsusiyyətlərinə görə Naxçıvanın bəzi yörələrində bu çərşənbə «Külə», yəni tam olmayan, kəsir çərşənbə adlanır. Sözün ilk çiçək görünməsi ilə əlaqəli olduğunu yazan bəzi müəlliflər onun «Gülə çərşənbə» adlandığını deyirlər. Lakin sonrakı, üçüncü çərşənbənin, yəni torpaq çərşənbənin Qara çərşənbə ilə yanaşı Quyruqlu çərşənbə də adlanması sözün külə olduğunu deməyə imkan verir.

Üçüncü çərşənbə-Qara / Quyruqlu çərşənbə torpağın qızması, onun buğlaması (buxarlaması) ilə əlamatdardır. El arasında deyirlər ki, Cəmrə torpağa düşür, torpaqdan buxar qalxır, deməli o qızmışdır, yaz əkininə başlamaq olar. Xüsusən yazlıq arpa yubadılmadan əkilməlidir. Bir az yubansa onun məhsuldarlığı aşağı olacaqdır. Ümumiyyətlə yazlıq arpanı yazın ilk günlərinə qədər əkmək məsləhət görülür.

Çərşənbənin «Qara çərşənbə» adlanmasını iki mənada izah edirlər: 1.Xalq arasında olan adətə görə «qara bayram»ı keçirilməmiş mərhumlara bu çərşənbə ərzində «qara bayram» keçirilir, ailələr yasdan çıxırlar. Bir qayda olaraq qırxı çıxmamış mərhumlara «qara bayram» edilmir. Lakin qırxı yaxınlaşan mərhumların qırxı ilə «qara bayram»ı birləşdirilir. Bir sözlə, xalq «Axır çərşənbə»yə və Novruza yasdan çıxmış halda getməyə çalışır.

2. Çərşənbənin qara adlanması qarların tamamilə əriməsi, torpağın qaralması ilə də əlaqələndirilir.

Bu çərşənbədə evlərin, həyət-bacanın yığışdırılması başa çatdırılır. İmkan daxilində qışdan çıxmış evlərə müəyyən bəzək vurulur, yəni bayramsayağı bəzədilirdi:

Bayram olub, qızıl palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər,
Taxçalarda düzmələri düzərlər,
Qız-gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qaynanası(21, s.41) .

Ustad Şəhriyarın bu misraları elimizdə, obamızda bayrama hazırlıqla bərabər ənənəvi evlərimizin quruluşu, onların bəzənməsi ilə bağlı dəyərli məlumat verir. Naxçıvan ərazisindən toplanmış materiallara söykənərək demək olar ki, burada da Axır çərşənbəyə qədər bu işlər görülməli idi. Yaşlı məlumatçıların söylədiklərinə görə ətrafda olan qırmızı və ya ağ torpaqdan gətirib suda həll edər və süpürgə vasitəsilə onu evin divarlarına vurardılar. Bu el arasında «Evin çırpılması» adlanırdı. Taxçalı, rəfli evlərə gəlincə onlar Ordubad şəhərində və bəzi kəndlərdə tək-tək qalmaqdadırlar.

Bu çərşənbə ilə Axır çərşənbə arasında yerinə yetiriləcək ən başlıca vəzifələrdən biri lazım olacaq şirniyyatın, ərzaq məhsullarının, qız-gəlinə aparılacaq "İlaxır payı"nın hazırlanmasıdır. Bu məsələdə yardımlaşmaya böyük önəm verilirdi. Bayram hazırlığı olmayan ailələrə qohumlar, yaxın qonşular tərəfindən, gizli şəkildə köməklik göstərilirdi. Elə şərait yaradılırdı ki, əziz gündə kimsə məyus olmasın.

İlin Axır çərşənbəsi, Cəmrənin küləyə düşdüyü çərşənbə. Bu çərşənbə Naxçıvanda çox təntənəli şəkildə qeyd olunur. El arasında deyirlər ki, bu gündən başlayaraq vədə yelləri, bayram yeli əsəcək, hava dəyişəcək, köçəri quşlar, xüsusən qaranquş gələcək. Vədə yeli ilə bağlı xalq arasında deyirlər

ki, hər şey vədəyə baxsa da, vədə heç nəyə baxmaz. Ustad Şəhriyar bayram yelini yazın başlanğıcı hesab edir:

Bayram yeli çardaxları yıxanda,
Novruz gülü, qar çiçəyi çıxanda,
Ağ buludlar köynəklərin sıxanda,
Bizdən də bir yad eyləyən sağ olsun,
Dərdlərimiz qoy dikəlsin, dağ olsun (21, s.37).

Həmin gündə bir sıra vacib məsələlərə əməl edilir: hər kəs evində olmağa çalışır, qız-gəlinlərə pay göndərilir, qəbirlər ziyarət olunur, bayram süfrəsi açılır, bir sıra şirniyyat və yeməklərlə yanaşı mütləq plov bişirilir. Xalq arasında plov İlaxır çərşənbənin atributu sayılır. Kimsəsizlər, xəstələr yad edilir. Qohum və qonşular tərəfindən yasdan çıxmamış ailələrin ocağı yandırılıb, onların həyətində qazan asılır. Axşam, gün batanda həyətlərdə tonqal yandırılır və ailə üzvləri tonqal üzərindən atılırlar. Bu vacib əməllərdən sonra qız-gəlinin, oğlan uşaqlarının qapıları pusması, niyyət etməsi, şal atması, müxtəlif əyləncəli oyunları, falaçma və s. başlayır ki, bu da gecəyarısına qədər davam edir. Səhər erkən, Günəş doğmamışdan bütün insanlar çay, çeşmə, bulaq başına gəlib su üstündən tullanar, sudan dilək diləyib, dərd-sərlərinin onun üstünə tökülüb axmasını, yeni ilə dərd-bəlasız getməyi arzulayarlar. Qadınlar çeşmədən, bulaqdan «İlaxır suyu» və «Bərəkət daşı» adlanan kiçik daşlar götürərlər. «İlaxır suyu»nu gələn ilin Axır çərşənbəsinə qədər saxlayar, ondan xamraya qatar, müxtəlif xəstəliklərin müalicəsində istifadə edərdilər. Qalan suyu qızılgülün və ya bar ağacının dibinə tökərdilər. Daşlar isə bərəkət rəmzi olaraq yağ küpəsinə, unluğa və digər ərzaqların içərisinə qoyulardı. Bərəkətli olsun deyə kişilərin belə daşları kisələrinə qoyduqları da söylənilir. Növbəti ildə həmin daşlar bulağa,

çeşməyə atılıb yenisi götürülürdü. Beləliklə, Axır çərşənbədə bütün ünsürlər-su, od, torpaq və hava birləşib tamı, bitkini yaradırdı. Yuxarıda da qeyd etdiyimiz kimi Axır çərşənbə müstəsna olmaqla Naxçıvanda heç bir çərşənbədə hər hansısa adətə, inama əməl edilməməklə heç bir mərasim keçirilməmişdir. Bu yazıda bizim məqsədimiz çərşənbələrin xüsusiyyətlərindən bəhs etmək olduğundan adət və inamların üzərində çox dayanmayıb yaradılışda dörd ünsürün ardıcıllığından bəhs etmək istərdik. Yəni xalq arasında olan adət və inamların yaradılışla, təbii dəyişmələrlə bağlılığı məsələsində ki, bu bütün mübahisələrin sonu, elmi möhürdür. Öncə qısaca olaraq yaradılış haqqında: Dini mənbələrdə, mifaloji mətinlərdə, bir sıra yazılı qaynaqlarda yaradılışın əsasını su, istilik anlamında enerji, hərəkət, torpaq və hava, nəfəs təşkil edir. Qədim Şumer əfsanələrinə görə öncə tanrılar mövcud idi, bütün dünya isə dərin sularla örtülmüşdü. Tanrıça Namu dərin sulardan palçıq götürüb ona özlərinə oxşar şəkildə forma verir, sonra nəfəs püləyirlər. Oxşar inama Altay türklərində Ülgenin insanı yaratması motivində rast gəlirik. Səmavi dinlərdə də yaradılış su, hərəkət, daxili enerji, torpağın (palçığın) insan formasına salınması, sonda ona nəfəsin, havanın verilməsi ilə başa çatır. Dörd ünsürün birləşməsi ilə tamın yaranması. Bu ilkin insana, Adəm(ə.s.)a da aiddir. Qurani Kərimdə sonrakı insanların bir qətrə sudan, nitvədən, bişmiş yumurtadan yarandığı xəbər verilir ki, bunun da mayasında enerji dayanır. Təbiətdə olan bütün flora və fauna dörd ünsürün birləşməsindən yaranır, doğulur. Bu insanlarda və digər bala doğuran canlılarda dərin düşüncə tələb edən proses olsa da bir toxumun cücərməsində açıq müşahidə edilləndir. Dörd ünsür olmadan həyat yoxdur. Toxumunda mayası donuq halda, daxili enerjinin təsiri ilə

hərəkətə gələ bilən, istiliyə, köklərini atmaq, qida almaq üçün torpağa, bütün bu proseslərdə boğulmamaq üçün havaya, nəfəsə möhtac olan bitki bunun parlaq misalıdır. Özgə sözlə desək onun da Cəmrətə ehtiyacı var. Yaz da doğulma, var olma, oyanma məqamıdır ki, o dörd ünsürün birləşməsi nəticəsində baş verə bilər. Bu inanış, reallıq özünü dərk edən hər bir insana və insanlığa aiddir. Biz türklər həmin inamlarının mayasını qorumaqla onu özümüzəməxsus adət və mərasimlərlə zənginləşdirib, özümüzünküləşdirib, qoruyub saxlamışıq.

Qeyd edək ki, "Dörd ünsür" məsələsi bir sıra orta əsr mənbələrinə, şifahi xalq yaradıcılığına daha çox ab (su), ataş(od), xak(torpaq), bad(külək) kimi daxil olmuşdur:

Məndədir yer ilə göyün hikməti, həm qüdrəti,
Abu ataş, xakü badü cümlə ərkan məndədir(26,s.88)

Bu məsələnin bürclər üzərində izahına da ehtiyac var ki, keçmiş bilim adamları buna çox önəm verirlər. Çünki, bu dəyişilmə insanların yoza bilməsindən yuxarıda olmaqla daha çox elmi xüsusiyyətlərə malikdir. Xalq arasında olan inama görə çillə-beçələr dörd dəyişikliyin təmsilçisidir. Biz yuxarıda bunları ardıcıllığı ilə verdik. İndi isə qədim mənbələrdə, astronomik təqvimdə ortaq cəhətləri nəzərdən keçirək. İlk çərşənbə Kiçik çillədən sonrakı, yəni qışın son ayının ilk çərşənbəsinə, indiki təqvimə görə fevralın 20-dən sonraya uyğun gəlir. Astronomik təqvimə, bürclərə münasibətinə görə Günəş Balıq bürcünə daxil olur. Balıq isə suyun təmsilçisidir. Ümumiyyətlə, qədim mənbələrə görə bürclər üçlü qaydada bölünərək dörd ünsürü əhatə edirlər. Həmin bölgüyə görə Balıq, Xərçəng, Əqrəb suyu, Qoç, Şir, Oxatan odu, Buğa, Qız, Oğlaq torpağı, Əkizlər, Tərəzi, Dolça havanı təmsil edir. Bunları nəzərə alsaq qışın

son ayı Balıq (su), yazın ilk ayı Qoç (od, istilik), yazın orta ayı Buğa (torpaq), yazın son ayı Ekizlər (hava). Beləliklə bu bölgü bir xalq deyiminə də uyğun gəlir: «Qışın bir ayı yazdandır, payızın bir ayı qışdan». Bu ifadədən erkən yazın Kiçik çillədən sonra başlandığını söyləmək olar. Heç təsadüfi deyil ki, xalq arasında Çillə beçələr, Boz ay, Ağlar-gülər adları ilə yanaşı bu aya «Bayram ayı» da deyilir. Qışdan bir ay alan yaz el arasında «tərlan quş» adlandırılır və deyilir: «Yaz bir tərlan quşdur, tutdun tutdun, tutanmadın uçub gedəcək». Bu o deməkdir ki, ilin əsası qışın sonundan, ilk oyanmadan Cəmrət düşməsindən başlayır, bir ay müddətinə təbiət yenidən doğulub, nəfəsə gəlir. Bu dörd bitkinlik halında əhalinin məşğuliyyəti, xüsusən əkinçilik və maldarlıqla bağlı bütün işlər başa çatdırılmalıdır ki, sonrakı yetişmə və yığılma dövründə əl boş qalmasın. Burada bir deyimi də xatırlamaqda fayda görürük: «Qorxmayın qışdan ki, qabağı yazdır, qorxun yazdan ki, qabağı qışdır».

Nəticə olaraq çərşənbələr həyatın, doğulmanın, var olmanın əsası olan dörd ünsürlə-su, od, torpaq və hava ilə bağlı yaranmışdır. Bir də vurğulamaqda fayda görürük ki, Axır çərşənbə müstəsna olmaqla qalan üç çərşənbədə heç bir mərasim keçirilməyib. Mərasim, şənlik varolmadan, bütövləşmədən sonra baş verər ki, bu da İlaxırdadır. İlin Axır çərşənbəsi olsa da hələ il başa çatmayıb. Ona görə də Axır çərşənbə nə qədər təntənəli keçsə də ona bayram deyilmir. Novruz isə bu təntənələrin zirvəsi, ilin təhvil-təslimi, yeni günün başlanması bayramıdır. Xalq təqvimi dərindən araşdırıldıqca onun elmi əsaslara söykəndiyi, xalqımızın milli kimliyi, düşüncə tərzi ilə bağlılığı ortaya çıxır. Bunlara əsası olmayan əlavələrin edilməsi qondarmadan özgə bir şey deyil. Hansı təbiət ünsürü ilə bağlılığından

asılı olmayaraq xalqın min illər qoruyub saxladığı, müxtəlif inamlarla zənginləşdirdiyi, daha çox türk düşüncə tərzi ilə bağlı olan çillələrin adlarının qorunub saxlanmasına, onlara keçmişdə olduğu kimi əməl edilməsinə böyük ehtiyac var: Əzəl Yalançı çərşənbə, ikinci çərşənbə-Xəbər / Külə çərşənbə, üçüncü çərşənbə- Quyruqlu / Qara Çərşənbə, dördüncü-Axır İlaxır çərşənbə.

## 1.4. NAXÇIVAN TOYLARINDA VƏ "KİTABİ DƏDƏ QORQUD"DA BƏYLİK MƏSƏLƏSİ, NOVRUZDA «XANBƏZƏMƏ» ADƏTİ: ORTAQ CƏHƏTLƏR

Uzun illərdən bəri Naxçıvanda xalq arasında yayılmış bir deyim bizləri düşündürməkdə idi: «Bir günün bəyliyi də bəylikdir». Toplanmış etnoqrafik materiallardan bəlli oldu ki, deyim çox əski çağlara dayanmaqla Azərbaycan türklərinin toyla bağlı adətlərində xüsusi yer tutmuşdur.

XX yüzilliyin 70-ci illərinə qədər Naxçıvanın Şərur, Sədərək, Şahbuz və Culfa bölgələrində toyun ikinci gecəsi oğlan evində xüsusi bir məclis qurulurdu. Məclisə təzə bəyin yaxın dostları, münasib insanlar toplanırdılar. Qədim zamanlardan formalaşmış adətə uyğun olaraq musiqiçilərin iştirakı ilə böyük şənlik və əyləncə məclisi qurulurdu. Məclisin əvvəlində kəndin ağası, bəyi yeni evlənən oğlanı bəy olması münasibəti ilə təbrik edib ona hədiyyə verər və deyərdi ki, bəy, nə əmriniz olsa gözüm üstünə. Yəni, sənin bəyliyini qəbul etdim. Beləliklə, o qanuni bəyin, xanın yerinə yetirdiyi vəzifələrə sahib olmaqla ətrafdakılardan özünə vəzir, vəkil, cəllad, vergi məmuru və s. seçirdi. Bundan sonra yeni bəylik başlayırdı. O istədiyi adamı

divana çağırıb cəzalandıra, cəzanı hədiyyə xarakterli cərimələrlə əvəz edə bilərdi. Bu daha çox müəyyən səbəbdən təbrikə gəlməyənlərə aid idi. Onlar bəyin adamları tərəfindən məclisə gətirilib cəzalandırılırdılar. Bəy əvvəlcə fiziki cəzaya hökm verirdi: şallaqlanmaq, zindana atılmaq, hətta simvolik olaraq qurulmuş dar ağacından asılmaq. Bəyin hökmündən sonra «günahlı» aman istəyər, ətrafdakılar cəzanın yüngülləşməsini xahiş edərdilər. Bəy deyilənləri nəzərə alıb münasibətə uyğun olaraq cəzanı rəqs, məzəli oyun, məclisə şirniyyat, yeyib-içmək gətirmək və s. ilə əvəz edərdi. Adətin Sədərək bölgəsində XX yüzilliyin 70-ci illərinə qədər qaldığını söyləyən t.e.n., NDU-nun müəllimi V.Məmmədov xatırlayır ki, belə məclisdə ilk dəfə iştirak edərkən elə fikirləşirdim ki, bəy belə olur. Xüsusən, evin girəcəyindəki ip məni daha çox maraqlandırırdı. Deyirdilər ki, kimin cəzası ağır olsa, buradan asılacaq. Lakin heç kəsə asılma cəzası verilmədi. Cəza şirniyyat və qonaqlıqla əvəz olundu. Onda bildim ki, bu, bir oyundur.

Belə şənliklərlə yanaşı bəy küsülüləri barışdırar, kənddəki mübahisəli məsələləri həll edərdi. Kimsə onun sözündən çıxmazdı. Bu vəziyyət bir gün davam edərdi. Toydan sonra bəy hakimiyyətdən düşmüş sayılardı. Ona görə də el arasında deyirdilər ki, bir günün bəyliyi də bəylikdir. Etnoqrafik materiallara əsasən demək olar ki, toyun bitməsi ilə bəylik də bitirdi. Vəzifə bitsə də, hər halda, hər bir kişi həyatında bir gün olsa da, bəylik edirdi. Beləliklə, «Bir günün bəyliyi də bəylikdir» ifadəsi bu gün də xalq arasında işlədilməkdədir. Burada bir maraqlı məqam da vardır. Hər bir kişinin idarəçilik qabiliyyətini ortaya qoyması. Əgər çoxları üçün bu əyləncə idisə. Bəziləri bu məqamdan istifadə edərək küsülüləri barışdırır, kəndin ümumi probleminihəll etməyi

dövrün cavabdeh adamları qarşısında qaldırıb həll ediləcəyinə söz verdirirdi.

Şərur bölgəsinin bir sıra kəndlərində, xüsusən Yengicə kəndində bəylik təntənəsi "bəyin hamama aparılması" adəti ilə davam etdirilir. Ətrafında sağdış-soldışu, yaxın dostları, musiqiçilər olan bəy yol boyu kimin qapısından keçsə ev sahibi onlara süd, şərbət, şirniyyat verərdi. Bəy verilənlərdən dadmalı idi. Münasibətdən asılı olaraq bəyə müəyyən xələt verilməsi də olmuşdur. Yaşlı məlumatçıların söylədiklərindən aydın olur ki, XX əsrin ikinci yarısına qədər davam etmişdir. Adətə əməl edilməsində heç kəsə fərq qoyulmamışdır. Hətta hamam olmayan qonşu kəndlərin bəyləri də hamama gələrkən eyni təntənə ilə qarşılanmışlar. Adətin zahiri tərəfləri, el əyləncələri bir yana buradakı mənəvi cəhətlər, el hörməti, onun qorunub saxlanması, uşaqlara, subaylara göstərdiyi müsbət təsir daha önəmlidir.

Toplanmış çöl materialları göstərir ki, Naxçıvanın bir sıra kəndlərində «təzə bəy», «təzə gəlin» statusu kənddə növbəti toy olana qədər davam edirdi. Şahbuz bölgəsinin Nursu kəndində növbəti toy olanda musiqiçilər bundan əvvəlki toyun bəyini və gəlinini həmin toya dəvət etmək üçün göndərilir, bəy və gəlin toya gətirilirdi. Toy sahibi onlara xələt verir və hər ikisi toyda oynadılırdı. Sanki bununla onlar taxtdan salınırdılar. Artıq onlara «təzə bəy», «təzə gəlin» deyilmirdi. Bəzən toylar tez-tez olurdu. Zarafatla deyirdilər ki, filankəs sənin bəyliyinə son qoydu, heç bir həftə də bəy olmadın.

Ədəbiyyat materialları ilə qarşılıqlı müqayisələr həmin adətin ümummili xarakter daşıdığını göstərir. Adətə «Kitabi-Dədə Qorqud»da, Bamsı Beyrəklə bağlı boyda rast gəlirik. 16 illik dustaqlıqdan sonra Beyrək qiyafəsini dəyişib ozan

sifətində adaxlısı Banıçiçəklə Beyrəyin yalandan ölüm xəbərini gətirmiş Yalançı oğlu Yalancuğun (bu adın və soy adının özü çox maraqlıdır) toy şənliyinə gəlir. İgidlər Göyginin (Yalancuğun) üzüyünə nişan atırdılar. Kim ox atsa, Beyrək alqış dedi. Yalancuq atdıqda «əlin qurusun, barmaqların çürüsün. Hey, donuz oğlu donuz», - dedi. Bu, Yalancuğun acığına gəldi. Yayını Beyrəyə verib atmaq təklif etdi. Beyrək çəkib onun yayını qırdı. Beləliklə, düşmən silahdan məhrum oldu. Beyrəyin yayını gətirdilər. O yayını tərif edəndən sonra, vurub üzüyü paraladı. Burada bir incə mətləbə diqqət yetirmək yerinə düşər ki, Beyrək üzüyü özgə yayla deyil, öz yay-oxu ilə vurur. Deməli, düşmənin nikah simvolunu dağıdır, öz haqqını bərpa edir.

Kənardan tamaşa edən Qazan xan ozanın atıcılığına valeh olur. Çağırıb deyir ki, mərə dəli ozan! Məndən nə dilərsən? Beyrəksə: "Sultanım, meni qoqsan da şülen yeməgin yanına varsam. Qarnım acdur, toyursan", -dedi.

Qazan aydır: "Dəlü Ozan, devlətin dəpdi. Bəglər, bu günki bəgligim bunın olsun. Qoyın, nerəyə gedərsə, getsin, neylərsə eyləsün"-dedi, Beyrək qarnını doyurduqdan sonra xörək qazanlarını tökdü. Qazan bəyə xəbər oldu. "Sultanım, delü ozan hep yemegi dökdi"-dediler. -Şimdi kızlar yanına varmak ister. Qazan aydır: Mere qonus, qızlar yanınada varsun-dedi [16,s.64]. Beyrək musiqiçiləri qovur, kimini döyür, kiminin başını yarır, qızların yanına varır: "Bunu gördü Qazan beyin xatunı, Boyu uzun Burla qaqdı, aydır: "Mərə, qavat oğlu deli qavat, sana düşərmi bitəkəllüf benim üzərimə gələsən?"- dedi. Beyrək aydır xanım, Qazan begden mana buyruq oldu. Mana kimse tolaşamaz,-dedi" [16,s.64.].

Buradan aydın olur ki, Qazan bəyin Beyrəyə bəylik verməsi ilə o, bütün haqlara sahib olur. Naxçıvan toylarında

olduğu kimi dastanda da Beyrəyə bir günlük bəylik verilir.

Dastandan diqqət çəkən digər bir cəhət kişi və qadın toylarının (məclisinin) ayrı-ayrı keçirilməsidir. Toplanmış etnoqrafik materiallara əsaslanaraq demək olar ki, Ordubud bölgəsinin bir sıra kəndlərində və Ordubad şəhərində də toylar bu qaydada keçirilmişdir. Qadın toylarında kişilər iştirak edə bilməzdilər. Türk xalqları üçün xarakterik olan bu adətə Azərbaycanın bir sıra bölgələrində ciddi əməl edilmişdir.

Yuxarıdakı mətndən görünür ki, bəylik verilməsi toyda olur. Heç təsadüfi deyil ki, toyu olan oğlan indi də «bəy» adlanır. Qıza isə həmişəkindən fərqli olaraq xanım deyil, gəlin deyirlər. Oğlanın bəyliyi toy bitənə qədər davam edirdi. Hazırda bu ifadə formal xarakter daşıyır. Faktiki olaraq bəy heç bir hakimiyyətə və ya imtiyaza malik olmur. Yəni Beyrəyin malik olduğu hüquq indiki toylarda görünmür.

Tanınmış türkoloq X. Koroğlu bəyin «bəylik hüququ» məsələsinin təzə bəyə böyük hörmət və sayğının azərbaycanlıların toylarında son illərə qədər qorunub saxlandığını xüsui qeyd edir ( 68, s.115].

«Kitabi–Dədə Qorqud» boylarında igidlərə bəylik bir qayda olaraq, ilk hünərdən sonra verilir. Eyni zamanda, onlar həmin vaxt evlənmək hüququ qazanırlar. Oğuz igidləri üçün bəylik haqqı evlənmək, ayrıca yurd qurmaq, mala, mülkə sahib olmaq, idarə etmək hüququ qazanmaq idi. Sosial yöndən yanaşsaq, toyun bəyi də bütün bu hüquqları qazanır. Müqayisəli araşdırmalar göstərir ki, adət ümumtürk xarakteri daşımaqla, Orta Asiya, Sibir, Altay, Volqaboyu türklərdə toy günü oğlana (bəyə) xüsusi imtiyazlar verilməsi ilə səciyyələnirdi və indi də qalmaqdadır.

Toylarda «Bəyin bəylik gecəs»inə oxşar məclislər Azərbaycanın digər bölgələrində «xan-xan», «xan-vəzir» adları ilə keçirilmişdir. Azərbaycan mərasim folklorunun görkəmli araşdırıcılarından Bəhlul Abdulla həmin oyundan bəhs edərək onun aşıqla oynanıldığını xəbər verir. Aşıqda toox-an-xan (padşah), alçı, vəzir, bik (bök)-cəllad, cik-günahkar (bəzi yerlərdə buna oğru deyilir –H.Q.Q.). Aşıqlar atılır. Tooxan düşənin sahibi xan (şah) olur. Digər vəziyyətlər də aşıqların duruş vəziyyəti ilə müəyyənləşdirilir. Hər dəfə günahkar cəzalandırılır. Məclisə şənlik qatılır. Beləcə oyun davam edir. Ola bilir ki, şah növbəti oyunda günahkar olsun. Cəza hər cür verilir: oynamaq, oxumaq, məclisə şirniyyat gətirmək və s. [42, s.138-139].

Bu məclisin «Bəyin bəylik gecəsi»ndən fərqi ondadır ki, toyun bəyi burada oyunçu kimi iştirak edir. Yəni o, oyuna qatılır.

Toyda belə məclislər Dağıstan tərəkəmələri arasında da yayılmışdır. Burada toyu idarə edən «şah» adlanır. O, özünə vəzir, vəkil və çavuş seçir. Şah məclisi idarə edərkən qaydanı pozanları cərimələyir. Bəzən günahkar bir dirəyə bağlanır, üstünə soyuq su atılır. Çavuşun vəzifəsi şahın əmrlərini elan etməkdir [48,s.172-173]. Karaim türklərində buna bənzər gecə keçirilir. Həmin gecə oğlanın «subaylıqdan vida gecəsi» adlanır. Şənliklər, məzhəkəli oyunlar gecə yarısına kimi davam edir. Oxşar adət Orta Asiya xalqlarında da mövcuddur [69,s.314].

Adətin tarixiliyinin və genezisinin araşdırılması onun qədim dövrdə formalaşmaqla, ümumtürk xarakter daşıdığını sübut edir.

Toy müddətində məclisi şənləndirmək, sağdış və soldışın bəyə diqqətini artırmaq məqsədilə bəyə məxsus əşyaların

(ayaqqabı, dəsmal, tütün qabı, papaq, qurşaq və s.) və ya «bəyin oğurlanması» adəti də vardı. Formalaşmış adətə görə, sağdış–soldışın başı qarışan kimi istənilən adam, əsasən bəyə münasib adamlar bəyin qolundan yapışıb özləri ilə müəyyən bir yerə aparırdılar. Bəy müqavimət göstərməz və səs salmazdı. Oğurlayanların razılığı olmadan bəy aparılmış (gizlədilmiş) yerdən çıxa bilməzdi. Elə ki, bəyin oğurlanması ilə bağlı xəbər yayıldı, sağdış–soldış bəyi axtarardılar. Bəyi oğurlayanlar onu qaytarmaq üçün öz şərtlərini irəli sürürdülər: müəyyən miqdar pul, qonaqlıq və s. Təklif qəbul edildikdən sonra bəy qaytarılardı. Olurdu ki, bəyi kiçik oğlan uşağı oğurlayırdı. Sağdış–soldış təkcə bəyin özünü deyil, onun şəxsi əşyalarını-ayaqqabı, papaq və s. qorumalı idilər. Nəzarətdən yayınan kimi kimsə papağını, ayaqqabısını qaçırır, əvəzində pul alaraq qaytarırdı. Adət Azərbaycanın digər bölgələri üçün də xarakterik olmuşdur.

Bəylik, hərəmxanaya sərbəst getmək hüququnun izlərinə Bilqamıs dastanında da rast gəlirik. Bilqamısa bu hüququn göbəyi kəsiləndən verildiyi bəlli olur (7, s.21). Bir məsələni qeyd etməkdə fayda vardır ki, göbəkkəsmədən müəyyən hüquqların verilməsi adəti türk xalqları arasında son dövrlərə qədər qalmaqda idi.

Toplanmış materiallardan bəlli olur ki, oğlan evində «Bəyin bəylik gecəsi» keçirilərkən qız evində ona oxşar şənliklər olurdu. Bu məclislərdə ərə gedən qız, təzə gəlin müəyyən imtiyazlara malik olmaqla ətrafındakı cavan qız-gəlinlər onu əyləndirməyə çalışmaqla məzəkəli oyunlar təşkil edirlər. Müqayisəli tutuşdurmalar həmin məclislərin Bamsı Beyrəklə bağlı boydakı qadın məclislərinə uyğun gəldiyini göstərir. Belə məclislərində «şəbihçıxarma» adlı məzhəkəli oyun təşkil edilirdi. Cavan gəlin və qızlardan bir

neçəsi qiyafələrini dəyişdirib, üz-gözlərini gizlədərək məclisi şənləndirirdilər. Bəzən özlərinə saqqal-bığ qoyub kişilər kimi hərəkət edirdilər.Xalq arasında «Xına gecəsi» adı ilə bilinən bu məclislərdə «haxışta» mühüm yer tuturdu. Buna çox vaxt «haxışta getmək» deyirdilər. Xına gecəsi oğlan evindən qız evinə gələn qızlar 5-6 nəfərdən ibarət dəstə düzəldirdilər. Eyni sayda qız tərəfindən də dəstə düzəldilirdi. Hər dəstənin başçısı olurdu. Dəstələr bir-birlərindən 4-5 metr aralı dayanırdılar. İlk olaraq hansı dəstənin başlayacağı müəyyənləşdirilirdi. Dəstəbaşı ilk dördlüyü söyləyirdi. Yerlərində, sağa-sola hərəkət edən qızlar çəpik çalırdılar. Bu zaman xüsusi ritm alınırdı. Həmin ritmin sədaları altında qızlar bellərini əyərək bir–birlərinə doğru gəlirdilər, aradan keçmək şərti ilə dəstələrin yeri dəyişirdi. Hərəkətli, naqarətli deyişmə başlanırdı. Uzun illərdən bəri Naxçıvan, həmçinin tarixən Naxçıvanla bağlı olan Dərələyəz və Qara Kilsə bölgələrində çox sayda haxışta toplamışıq. Haxıştalarda sevgi, məhəbbət, ailə–məişət münasibətləri əsas yer tutur. Həmçinin, bölgələrə uyğun olaraq məşğuliyyətlə bağlı haxıştalar da mövcuddur:

Badyada qaymaq gərək, haxışta
Qablara yaymaq gərək, haxışta
Qohuma qız verənin, haxışta
Gözlərin oymaq gərək, haxışta

* * *

Pəncərənin milin çək, haxışta
Yandır onun külün çək, haxışta
Qohuma qız verənin, haxışta
Əngin ayır, dilin çək, haxışta

Yuxarıdakı iki haxıştada həm qohumdan qız alan, həm

də qohuma qız verən pislənir. Yəni qohum nikahlar müsbət qarşılanmır.

Oğlan və qızların sosial vəziyyəti ilə bağlı haxıştalar məclisdə xüsusi yer tuturdu:

Haxışta gedə bilmirəm, haxışta
Belimi əyə bilmirəm, haxışta
Özüm dövlətli qızı, haxışta
Kasıba gedə bilmirəm, haxışta

Qardaş tərifi:

Çıxdım aya baxmağa, haxışta
Qapıya qıfıl taxmağa, haxışta
Qardaşım xına göndərib, haxışta
Gəlin əlinə yaxmağa, haxışta

* * *

Qara toyuq nindədir, haxışta
Yumurtası hindədir, haxışta
Qızın güllü yaylığı, haxışta
Qardaşımın cibindədir, haxışta

Haxıştalar dövrə uyğun olaraq dəyişir və zənginləşir:

A mərtəbə, mərtəbə, haxışta
Görünür beş mərtəbə, haxışta
İndi qız sevən oğlan, haxışta
Gərək gedə məktəbə, haxışta.

Məclis davam etdikcə təkrarlanmaya icazə verilmirdi. Haxışta məclisi bir tərəf məğlub olana, yəni qarşılıq verə bilməyənə qədər davam edirdi. Uduzan tərəf məclisə xidmət göstərirdi.

Ordubadın bəzi kəndlərində xına gecəsi qızın yaxın

rəfiqələri, qohum və tanış qızlar təzə gəlinin yanına (başına) toplaşdıqlarından, həmin məclis «qızbaşı» adlanırdı.

Göründüyü kimi, «xına gecəsi», ümumiyyətlə, xına ilə bağlı adətlər Naxçıvan toylarında xüsusi yer tutur. Müqayisəli araşdırmalar sübut edir ki, xına çox qədim dövrlərdən azərbaycanlılarda və digər türk xalqlarında şadlıq, yəni sıxıntıdan və yasdançıxma rəmzi olmuşdur. «Kitabi-Dədə Qorqud»da qızlar əlləri biləyindən xınalıdırlar. Dastanda bədbəxt hadisə, xüsusən yasla bağlı olaraq, «qız-gəlinlər kas-kas gülməz oldu, qızıl xına ağ əlinə, yaxmaz oldu» [16,s.57] - ifadəsi işlədilir. Yaslı qadınlar xına yaxmadıqları kimi, çox vaxt istəklisi dustaqlıqda, çətinlikdə olan qızlar da xına yaxmazdılar. «Aşıq Qərib» dastanında Qərib yad ölkədə olduğu 7 il müddətində Şahsənəmin əlinə xına yaxmadığı məlum olur:

Qış dolandı, yenə bahar açıldı,
Körpə quzu anasından seçildi,
Yeddi ildə on dörd bayram keçildi,
Hənə yaxmamışam yar, sən gedəli [3,s.460].

Deməli, Qərib gedəndən sonra, hətta bayramlarda belə, Şahsənəm xına yaxmamışdır. Lakin Qərib öz gəlişini şadlıq, birlik, qovuşmaq hesab edərək deyir:

Dillərdə dastandır Tiflis alması,
Min tümənə dəyər saçın hörməsi,
Yar, sənə gətirdim Hələb hənası,
Ağ əllərə yaraşır, bir bax Sənəm [3,s.460].

Xalq arasında xına ilə əlaqəli işlədilən «Bu xına o xınadan deyil» ifadəsi diqqəti cəlb edir. B.Abdulla yazır ki, xalq arasında deyilənlərə görə, bir qız hələ uşaq ikən əlinə xına qoyar və hər dəfə atasının qabağında oynayarmış. İllər ötür. Qız böyüyüb ərə verilir. Xına gecəsi əllərinə xına

qoyulduqdan sonra qız yenə gəlib atasının qabağında rəqs edəndə atası onu utandırmaq üçün deyir: «Bu xına o xınadan deyil» [42,s.143].

Deyilənlə bağlı digər rəvayətdə isə: Nənəsi ata-anadan yetim qalmış qız nəvəsini sevindirmək üçün əllərinə xına qoyur. Hər xına qoyduqca qız əl çalıb oynayırmış. Artıq bu, adət şəkli alır. Nəhayət, qız böyüyüb ərə verilərkən əlinə xına qoyanda yenə nənəsinin qabağında oynayır. Nənəsi həmin ifadəni işlədir: «Bu xına o xınadan deyil». Beləliklə, bu ifadə elin dilinə düşür.

Qeyd edək ki, Naxçıvanda bu deyim hər hansı bir məsələnin dəyişdiyini bildirmək məqsədi ilə də işlədilir. Yəni bu iş belə olmayacaq. Müqayisəli araşdırmalar xına ilə bağlı adətlərin və inamların digər türk xalqları, eyni zamanda türklərlə qarşılıqlı təmasda olan xalqlar arasında da geniş yayıldığını göstərir. «Xınayaxma» ilə bağlı adət və inamlar Anadolunun hər tərəfində, xüsusən Şərqi Anadoluda geniş yayılmışdır [32, s .90].

H.Tanyunun məlumatından aydın olur ki, toylarda «xınayaxma» ilə bağlı adətlər, inamlar bolqar, qaqauz türkləri arasında da yayılmışdır.Anadolunun bir sıra bölgələrində xına gecəsi oğlan evindən gələn qadınlara «yenge yemegi» deyilən yemək verilir. Xına gecəsi əyləncələri içərisində «Davullu dügünlər», «Gəlin ağlatma», «Kız anası ağlatma» geniş yayılmışdır [37, s. 199-200]. Quzey İraq türkmənlərində xınanı gəlinin əllərinə və ayaqlarına qisməti bol hesab edilən qadın yaxır [4,s.126]. Dağıstan türkmənlərində «xına gecəsi», «qızlar gecəsi» adlanır. Burada müxtəlif şənliklər keçirilir. «Qızlar şorpası» adlanan xörək bişirilir. Qızlar əllərinə xına qoyurlar. Gəlinin əlinə, ayaqlarına da xına qoyulur [48,s.171].

Müqayisəli araşdırmalar göstərir ki, azərbaycanlılarda olduğu kimi, digər türk xalqlarında da xına məclisi qadınlarla bağlıdır.Analoji olaraq Anadolu türklərində, xüsusən Doğu və Güney Anadoluda «erkek kına gecesi» adlı mərasim keçirilir. Bu, subaylıqla vidalaşmadır [33, s.8-9]. Naxçıvanda «Bəyin bəylik gecəsi», «Xına gecəsi», «Qızbaşı» adətləri bir statusdan digərinə keçməkdir, yeni həyatın başlanğıcıdır. El dili ilə desək «Subaylıq sultanlıqdır» mərhələsinin bitməsidir. Toylardakı belə şənliklər, bəylik, xanlıq hüquqlarının verilməsi, qız-gəlinlərin həna yaxması adətlərinə Novruz bayramında da rastlanmaqdadır. Toplanmış materiallara söykənərək demək olar ki, bəylik hüququ verilməsinin oxşar variantına Naxçıvanın Ordubad bölgəsində Novruz bayramında, «Xanbəzəmə» adlı şöləndə də rastlanmaqdadır. Novruzdan əvvəl kəndin yaşlı insanları bir nəfəri xan seçirlər. O üç gün müddətində xana məxsus idarə sistemi qurub kəndi yönəldir. Kəndin əsas meydanında şənliklər keçirilir, xalqın şikayəti dinlənilir, küsülülər barışdırılır, xanın əmri ilə müxtəlif əyləncə və gəzintilər olur. Beləliklə, «Bəyin bəylik gecəsi»ndən fərqli olaraq Novruzda seçilmiş xanın hakimiyyəti üç gün davam edir. Burada diqqəti çəkən bir məsələ də vardır-əgər seçilmiş xan şənlikləri, xalq idarə sistemini təşkil edə bilmirdisə xalq onu hakimiyyətdən salırdı və yeni xan seçirdilər. Deməli, hər kəs xan ola bilməzdi, bunun üçün xüsusi qabiliyyət tələb olunurdu. Elin xanı həm güldürməyi, həm idarə sistemini yaxşı bacarmalı, həm də əxlaq və mənəviyyatı ilə seçilməli idi. Yuxarıdakılardan bu nəticəyə gəlmək olar ki, Naxçıvan toylarındakı bir sıra adət və mərasimlər tarixin alt qatlarında formalaşmaqla genetik cəhətdən digər türk xalqları ilə ümumi bağlara malikdir. «Bəyin bəylik gecəsi», «Qızbaşı», «Subaylıqla vida

gecəsi» və digər bu kimi adətlər evlənənlərin bir statusdan digərinə keçərkən insanların onlara göstərdiyi böyük diqqətin timsalı olmaqla onlara hakimiyyət, bəylik və xanımlıq hüququ tanıması ilə bağlıdır. «Xanbəzəmə»yə gəlincə bu yeni ilin başlanğıcında xalqın istək və arzularının yerinə yetirilməsi, idarəçi ilə idarə olunanın bərabər hüquqluluğu, üç gün müddətində bərabər idarə sisteminin yaranması, elliliklə toy, əyləncə, şənlik məclislərinin keçirilməsidir.

# II FƏSİL.

## ADƏTLƏR, MÜNASİBƏTLƏR.

### 2.1. NAXÇIVANDA "YAŞINMA" ADƏTİ VƏ ONUN GENEZİSİNƏ DAİR

Etnosun qədim tarixinin, etnik-mədəni əlaqələrinin tədqiqində adət və inanclar əsas yer tutur. Xüsusən, o adət və inanclar ki, onlar tarixin alt qatlarında, ailə-məişət münasibətlərinin formalaşdığı ilk dövrlərdə yaranmış, müəyyən dəyişikliklərlə günümüzə qədər qorunub saxlanmışdır. Belə adətlərdən biri bəzi müəlliflərin Ataxaqanlığı, hətta ondan da əvvəlki dövrə aid etdikləri "Yaşınma" adətidir.Tarixiliyini, digər türk xalqlarında da geniş yayılmasını nəzərə alaraq adətin yaranması və genezisi ilə bağlı məsələləri araşdırmağa çalışmışıq.

Yaşınma» adəti çoxcəhətli olmaqla ailə-məişət münasibətlərində xüsusi yer tutur. Elmi əhəmiyyətini, tarixiliyini nəzərə alaraq, «yaşınma» ilə bağlı müəyyən cəhətlərdən geniş bəhs etmək istərdik.

Nikah və toyla bağlı adət və inanclar içərisində etnoqrafik ədəbiyyatda E.Teylorun dediyi «avoidanie» (rus etnoqrafiyasında-«izbeqanie») adı ilə tanınan adət və inanclar xüsusi yer tutur. Müəllif «Yaşınma» adətini ər və arvad arasındakı münasibətlərə aid edir. Rus etnoqrafiyasında məsələdən ilk dəfə A.N.Maksimov geniş bəhs etmişdir.

A.N.Kosven «yaşınma» («avoidanie») adətini ikili ailə-

nigah münasibətlərinin ilkin dövrünə aid etməklə Ataxaqanlığına keçidlə əlaqələndirir (66, s.131). O, yazır ki, sonrakı inkişaf mərhələsində adətə əməl olunması ilk nigah münasibətlərindən başlanmışdır. Yəni başlıca diqqət evlənmə ilə bağlı «yaşınma»ya yönəldilir (66, s.142). Ümumiyyətlə, araşdırıcılar yaşınma adətinin formalaşmasını 4 əsas şərtlə əlaqələndirirlər. Birinci: Keçmişdə geniş yayılmış nikah forması-qızın zorla qaçırılması, sonrakı mərhələdə onun qohumlardan, ətrafdan yaşınması. İkinci şərtdə qrup nikahlardan fərdi (ikili) nigaha keçilməsi. Burada «yaşınma» birtərəfli olmaqla, daha çox cinsi xarakter daşımalı idi, yəni yad kişilərdən «yaşınma». E.Teylora görə «yaşınma»nın bir səbəbi də ata hakimiyyətinin önə çıxması ilə bağlıdır. Müəllif təkcə ərlə arvad arasındakı yaşınmanı deyil, yaşlı qohumlar, valideyn və uşaqlar arasındakı münasibəti də bura aid edir və bu üçüncü şərt sayılır. Eyni fikiri müdafiə edən M.O.Kosven «Atalıçestvo» məqaləsində «yaşınma»da kişi hakimiyyətinin, ata hüququnun başlıca rol oynadığını önə çıxarmaqla onun Ataxaqanlığı dövründə formalaşdığını göstərir (65, s.48). Dördüncüsü isə daha çox psixoloji amillərlə izah olunur. Yəni, başlıca diqqət cütlərin bir-birindən, ətrafdakılardan utanma, ayıbetmə məsələlərinə yönəldilir və etiketlə əlaqələndirilir. Adətin formalaşması ilə bərabər, onun tədqiqi məsələsində də bir sıra mübahisəli cəhətlər mövcuddur. «Yaşınma» ilə bağlı adətlərin qadağan sisteminə bağlılığı, «yaşınma»nın səbəbləri, onun etiketlə əlaqələri ətrafında araşdırıcılar arasında mübahisəli fikirlər vardır. T.E.Markova görə, digər sosial institutlar kimi «yaşınma» («izbeqanie») adətinə birmənalı deyil, müxtəlif cəhətdən yanaşmaq lazımdır. Çünki adət özündə müxtəlif ictimai şəraitdə formalaşmış əlamətləri saxlayır (71, s.67). Eyni

fikri müdafiə edərək C.A.Artyunov «yaşınma»ya sosial, tarixilik, psixoloji, etiket baxımdan, yəni hərtərəfli yanaşılmasını məsləhət görür (40, s.53-56).

Bizcə müəlliflərin yaşınmanın tarixi ilə bağlı diqqətdən qaçırdıqları ciddi bir məqam mövcuddur. İnsan oğlunun qadağan sistemini pozması ilk gizlənmə və həya geyimi. Səmavi kitablarla tanışlıq sübut edir ki, Allahın Hz. Adəm (ə.s.) və Həvva nənəyə ilk verdiyi maddi varlıqları geyim olmuşdur. Bu zərurət İblisin onları aldatmasından sonra yaranmışdır. Qurani Kərimin Əraf surəsinin 22-ci ayəsində Şeytanın aldatmasından sonra Adəm və Həvvanın bir-birlərinin ayıb yerlərini gördüklərindən və örtü məqsədi ilə Cənnət ağacının yarpaqlarından istifadə etmələrindən bəhs olunur. Beləliklə, qadağan sisteminin pozulmasından ilk gizlətmə, yaşırma meydana gəldi və zaman keçdikcə ailədaxili münasibətlərdə,insanlararası əlaqələrdə bunun müxtəlif cəhətləri formalaşdı. Yəni bu geyimlə məhtudlaşıb qalmadı. Geyimlə bağlı həmin surənin 26-cı ayəsində deyilir: " Ey adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək bir geyim və bir də bəzəkli libas nazil etdik. Lakin təqva libası daha xeyirlidir...".

Deməli, ilkin geyim sadə olmaqla daha çox etik mahiyyət kəsb etmiş və bəşəri xüsusiyyətlər daşımışdır. Bu vəziyyət öz əksini müxtəlif təsvirlərdə tapmaqla dünyanın ayrı-ayrı xalqlarında, daha çox kişilər arasında hələ də davam etməkdədir.

Məsələ ilə bağlı Qafqaz xalqları arasında, xüsusən Şimali Qafqazda geniş tədqiqatlar aparan Y.S.Smirnova A.U.Perşitslə birlikdə nəşr etdirdikləri məqalədə digər etnoqrafik problemlər kimi «yaşınma» adətini də mədəniyyətin, sosial normativlərin bir elementi saymaqla ona müasir

dəyərlər baxımından yanaşmağı tövsiyə edirlər. Yəni tarixi-mədəni proseslərin qarşılıqlı vəhdəti halında ( 79, s.69-70 ).

Bir sıra adət və inanclarda olduğu kimi, yaşınma: «avoidanie»-«izbeqanie» ilə bağlı fikirlər birtərəfli və dumanlı olmuşdur. Maraqlıdır ki, bir qayda olaraq məsələyə «keçmişin qalığı» deyə yanaşılmışdır. Yəni, adət dövrümüz üçün gərəksizdir. Bu fikir etnoqrafik ədəbiyyatda yüz ildən artıqdır ki, hakimdir. Qarşılıqlı araşdırmalar sübut edir ki, «keçmişin zərərli qalığı» ifadəsi daha çox rusların Qafqazı və Orta Asiyanı işğalından sonra formalaşmışdır. Eyni baxış Avropa tədqiqatçıları arasında da hakim olmuşdur. Deməli, məsələyə milli dəyərlər baxımından deyil, yadların düşüncə tərzindən yanaşılmışdır. Beləliklə, Avropa-rus məişətində yoxdursa, onların düşüm tərzinə uyğun gəlmirsə, keçmişin qalığıdır fikri formalaşdırılmış və yerlərdə də qəbul etdirilmişdir.

Məsələnin mahiyyətində isə iki vacib cəhət dayanır: yasaqlar və etiketlər. Bəzi məqamlarda bunlar birləşirlər. Öz növbəsində tədqiq edilən məsələyə «yaxşı» və ya «pis» deyərək onu kəskinliklə iki yerə ayırmaq olmaz. Çünki onun tərkibində bir sıra müsbət cəhətlərlə yanaşı, mənfi hallar da mövcuddur. Bu isə daha çox ayrı-ayrı inkişaf mərhələlərindəki sosial münasibətlər, dini-mənəvi amillərlə bağlıdır.

B.X.Bqajnikovun yazdığı kimi, əsas məsələlərdən biri problemin tədqiqinə, onun yaşama və yayılma səbəbinə obyektiv yanaşmaqdır ( 44, s.57-62 ).

Görkəmli etnoqraf S.A.Tokarev isə həmin adətin mövcudluğuna etnosun necə münasibət bəslədiyini, onun yaşama səbəblərini araşdırmağı əsas şərtlərdən hesab edir

(80, s.68-75).

Bir sıra halda «yaşınma» adətinin daha çox gəlinin ailə üzvlərinə münasibəti ilə məhdudlaşdırırlar. Bəzən tabular «yaşınma» ilə eyniləşdirilir. Əgər «yaşınma»da daha çox mənəvi-psixoloji amillər başlıca rol oynayırsa, qadağan sistemi kəskin olmaqla, mənəvi-fiziki amillərlə bağlıdır.

M.H.Serebryakova Anadolu türklərində «kaçınma» adı ilə tanınan «yaşınma» adətini daha çox islam dini, qadının hüquqsuzluğu ilə əlaqələndirir (76, s.248-258). Ümumiyyətlə, türklərin ailə məişəti ilə əlaqəli araşdırma aparan müəllif tarixiliyi nəzərə almadan, adətin genezisini öyrənmədən ona əməl edilməsinə mənfi münasibət bəsləmişdir.

Təbii ki, İslam ölkələrində yaşınma adətinə etnik düşüncə tərzi ilə bərabər, dinin, xüsusən islam dininin də müəyyən təsiri olmuşdur. Bu, daha çox geyimlərdə, naməhrəm məsələlərində özünü göstərir. Lakin bəzi müəlliflərin dediyi kimi, bu, tamamilə dinin təsiri altında deyildir. Digər tərəfdən müxtəlif dinlərə və inanclara məxsus etnoslarda adətin oxşarlığı onun genetik cəhətdən dinlə əlaqəsinin zəif olduğunu sübut edir. Adətdə dindən çox etnik kimlik, Şərq xalqlarına məxsus həyat tərzi başlıca rol oynayır.

Qəmərşah Cavadov və Rauf Hüseynov udilər arasında yaşınma adətinin yayılmasını araşdıraraq bəzi müəlliflərin onu islam dini ilə bağlamalarının elmi cəhətdən yanlış olduğunu göstərmişlər. Müəlliflər yazırlar ki, xristian dininə mənsub olan udi qızlarının «yaşınma»sı adəti bizə bu nəticəyə gəlməyə əsas verir ki, bu adəti islam dini ilə bağlayanlar səhv edirlər ( 9, s.135 ).

Müəyyən xalqlarda məsələ nisbətən geniş tədqiq olunmaqla, araşdırıcılar adətə əməl edilməsi baxımından həmin xalqları bir neçə qrupa bölürlər. Məlum olmuşdur ki, bir

sıra qohum və qonşu xalqlar arasında bu münasibətlər bir-birinə oxşar və eynidir.

Toplanmış çöl və ədəbiyyat materiallarının qarşılıqlı müqayisəsi sübut edir ki, Azərbaycan türkləri arasındakı qadağan sistemi və yaşınma adəti digər türk ( 73 ) və Qafqaz xalqlarının ( 77, s.77-83 ) adətlərinə yaxındır. Bu, həmin xalqlar arasındakı qohumluq əlaqələri və qonşuluq münasibətləri ilə bağlıdır.

Müqayisəli araşdırmalar imkan verir deyək ki, problem Azərbaycan etnoqrafiyasında istənilən səviyyədə tədqiq olunmamışdır. Azərbaycanda ailə-məişət münasibətləri ilə bağlı araşdırmalar aparan rus və Azərbaycan tədqiqatçılarından bir neçəsi bu məsələyə toxunmuşlar (59, s.103-105; 41.16; 9, s.135). Lakin onlar problemdən ayrıca olaraq bəhs etməmişlər. XX yüzilliyin II yarısında azərbaycanlıların ailə və məişətinə aid dissertasiyalarda məsələdən epizodik bəhs edilmişdir.

Naxçıvan ərazisində həmin adət «danışmama», "ayıb etmə", "həya etmə" adlanır və əsasən gəlinin ailədə kiminlə danışmasına diqqət yetirilir. Bütün bunlarla bərabər, ailədə evli oğulun həyat yoldaşına, uşaqlarına, qayınata və qayınanasına münasibəti də bura aid edilmişdir. Azərbaycan türkləri arasında hətta yaşlı ər və arvad bir-birlərini öz adları ilə çağırmaz və başqalarının yanında bir-birilərinə müraciət etməzdilər. Ailə münasibətlərində yaşlı nəslə hörmət özünü gənc ata və ananın uşaqlarına münasibətində də göstərir. Mövcud olan münasibətlər və çöl materiallarının tədqiqi göstərir ki, oğul və gəlin heç vaxt valideynlərinin, qayınata və qayınanasının, böyük qaynının yanında uşaqlarını qucaqlarına götürməz, hətta onları danışdırmazdılar.

A.Zaxarov yazır ki, əgər sən tatardan (Azərbaycan

türkündən-H.Q.Q.) soruşsan ki, neçə uşağın var? Həmişə bu cavabı eşidərsən: Deмək ayıb olmasın, filan uşağım var ( 59, s.104 ).

Şeyx Nizami yaşınmanı daha çox qadınlara aid edir. Adətilə bağlı Nizami İsgəndərin dili ilə deyir:

Üzünü gizlətmək xoşdur qadına,
Qadın ki, yadlara açar üzünü.
Nə əri düşünər, nə də özünü.
Bərklikdə ansa da daşı, poladı,
Yenə də qadının qadındır adı ( 23, s.317).

Adətin yaşınma adlanmasına Nəsiminin əsərlərində də rast gəlirik:

Məndən üzünü yaşırma kim, səcdəgahım odur,
Seyr edərəm bu çərxi, xurşidü mahım odur. (11, s.230)

Əhli nəzərdən yaşırma, aç üzünü gəl,
Gül gələcək əndəib zar ilə xoşdur (11, s.231)

Azərbaycan türklərində adətin «gizlənmə» kimi işlədilməsi qarşıya qoyulmuş suala tam cavab vermir. Digər tərəfdən yuxarıda dediyimiz kimi Naxçıvanın ayrı-ayrı bölgələrində, bölgədaxili kəndlərində bu termin müxtəlif formada işlədilir. Adət daha çox «çəkinmə», «danışmama», «gizlənmə», «utanmaq», «ayıb etmək» və s. terminlərlə ifadə olunur. Bu terminlərin heç biri ayrı-ayrılıqda adəti tam əhatə etmir. Çünki adət müxtəlif istiqamətlidir.

Adətlə bağlı «Kitabi-Dədə Qorqud»da kişilərin niqabla gəzməsi diqqəti cəlb edir: «Oğuzda dörd yigit niqabla gəzirdi. Biri Qanturalı, biri Qaraçəkur və oğlu Qırqqınuq və boz ayğırlı Beyrək» ( 16, s.87 ).

Ümumiyyətlə, dastanda qadın və kişi məclislərinin ayrılıqda keçirildiyi, qadınların ciddi şəkildə yaşındıqları məlum olur: «Çağırdılar, Beyrək gəldi. Banıçiçək yaşmaqlandı» (16, s.54).

Hərtərəfli araşdırmalar tarixilik və ənənəvilik baxımından daha qədim olan «yaşınma» terminindən istifadə etməyin məqsədəmüvafiq olduğunu göstərir.

S.L.Malov «yaşur» sözünün rus dilində qarşılığını-покрывать, скрывать kimi təqdim edir (70, s.386). V.V.Radlovda yaşır-pretatğ, skrıvatğ; yaşırı-skrıtno, yaşrın-skrıtnıy, taynıy (74, s.246-247). Qədim türk lüğətində (Drevnetörkskiy slovarğ) –yaş-skrıvanie, yaşru-sokrovennıy, taynıy, skrıtıy (55, s.246). Azərbaycan dilinin dialektoloji lüğətində yaşırmaq, gizlətmək- prətatğ, skrıvatğ, tayno (5, s.242).

K.Qaraqaşlı ayrumlarda «yaşınma» adətindən bəhs edərək yazır ki, qadınlar yaşınmaq üçün üzünün burnunun ucundan aşağı hissəsini örtür ki, bu, «yaşmax» adlanır (61, s. 17).

«Yaşınma» adətindən bəhs edərək Y.S.Smirnova onu 4 qrupa bölür. I qrupa ər və arvad arasındakı münasibətləri, II qrupa valideynlərlə uşaqlar arasındakı qadağan münasibətlərini, III qrupa gəlinin qayınata, qayınana və ərinin digər qohumlarına münasibətini, IV qrupa isə kürəkənin arvad qohumlarına olan münasibətini aid edir (78, s.119).

Orta Asiya və Qazaxıstan xalqlarında bu məsələdən bəhs edərək N.A.Kislyakov da bu qayda da bölgü aparır. Lakin o, üçüncü qrupun özünü iki yerə ayırır: I. Oğlanın valideynləri və digər yaşlı qohumlarına münasibət; II. Gəlinin özündən kiçiklərə münasibəti (64, s.163).

Toplanmış çöl materiallarının tədqiqi göstərir ki, azərbaycanlılar arasında yuxarıdakı şərtlərlə yanaşı, kəndin

yaşlı nəslindən «yanaşma» da mövcuddur.

Ailədə ər və arvad arasındakı «yaşınma» adətindən bəhs etməzdən əvvəl bunun bir neçə mərhələyə bölündüyünə diqqət yetirilməlidir. Nişanlılıq dövründə, toyda və toydan sonrakı dövrdə «yaşınma».

Oğlan elçilikdən əvvəl istədiyi qızın valideynlərinin gözünə görünməməyə çalışır, xüsusilə, qızın yaşadığı məhəllədə. Nişanlılıqdan sonra öz növbəsində qız da qayınatası, qayını və oğlanın digər kişi qohumlarından yaşınırdı. Oğlanla qız görüşərkən çalışırdılar ki, bunu heç kim görməsin. M.O.Kosven E.Teylora əsaslanaraq bunu yaşınmanın birinci mərhələsi hesab edir.

Nişanlılıq dövründə oğlan böyük baldızı və qaynı arvadından «yaşınar», onlarla danışmazdı. Adətə görə, nişanlanmadan bir müddət sonra qızın anası, bacısı və digər yaxın qadın qohumları müəyyən hədiyyələrlə oğlanı görmək üçün onların evinə gələrdilər. Burada qayınanası oğlanla danışırdı. Adət «bəy görüşü», «kürəkən görüşü» adlanır. Bundan sonra kürəkən qayınana ilə danışa bilərdi.

Lakin bir sıra kəndlərdə oğlan qayınanası və nişanlısının digər qadın qohumları ilə onu qız evə qonaq çağırdıqda danışardı. Çünki bu vaxt qayınanası və digər qohumlar oğlana «xoş gəldin» etməklə onu danışdırırlar.

Ər və arvad arasındakı yaşınma adətinə gəlincə, onlar başqalarının yanında bir–birlərinə öz adları ilə deyil, müəyyən adlarla müraciət edirdilər. Adət digər türk xalqlarında da mövcud olmuşdur.

N.A. Karaulov balkar türklərində ər və arvad arasındakı «yaşınma» adətindən bəhs edərək yazır ki, balkarlarda qadına qarşı çox diqqət və hörmətlə yanaşılsada kişi özgələrinin yarında qadınına elə yanaşır ki, sanki onu

görmür (62, s132-157).

V.M.Sısoyevin məlumatına əsaslanaraq Qaraçay türklərində də eyni münasibətin mövcudluğunu söyləmək olar (80, s.51).

Söhbət həyat yoldaşından gedirdisə, kişi ancaq bu sözləri işlədirdi: «filankəsin qızı» (atasının adı), valideynləri ilə danışdıqda «gəlininiz» və s. Orta nəslə daxil olan kişilər arvadları haqqında danışanda «bizim uşaqların anası» ifadəsinə də çox istinad edərdi. Qayınatası, qayınanası ilə söhbətdə isə «qızınız», böyük qayın ilə söhbətdə isə «bacın» ifadəsindən istifadə edirlər. Yaşlı kişilər isə «bizim arvad» deyərdilər.

Qadınlara gəlincə onlar da ərləri haqqında «o», «oğlunuz», «filankəsin oğlu», «bizim kişi» və s. ifadələr işlədərdilər. Çox az hallarda ər və arvad bir –birlərinin adlarını çəkərdilər. Onlar heç vaxt bir–birlərinə «ərim» və ya «arvadım» deyə müraciət etməzdilər.

Xalq arasında mövcud olan adətə görə, gənc ər və arvadın bir yerdə oturub söhbət etməsi, birlikdə yemək yeməsi ayıb sayılırdı. Onlar küçədə yanaşı getməz, heç bir məclis və mərasimlərdə bir yerdə oturmazdılar. H.P. Dırenkova bu tip yaşınma adətini daha çox qadağan sistemi ilə əlaqələndirir (56, s.19).

Ailənin yaşlı üzvlərinin yanında «yaşınma» adəti daha ciddi şəkil alırdı. Belə vəziyyətdə gənc kişi və arvad hətta bir–birlərinə baxmazdılar. Bu sahədə ailənin yaşlı üzvləri ilə yanaşı, məhəllənin və kəndin də yaşlılarına hörmət gözlənilirdi.

Valideynlərlə uşaqlar arasındakı çəkinmə münasibətinə gəlincə qeyd etmək lazımdar ki, bu hal ilk növbədə ailə daxilində gözlənilir. Yaşlılar arasında (xüsusilə valideynlərin)

ata, ana öz uşaqlarının adını çəkməz və tez-tez «nəvəniz» ifadəsini işlədərdilər.

Adət qaraqalpaqlar arasında da mövcuddur. Necə ki, ərinin valideynləri sağdır, gəlinin öz uşağını adı ilə adlandırmağa ixtiyarı yox idi (xüsusilə, birincini).

M.O.Kosven «Avunkulat» adlı məqaləsində ata ilə övlad arasındakı «avoidançe» (yaşınma) adətinin Qafqaz xalqları arasında geniş yayılmasını islamda kişi hakimiyyətinə üstünlük verilməsi (panmucestvo) ilə əlaqələndirir (67, s.18). O, mənbələrə, xüsusən İ.İvanova əsaslanaraq yazır ki, bəzən ata tabe olmayan oğullarından birini öldürürdü ki, digərlərinə dərs olsun, ondan çəkinsinlər (67, s.18). Bizcə, bu sırf islamla bağlı ola bilməz. Digər tərəfdən belə hadisələr hakimiyyət üçün edilirdi. Həmçinin tək-tək hallar ümümi adəti xarakterizə edə bilməz.

Azərbaycanlılar arasında qədimdən formalaşan adətə görə, cavan ata valideynləri, böyük qardaşı və digər yaşlıların yanında uşağını qucağına götürməzdi. A.Zaxarov yazır ki, ata kənar adamlar yanında öz qızın tumarlamağa, öpməyə utanırdı (59, s.104). Buradan belə görünür ki, ata ancaq öz qızına qarşı bu münasibətdə olub. Amma toplanmış çöl materialları sübut edir ki, həmin münasibət eyni ilə oğlan uşaqlarına qarşı da olmuşdur. Ailədə atanın uşağa münasibəti heç də eyni xarakterli olmamışdır. Atanın yaşlılar yanında belə etməsinə baxmayaraq, o, təklikdə və ya yaşlılar olmadıqda öz uşaqlarını oynadır, onlarla əylənirdi. Ailədə qız və oğlana münasibətə gəlincə bu, onların sayından asılı idi. Ailədə qız uşaqları çox olsa idi oğlanlara, oğlanlar çox olsa idi qıza mehribançılıqla yanaşardılar. Lakin el arasında deyirdilər: «Qız uşağı, şeytan olur o, özünü sevdirməyi bacarır».

Mənbələr və el arasında mövcud olan münasibətlər göstərir ki, bəzi atalar hətta on ildən artıq bir vaxtda valideynlərinin yanında öz uşaqlarını danışdırmamaq, onlara fikir verməməklə yanaşı, yaşlıların yanında onların ölümünü soyuqqanlılıqla qarşılayırdılar.

Ailədə gəlinin öz uşaqlarına münasibətinə gəlincə gənc ana yaşlıların yanında heç vaxt uşağını qucağına götürməz, əmizdirməzdi. Hətta uşaq ağlasa, xəstələnsə belə qayınatanın, böyük qayının yanında anası ona fikir verməzdi.

Göründüyü kimi burada ata ilə ana arasında fərq yaranır. Əgər ata «utanmaq», «ayıb etmək», «qaçmaq» adətinə ailənin bütün yaşlıları içərisində əməl edirsə, ana bu halı ancaq kişilərin yanında gözləyir. İlk uşaqda ana bu adətə qayınanası və yaşlı baldızının yanında da əməl edərdi. Lakin qayınanası özü uşağı götürüb verir gəlinə, sanki bununla onun yanında uşağı qucağına götürməyə icazə vermiş olur. Gənc ana qayınanası yanında uşağı qucağına götürməsinə baxmayaraq, onu oxşamaz və əmizdirməzdi.

Ata–ananın uşaqlarına belə münasibəti o demək deyildir ki, onlar öz uşaqlarını az istəyirlər. Bu, şifahi xalq ədəbiyyatımız və digər mənbələrdə göstərildiyi kimi, yaşlı nəslə hörmət, nəsildən nəsillərə keçib gəlmə ulu adətidir.

Üçüncü məsələ gəlinin ailədəki yaşlılara münasibəti və bunlar arasındakı «yaşınma» adətidir. «Narodı Kavkaza» kitabında azərbaycanlılarda bu məsələdən bəhs edilərək yazılır: «Təzə gəlin evin bütün kişilərindən gizlənir, ailənin yaşlı üzvlərininin oturduqları otağa girmir. Əgər ayrıca otaq olmasa, gününün çox hissəsini mətbəxdə keçirir» (72, s.132).

Qədimdən formalaşan adətə görə, təzə gəlin qayınatası, böyük qaynı və digər yaşlı kişilərə qarşı bir sıra qadağan

sisteminə əməl etməli idi: Gəlin qayınatası, qayını və digər kişilərin yanında başıaçıq, ayaqyalın olmazdı. Hər vasitə ilə çalışardı ki, onların gözünə az görünsün. Küçəyə çıxdıqda çadralı olardı. Gəlinləri yaşmaqsız görmək mümkün deyildi. Üzün örtülməsi, xüsusən gözlərə qədər üzün aşağı hissəsinin örtülməsi geniş yayılmışdı. Buna «yaşmaq» deyilirdi. «Yaşmaq», «yaşınmaq» və «yaşınma» eyni anlamdadır. Yaşlı qadınlar da yaşmaqdan istifadə etmişlər. Onlar ancaq özlərindən yaşlı kişilərin yanında yaşmaq tutardılar. Gəlinlərin qayınatası, qayını və digər kişilərin yanında yemək yeməsi, onlarla üz–üzə oturması, onların yanında uzanması və s. qəti qadağan idi.

Qırğızlarda ailədaxili qadağan sistemindən bəhs edərək N.P.Dırenkova onu bu qaydada bölür: görüşmək qadağanlığı, üz göstərmək, bədənin açıq hissəsini göstərmək, təklif etmədən danışmaq, adı ilə çağırmaq və s. (56, s.17). Bütün bunlara azərbaycanlılar arasında da əməl olunmuşdur.

Gəlin qayınatası, qaynı və digər kişilərlə danışmaz, onların hər bir sözünə müxtəlif işarələrlə cavab verərdi. Evdə uşaq olduqda isə onlar vasitəsilə danışardı. Adətə görə, gənc qadın ilk uşaq doğulana qədər yaşlı ailə üzvlərindən (əsasən kişilərlə–H.Q.Q.) heç biri ilə danışmaz, hətta onların suallarına da cavab verməzdi. Yaşlı ailə üzvlərinin özləri də gəlinlərlə görüşməkdən (üz–üzə gəlməkdən) qaçar və çalışardılar ki, onlarla danışmasınlar (72, s.132).

Gəlin böyük qaynı ilə bəzən bir neçə il danışmırdı. Əsasən 1-2 uşaq olduqdan sonra qayınanası və qayının təkidi ilə danışırdı. Bir sıra hallarda qayın ona danışmaq üçün xələt verirdi. Bu adət yuxarıda adları çəkilən bütün xalqlar arasında mövcud olmuşdur. Lakin maraqlıdır ki, qaraqalpaqlarda bu adət əksinədir. Yəni gəlin qayınatası və

ərinin digər kişi qohumları ilə danışmaq üçün onlara hədiyyə verir (45, s.44). Gəlinlərin ailənin yaşlı üzvləri ilə danışmasına gəlincə bu müxtəlif müddətli olurdu. «5-6 il, bəlkə də daha çox gəlin qayınatası, qayınanası və oğlanın digər qohumları ilə danışmaz. Lal kimi fikrini him-cimlə başa salar, soruşulana cavab verərdi» . Bir çox ailələrdə bu, 10-15 ilə qədər davam edərdi, bəzən isə gəlin ümumiyyətlə, qayınatası ilə danışmazdı. Qayınata bir neçə uşağı olan gəlini danışdırdıqda gəlin ona ancaq işarə ilə cavab verərdi. Qayınata gəlinə hədiyyə verirdi ki, onunla danışsın. Lakin buna baxmayaraq, gəlin onunla danışmağı ayıb sayır, hörmətsizlik hesab edirdi.

Evdə bir neçə gəlin olduqda yaşca balaca gəlin bütün yuxarıdakılarla yanaşı, böyük gəlindən də yaşınmalı idi. Bu haqda A.Q.Trofimova yazır ki, o, qayınanası və böyük gəlinlə birinci danışmaqdan çəkinməlidir. Həmçinin ondan tələb edilirdi ki, xidmət göstərsin və itaət etsin (83, s.187). Təzə gəlin oğlanın yaşlı əmisi, dayısı və digər kişi qohumları ilə danışmazdı.

Maraqlı cəhətlərdən birisi gəlinin ailə üzvlərinə necə müraciət etməsidir. Yuxarıdan göründüyü kimi, gəlin yaşlı ailə üzvlərini adı ilə adlandırmazdı. O, qayınatasına qayınata, əmi, kişi, bəzən isə evdəki digər ailə üzvlərinin necə adlandırmaları ilə əlaqədar olaraq həmin adla adlandırırdı. Qayınanasına qayınana, əmcanı, xala, bibi, ana, böyük qaynına-ağa qayın, qayınağa, dadaş, bəzi kəndlərdə qağa deyirdi. Qayınata, qayınana, böyük qayın, baldız onu «gəlin» deyə çağırardılar. Bəzən ona atasının adı ilə müraciət edərdilər (filankəsin qızı). Ailənin kiçik yaşlıları «gəlinbacı» və ya «bacı» deyirdilər.

Günümüzdə yaşınmanın xarakterində ciddi dəyişikliklər baş vermişdir. Gəlinlərin ailədə vəziyyəti dəyişilməklə onlar

oğlanın atası və böyük qardaşından çox qaçmır, qısa müddətdən sonra onlarla danışır. Gəlinin ailədə yaşınması əsasən birinci uşaq olana qədər davam edir. Bu hal qayınata 60 və yuxarı yaşlı olduqda daha ciddi şəkil alır.

İndi gəlinlərin oturduğu ayrıca otaq və ya yer yoxdur. Onlar da bütün ailə üzvləri ilə birlikdə oturur və yemək yeyirlər. Keçmişdə olduğu kimi, indi də gəlin qaynata, qayınana, böyük qayını, baldızı və digər yaşlı qohumlarını adları ilə çağırmaz. Onlara müraciət köhnə qaydada qalır: əmi, ata, ana, qayınana, bibi, xala az sayda papa, mama, qayın, bacı və s. (49, s.37-38).

Son illərdə gəlinlərin təhsil səviyyəsinin yüksəlməsi, ictimai fəaliyyətlərinin artması onlar arasında yaşınmanın bir sıra cəhətlərinin aradan çıxmasına səbəb olmuşdur. Müasir ailə münasibətlərində gəlinlər mühüm rol oynayırlar. Onlar ailə məsələlərinin həllində yaxından iştirak edirlər. Gəlinlərin kişilərin yanında «yaşmaq tutma»sı demək olar ki, tamamilə aradan çıxıb. Lakin bununla belə onlar qayınatasının, yaşlı qayınlarının yanında uşaqlarını qucaqlarına götürsələr də, onları oxşamaz və öpməzlər. Yaşlıların yanında uşaq əmizdirmək hallarına rast gəlinmir. Gənc ər-arvad valideynləri yanında yaxın əyləşib söhbət etmir. Həmçinin, onlar bir-birlərinə öz adları ilə müraciət etməyi ayıb sayırlar. Onlar yaşlıların yanında uzanmaqdan (hətta ayaqlarını uzatmaqdan), çox danışmaqdan, əri ilə söhbət etməkdən, uşaqları ilə əylənməkdən yaşınar. Bir sözlə, çalışarlar ki, onun nə vaxt yatıb-durduğunu qayınata bilməsin.

Gənc valideyinlər uşaqlarına «oğlum», «qızım» deməkdən yaşınarlar. Hətta yaşlı ata camaat içərisində oğlu haqqında danışarkən və ya onu çağırarkən «oğlum» ifadəsi işlətmir. Bu, görkəmli Azərbaycan şairi Rəsul Rzanın

«Nəvəli Rəsulun sevgisi» şeirində özünü göstərir:

Babayam.
Nə uzun saqqalım var,
Nə belim bükülüb,
Qucağımda nəvəm-
Buz baltası.
Yanımda atamın nəvəsi,
Nəvəmin atası.

Şeirdən göründüyü kimi, sanki bu qocaman şair geniş oxucu kütləsinə birbaşa oğlum, oğlumun oğlu deməkdən yaşınmışdır.

Söhbət zamanı məlum olmuşdur ki, bu hal yaşlı qayınata və qayınanaların da ürəyindəndir. Onlardan bir neçəsi bu vəziyyətdən danışaraq deyirlər ki, gəlinin mənimlə danışmaması mənə hörmət deyil, mənə ən böyük hörmət gəlinin mənə göstərdiyi qayğıdır.

Oğlanın qayınatası, qayını və arvadının digər qohumlarına münasibətində də dəyişikliklər baş vermişdir. Nişanlılıq dövründə oğlan qız evinə gedib-gəlir. Lakin o, yenə də qayınatasının gözünə az görünməyə çalışır. Qayınatasından, böyük qayınından yaşınır. Çalışır ki, onlarla eyni məclisdə iştirak etməsin. Öz növbəsində də qayınata və qayın da buna əməl edir.

Toydan sonra yaşınma adəti nisbətən yumuşalsa da, gənc ata valideynləri, qayınatası, qayınanası və böyük qayınının yanında uşaqlarını oynatmaz, öpməkdən yaşınar.

Bir araşdırıcı olaraq deyim ki, özümün baba olmağıma baxmayaraq, hələ bu günə qədər valideynlərimin yanında uşaqlarımı oxşamamışam. Hətta nəvələrimi də qucağıma götürməmişəm. Kürəkənim isə mənim yanımda nəinki

uşaqlarına diqqət yetirmir, onların suallarına belə cavab verməyib.

Yekun olaraq demək olar ki, yaşınma adəti ailə münasibətlərinin tənzimlənməsində, ailənin möhkəmliyinin qorunmasında, xalq etigetində xüsusi rol oynamışdır. Onun müsbət tərəflərinin qorunub saxlanmasına böyük ehtiyac vardır. Adət digər türk xalqları arasında da geniş yayıldığından ümumi inamlar panteonumuzu öyrənməkdə ciddi elmi əhəmiyyətə malikdir. O, genetik cəhətdən qədim türk xalqlarının ailə münasibətlərinə aid olsa da, bir sıra xalqlarda da ümumi cəhətlərə malikdir.

## 2.2. İSLAM-TÜRK DÜŞÜNCƏSİNDƏ VƏ AİLƏDƏ QADIN

Tarixin bütün mərhələlərində qadınla bağlı məsələlər, onların ictimai mövqeyi, cəmiyyətdə və ailədə tutduğu yer ciddi müzakirə obyekti olmuşdur. Xüsusən son yüzilliklərdə bu məsələ gündəmə daha tez-tez gətirilir. Müxtəlif peşə sahibləri qadınlarla bağlı problemlərə fərqli mövqedə yanaşırlar. Çox acınacaqlı haldır ki, qadına münasibəti, onu yüksəltməyi Şərqdən, İslam-Türk dünyasından öyrənən Qərbin bir sıra araşdırıcıları İslam-Türk xalqlarında qadınlara mənfi münasibət bəslənməsindən, onların hüquqsuzluğundan bəhs etməyə çalışırlar. Bir məsələni qeyd etmək yerinə düşərdi ki, son illərdə belə cəfəngiyatlara uymaqla özünü qərbli qadınlara oxşatmağa çalışan bəzi qızlarımız, analarımız «qərbləşmiş», «müasirləşmiş» milli dəyərlərdən qopmuşlar. Bu məsələlərə açıqlama gətirmək üçün bir sıra tarixi gerçəklərə, İslam-Türk qadınının keçmişinə aid müəyyən məqamlara diqqət yetirək. Kimdir qadın?- hər şeydən öncə ana adını

daşıyır bu uca yaradılış. Bəli, qadın ana. Ana olmuş qadınların ictimai mövqeyi daha ucadır. Ana qadın and yeridir. Hz. Peyğəmbərimizə (s.ə.v.) soruşurlar ki, öncə kimə etiram göstərək?-dedi: «Anaya», bəs sonra kimə? «Anaya», sonra kimə? «Anaya» yalnız dördüncü dəfə soruşduqda «Ataya» cavabını verdi. Bəli İslam Peyğəmbərinin qadına, anaya münasibəti çox yüksək idi. Heç təsadüfü deyil ki, Fəxri Kainat insanın arzusuna çatmaq istədiyi cənnətin anaların ayaqları altında olduğunu söyləyir. Yəni ki, kim anasına daha çox əyilərsə cənnətə bir o qədər yaxınlaşmış olacaq. Ərəbstanda Cahiliyyət dövründə ailədə və cəmiyyətdə heç bir hüququ olmayan, körpə ikən diri-diri torpağa bastırılan qızlar, kölə qadınlar islam dini nəticəsində ucaların ucasına yüksəldilər. Müqəddəs kitabımız Qurani-Kərim kişilərə qadınların haqqını tanımağı hökm edir: «...Kişilərin qadınlar üzərindəki haqları kimi qadınların da kişilər üzərində müəyyən hüquqları var...» (Bəqərə surəsi, ayə 228). İslamda qadın ucadır xüsusən ana-qadın. Tarixi məlumatlara, arxeoloji materiallara söykənərək demək olar ki, ərəblərdən fərqli olaraq türklərdə islamdan çox öncə qadınlar yüksək mövqeyə malik olmuşlar. Hər şeydən öncə qadına ana kimi böyük sayqı göstərilmişdir. Oğuzlarda «Ana haqqı tanrı haqqı» adlanır. O, ən yüksək məqamda dayanır. Evi yağmalanmış Qazan xan düşmən önünə gəlib deyir ki, bütün evimi, əhl-əyalımı, malımı dövlətimi gətirmişsən sənin olsun:

Qarıcıq anam gətürüb durursan, mərə kafir,
anamı vergil mana.
Savaşmadan, uruşmadan qayıdayım- geri dönəyim,
gedəyim, bəllü bilgil dedi (16, s.48).

Qazan xan hər şeyə, hətta xanımı Burla xatunun, oğlu

Uruzun düşmən əlində qalmasına razıdır, təki anasını qurtarsın.

Oğuz bəyləri ən çətin məqamda da xanımlarına yüksək hörmətlə yanaşırlar. Övladı olmadığı üçün Bayandır xanın məclisində mənəvi cəhətdən təhqir edilmiş Dirsə xan evinə qayıdarkən xanımına dərdini bildirərək belə müraciət edir.

Bəri gəlgil, başım bəxti, evim təxti!
Evdən çıqıb yeriyəndə səlvi boylum!(16, s.35)

Eyni münasibət digər oğuz bəyləri arasında mövcuddur. Bir cəhəti xüsusilə qeyd etməliyik ki, «Kitabi Dədə Qorqud»da ailələr monoqom olmaqla təknikahlılıq mövcuddur. Yəni çoxarvadlılıq yoxdur. Qadınlar ərlərinə daha sadiqdirlər, onların uğrunda canlarını fəda etməyə hazırdılar. Bu isə iki cəhətdən özünü göstərməkdədir- həyat yoldaşı və döyüş yoldaşı kimi. Yəni həyat yoldaşı bir çox halda əri ilə birgə döyüşə atılır onun qorunmasında, xilasında iştirak edir.

Ailədə qadın fədakarlığının ən böyük nümunəsinə Dəli Domrulla bağlı boyda rast gəlirik. Günah işlədib ölümlə üzləşmiş Dəli Domrula Əzrail təklif edir ki, canının əvəzinə can versə, yəni onun əvəzindən kimsə ölməyə razı olsa onun canı bağışlanar. Dəli Domrul ilk öncə atasına, sonra anasına müraciət edir. Hər ikisi eyni cavabı verirlər:

Dünya şirin, can əziz!
Canımı qıya bilmən, bəllü bilgil- dedilər?(16, s.81-82)

Əksinə vidalaşmaq üçün yanına gəlib, «yad qızı halalım» dediyi qadını:

Sənin ol müxənnət anan- baban
Bir canda nə var ki, sana qıymamışlar?
Ərş tanığ olsun, kürsi tanığ olsun,

Yer tanığ olsun, göy tanığ olsun,
Qadir- Tanrı tanıq olsun.
Mənim canım sənin canına qurban olsun!- dedi (16, s83).
Bəli, vəfalı qadın canından can bağışlamağa hazır olur.

Oğuz qadını təkcə ana deyil o bir döyüşçü, qəhrəmandır. Heç təsadüf deyil ki, oğuz igidləri özünə qadın axtararkən deyirlər ki, «Mən yuxudan durmadan o durmuş ola! Qara quc atına minmiş ola, baş kəsə, qan tökə»(). Bəli ər meydanında qadın ər istəyirdilər. Banuçiçək Beyrəklə sınasarkən, Selcanxatun Qanturallı ilə birgə düşmənə qarşı döyüşərkən, Burlaxatın Oğuz bəylərinin səfində Qazan xanı azad etmək üçün meydana atılarkən bunları sübut etmişlər. Bu yetənək oğuz- türk qadınına tarixin çox uzaq keçmişindən gəlirdi. İran şahı Kirin ordusunu məğlubiyyətə uğradıb, onu qanına qəltan edən Missaget hökmdarı Tomrisdən, ağlı ilə İsgəndəri ram edən Bərdə hökmdarı Nüşabədən gəlirdi bu hünər:
Məndə bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.(23, s.212)

Nüşabəyə mənəvi cəhətdən yenilən İsgəndər deyir:
Ey xanımlar xanımı qadın,
Qüvvətdə erkəkdən ucadır adın (23, s.217)

Türkün ulu babaları skif, sarmat, sak qövmlərində, amazankalarda qadınlar daha döyüşkən idi. Bu haqda Heredot yazır ki, skif-sarmat qadınları öz ərləri ilə, hətta təklikdə ova çıxır, hərbi yürüşlərdə iştirak edirlər. Evlənmə adətinə gəlincə düşmən öldürüb, baş kəsməyən qız ərə gedə bilməzdi.(53, s.215-216) Diqqət versək bu adət «Kitabi Dədə Qorqud»da Oğuz bəylərinin axtardığı qızlara da xasdır. Atasına necə qıza evlənmək istədiyini bildirən Qanturallı deyir: «Baba, çün məni evərəyim deirsən, mana layiq qız necə olur?" Qanturalı aydır: "Baba, mən yerimdən

turmadın ol turmış ola! Mən qaraquc atımabinmədin ol binmiş ola! Mən qanlu kafər elinə varmadın ol varmış, mana baş gətürmüş ola!"-dedi (16, s.85).

Mərkəzi Asiya, Sibir və Altay türklərinin yaşadıqları ərazidə tədqiqat işləri aparan A.D. Qrac arxeoloji materiallara əsaslanaraq Skif dövründə bu ərazilərdə qadınların çox yüksək mövqeyə malik olduqlarını göstərmişdir.(54, s.158-182)

Döyüşçü qadınların yüksək mövqeyə malik olduğunu sübut edən faktlara Naxçıvan ərazisində aparılmış arxeoloji qazıntılar zamanı da rast gəlinmişdir. 2004- cü ildə arxeoloq Bəhlul İbrahimovla birlikdə Xaraba Gilanda, Plovdağ adlanan ərazidəki qəbir abidələrində araşdırmalar apararkən döyüşçü (şahzadə) qadın məzarı aşkar edildi. Qəbirin böyüklüyü, qadının döyüş əsləhəsi, həmçinin müxtəlif muncuqlardan, tuncdan olan bəzəkləri ilə birgə dəfni onun yüksək nüfuzundan xəbər verirdi. Mərhumun sol çiynindən içərisində ucluğu dəvəgönü və çaxmaqdaşından düzəldilmiş 14 qarğ ox olan sadaq asılmışdır. Deməli, tarixiliyi, ənənəvi münasibətləri min illər boyu qoruyub saxlayan türk irqi qadına həm döyüşçü, həm ana kimi yüksək qiymət vermişdir. Azərbaycan türkünün ər və arvad haqqında dediyi bir ifadə var: «Həyat yoldaşı». Yəni həyatın bütün cəhətlərini bölüşənlər.

Qadınla bağlı bir məsələyə də münasibət bildirmək yerinə düşərdi- Ana südü məsələsi. Çox qədimdən ana südü uşağın bəslənməsində əsas vasitə hesab edilmişdir. İslam dinində uşağın ana südü ilə bəslənməsinə böyük önəm verilmişdir: «Əmizdirməni tamamlamaq istəyən üçün analar uşaqlarını iki il tam əmizdirərlər». (Qurani Kərim. Bəqərə surəsi, ayə 233) «Əgər anlaşa bilməsəniz uşağı başqa bir qadın əmizdirəcəkdir». (Talaq surəsi, ayə 6)

Yuxarıdakı ayələrdən görünür ki, körpələr 2 yaşı tamam olana qədər ana südü ilə bəslənməlidirlər. Bu ayələrin hökmünə söykənərək bir sıra araşdırıcıların, təfsirçilərin yorumlarına əsasən ana südünə böyük üstünlük verilməsinin səbəblərini belə xarakterizə etmək olar: hər şeydən öncə ana südünün tərkibi uşağın yaşına görə dəyişə bilir. Doğuşun ilk günlərindən ana südü daha qüvvətli olur. Bu süddə protein və təbii maddələr digər südlərə nisbətən daha çox olur. Xalq arasında «uşağın ağuzlanması» adlanan inama görə uşaq doğuşdan sonra ana tərəfindən əmizdirilmədikdə (ağuzlanmadıqda) sısqa olmaqla gələcəkdə hər cürə xəstəliklərə tutula bilir.

Ana südünün üstün xüsusiyyətlərindən biri onun yüksək təmizlik və mikrobsuz olmasıdır. Ana südü ilə müqayisədə digər südlər sağılarkən, bişirilərkən onlara mikrob qarışması, tərkibinin dəyişməsi ehtimalı çox böyükdür.

Xalq arasında ana südündən müalicə məqsədi ilə də istifadə edilir. Uşaqların gözü, qulağı ağrıyanda ana südü salınır. Onlar sancılandıqda yovşanın üstünə ana südü sağılır və uşağa verilir.

Ana südünün digər üstün xüsusiyyəti doqquz ay müddətində ana bətnində anadan qidalanan uşağın bu prosesi davam etdirməsidir. Ana südünün istiliyi bədən hərarətində olmaqla birbaşa qəbul edildiyindən heç bir dəyişikliyə uğramır.

Uşağın ana südü ilə bəslənməsinin ana və uşaq arasında gələcək münasibətlərdə, valideyin övlad sevgisində böyük rol oynayır. Qədim oğuzlarda övladın başına bir iş gəlsəydi anaya agah olardı:

Çıqsun bənim kor gözüm, a Dirsə xan, yaman səgrir.
Kəsilsün oğlan əmən süd damarım yaman sızlar.(16, s.38)

Oğuz igidlərinin ən böyük andlarından biri ananın südü idi. Anaya: «Ağ südünü əmdigim ana»- deyə müraciət olunurdu.

Ana südü halallıq rəmzi sayılırdı: «Ananın südü kimi halal olsun». Deməli ən böyük halal ana südüdür. Vücudun yetişdirdiyi əvəzsiz qidadır ana südü. Ona söymək, küfur etmək böyük günah sayılır.

Türklərdə ana südü o dərəcədə müqəddəs sayılıb ki, qız ərə verilərkən anadan əmdiyi südə bədəl (əvəz) olaraq oğlan evindən «süd pulu» (ana südünün halallığı üçün) alınıb. Bir sıra türk xalqlarında ana südü haqqı olaraq oğlan evi qız evinə ən yaxşı inək verərdi.

Naxçıvanda uşağın südünə oxşaması inamı vardır: «südünə çəkib». Ən yaxşı uşaqlar, xüsusən qız uşaqları haqqında «halal süd əmmiş», pis, yaramaz adamlarla bağlı işlədilən «südü xarab» ifadələri südün insanın formalaşmasında böyük rol oynadığını göstərir. Yaxşı xatırlayıram, ağsaqqallardan biri ilə söhbət zamanı bir uşaq salam vermədən yanımızdan keçib yaxınlıqdakı ağacın budağını qırdı. Ağsaqqal dedi: «Əhsən, südünə çəkibsən» soruşdum ki, südü deyəndə nəyi nəzərdə tutur? Cavab verdi ki, indikilərin çoxusu botuləməndir (yəqin ki, uşaqlara süd və digər duru yeməklərin verildiyi butulkanı nəzərdə tutub). Bu da inək südü ilə böyüyüb, mal kimidir. Yəni ana südü uşağın təkcə fiziki inkişafında, sağlamlığında deyil onda insani keyfiyyətlərin formalaşmasında da ciddi rol oynayır.

Bir incə məsələyə də münasibət bildirəcəyik. Yəqin ki, mənim yaşım da buna imkan verir. Bəzi qadınlar bədən quruluşlarını (xarici görünüşlərini) qorumaq üçün ana olmaqdan, uşaq əmizdirməkdən qaçırlar. Unudulmamalıdır ki, Allah qadını hər şeydən öncə ailə üçün, ana olmaq üçün yaradıb.

Ey keçici dünyada zahiri gözəllik və «fiqura» saxlamaq üçün körpələrini südlə qidalandırmayan analar! Bunun ucbatından Allahın uşaqlar üçün verdiyi neməti onların əlindən alırsınız, övladlarınıza qəsd edirsiniz, nəticədə gözləriniz önündə sısqa, həkimlərə möhtac uşaqlarınız böyüyür. Özünüzü nə qədər gözəl və fiquralı göstərməyə çalışsanız da bunlar zahiridir, ürəklərimiz sınıqdır. Məgər sizin gözəlliyiniz və fiquranız ailəniz üçün deyilmi?!

Buradaca ailədə uşaqların sayı məsələsi üzərində də qısaca dayanmaq istərdik. Keçmiş SSRİ-də bu problemlə bağlı müxtəlif elmi toplantılarda, müzakirələrdə iştirak edən bir araşdırıcı, həmçinin 5 övlad atası kimi məni bu problem çox narahat edir. Yaxın keçmişdə təbii artıma görə qabaqcıl ölkələr sırasında olan vətənimizdə indi ailədə uşaqların azlığı ilə bağlı ciddi problemlər yaranmaqdadır. Bir çoxları bunu iqtisadi amillər, tərbiyə prosesindəki çətinliklər ilə əlaqələndirməyə çalışırlar. Lakin təkcə iqtisadi cəhətdən deyil, bütün hallara görə imkanlı ailələrdə də uşaqların sayının azlığı (əsasən 1-2) belə düşünməyə imkan verir ki, bu daha çox «müasirləşmək», «mədəniləşmək» və s. amillərlə bağlıdır. Unutmayaq ki, bu Vətən, üzərində övladları yaşadıqca Vətəndir. Unutmaq olmaz ki, 2 övlad təbii artımı saxlaya bilməz. Belə getsə bir müddətdən sonra Avropanın bir sıra xalqlarının düçar olduqları təbii azalma problemi ilə üz- üzə qalacağıq.

Yenə bir haşiyə çıxmaq istərdim: 1986-cı ildə Moskva şəhərində keçirilən bir beynəlxalq konfransda ailə problemləri, o cümlədən ailədə uşaqların sayı məsələsi müzakirə edilirdi. Təbii ki, başlıca fikir, o cümlədən bizimdə 2+ idi. Bir övlad ideyası ilə kifayətlənənlər də vardı ki, onlar öz fikirlərini müxtəlif iqtisadi- mənəvi-psixoloji amilərlə əsaslandırmağa

çalışırdılar. Bir qadın çıxış edib dedi ki, bir uşaq ailənin və cəmiyyətin hər an fəlakətlə üz-üzə durmasıdır. O bildirdi ki, mən bu fəlakəti yaşamışam, yeganə övladımızı 26 yaşında itirdikdən sonra biz övladsız qaldıq. Fikirlərini psixoloji cəhətdən bu əsaslandıran müəllif bir uşağın böyüdülməsinin nə qədər çətin olduğunu, adicə xəstələnəndə nə keçirdikləri, mənəvi düşkünlüyü anlatdı. Bəli bu bir həqiqətdir ki, müasir tələblər səviyyəsində çox uşaq böyütmək çətindir. Amma nə dərəcədə çətin olsada keçmiş illərlə müqayisədə cəmiyyətimizin maddi və mənəvi cəhətdən inkişafı göz önündədir. Ulularımız gəlinlərimizə 7 oğul 1 qız istəyib. Biz isə bu Vətənə sahib çıxmaq, insanlığı, milli kimliyimizi qorumaq, gələcəkdə də millət kimi var olmaq üçün 2+ tərəfdarıyıq. İstərdik ki, bu ən azı 2+1 və daha çox olsun.

Müasir tibb elmi sübut edir ki, uşaq əmizdirən, uşaqlarının sayı bir neçə olan qadınlarda döş xərçəngi digərlərinə nisbətən az müşahidə edilir. Ümumiyyətlə uşaq əmizdirmənin ananın sağlamlığına müsbət təsiri ilə bağlı çoxlu faktlar mövcuddur. Təbii ki, bütün halları ilə analar ucaldılır, qadınlar cəmiyyətin yüksək varlıqlarıdırlar.

Fikrimizi böyük Hüseyn Cavidin «Peyğəmbər» əsərində söylədiyi sözlərilə bitirmək istərdik:

Qadın gülərsə bu issız mühitimiz güləcək (18, s.48)

## 2.3. UŞAQLARIN ƏNƏNƏVİ TƏRBİYƏSİ MƏSƏLƏSİ

Uzun illər ailə məişət münasibətləri ilə məşğul olduğumuzdan bu problem daim diqqət mərkəzimizdə olmuşdur. Qeyd edək ki, biz məsələni bütün yönləri ilə araşdırmağa çalışmışıq. Bu öz əksini namizədlik dissertasiyasında, nəşr

edilmiş kitab və məqalələrdə tapmışdır. Bir sıra müəlliflərin də etiraf etdikləri kimi ailə və uşaq məsələsi sahəsində apardığımız işlər Azərbaycan etnoqrafiyası üçün ilkinlərdən biri idi. Çox təəssüf ki, onların müəyyən hissələrini ayrıca olaraq nəşr etdirmədik. Allah qoysa, müqayisə məqsədi ilə son 30 ilə aid materiallar toplayıb kitab halında nəşr etdirməyi nəzərdə tuturuq. Uzunmüddətli müşahidələrimiz, toplanmış çol materialları sübut adir ki, XX yüzilliyin ikinci yarısından başlayaraq uşaqların ənənəvi tərbiyəsi ailədə onların sayı məsələlərində müəyyən problemlər yaranmağa başlandı. Bu hal son dövrlərdə daha da kəskin xarakter almışdır. Unudulmamalıdır ki, ailədə uşaqların sayı, onların milli ruhda tərbiyəsi fərdilikdən çox sosial məsələdir. Özgə sözlə desək ailə və uşaqlar dövlətin himayəsində olduğu üçün rəsmi dövlət problemidir. Çünki, uşaqlar bir ölkənin gələcəyinin, millili kimliyinin karantıdır.

Bütün bunları nəzərə alaraq biz problemlə əlaqəli müəyyən aktual məqamlara diqqət yetirməyi qarşıya məqsəd qoyduq. Məsələni aktuallaşdıran şərtlərdən biri də son dövrlərdə müxtəlif yollarla məişətimizə yad elementlərin daxil olmasıdır. Bəzən qloballaşma. "mədəniləşmə", müasirləşmə və s. bu kimi adlarla ailə-məişət münasibətlərimizdə transformasiyalar, daha dəqiq desək yadların düşüncə tərzinə meyillilik artır.

Araşdırmalar göstərir ki, tarixi inkişafda xalq özünütərbiyə, tərbiyə və qarşılıqlı tərbiyə sahəsində böyük təcrübə əldə etməklə tərbiyənin müxtəlif prinsiplərini hazırlamışdır. Xalq tərbiyə məsələlərində heç bir yazılı məlumatdan, kiminsə irəli sürdüyü nəzəriyyə, üsul və digər vasitələrdən istifadə etməmişdir. Bunun özəyi, aparıcısı adətlər, yasaqlar, inamlar və s. cəhətlər olmuşdur. Nəsillərdən keçib gəlmiş

etnosun xüsusiyyətlərini özündə cəmləşdirməklə tam sintez olunmuş xalq tərbiyə prinsipində yığcamlıq və konkretlik daha çox nəzərə çarpır. Ənənəvi tərbiyə üsulunun əsas cəhəti onun ümumxalq xarakteri daşımasıdır.

Cəmiyyətin və dövlətin özəyi olmaq etibar ilə ailə bir sıra funksiyaları yerinə yetirməlidir ki, bunlardan ikisi birbaşa uşaqlarla bağlıdır: 1. Ailənin uşaq (nəsil) artırma funksiyası; 2. Ailədə uşaqların tərbiyəsi.

Çox qədim zamanlardan Azərbaycan türklərində uşaqların ənənəvi tərbiyəsi məsələsinə xüsusi diqqət verilmişdir. Uşaqların fiziki inkişafında bir sıra amillərlə yanaşı, milli uşaq oyunları, müxtəlif yarışlar (güləş, at çapma), təsərrüfat fəaliyyəti, qızlar üçün evdarlıq başlıca rol oynamışdır. Həmin oyunlar, yarışlar və təsərrüfat fəaliyyəti uşaqların yaş xüsusiyyətinə uyğun olaraq həyata keçirilmişdir. Milli tərbiyə məsələlərində uşaqların cinsə görə fərqlənməsi mövcud olmuşdur.

Uşaqların əmək tərbiyəsinə erkən yaşlardan başlayırdılar. Hələ 3-5 yaşlarında onlara kiçik işlər gördürməyə, müəyyən şeyləri aparıb-gətirməyə öyrədirdilər. Həmin dövrdən başlayaraq uşaqlara çox ciddi yanaşır, onlara müxtəlif vərdişlər aşılayırdılar. Ümumi davranış qaydaları: süfrə başında oturmaq, oyunlarda iştirak etmək, yaxşını pisdən seçmək, qohumları tanımaq, sərbəst soyunub–geyinmək, yuyunmaq, düzgün danışmaq və s. öyrədilirdi. Bu mərhələdə uşaqların tərbiyəsində əsas rolu ailə oynasa da, uşağın digər uşaqlarla ilkin şüurlu münasibəti onlarda yoldaşlıq, dostluq, kollektivçilik (xüsusən oyunlarda) ruhları aşılayırdı. Bu yaşda uşaqların cinsə görə fərqlənməsi nəzərə çarpmırdı.

6-7 yaşından başlayaraq oğlan və qız uşaqlarının tərbiyəsində fərqlər yaranır. Qızların tərbiyəsi ilə ayrıca məşğul

olmağa oğlanlara nisbətən tez başlanırdı. Qızlar kiçik bacı-qardaşlarına baxır, yüngül qablarda su gətirir, həyəti süpürür, süfrənin hazırlanması və s. bu kimi işlərdə analarına kömək edirdilər. Sonrakı yaş mərhələsində qızlara paltar yumaq, xörək hazırlamaq, yamaq qoymaq (tikiş tikmək), müəyyən qadağan sistemləri, «yaşınma» adəti öyrədilməyə başlanırdı. Onlar çöl-tarla işlərində, mal-qaranın sağılıb əmizdirilməsində iştirak edirdilər.

10-14 yaş mərhələsində qızlar müxtəlif işləri müstəqil yerinə yetirməyə başlayırdılar. Yaşlılardan soruşmadan yemək hazırlayır, evi yığışdırır, heyvan sağmağı, süd məhsulları hazırlamağı öyrənirdilər. Bütün bu işlər ümumi şəkildə «biş-düş» adlanırdı. Bu yaşda qızlar toxuculuq, təndir yandırmaq, çörək yapmaq (bişirmək), və s. ilə məşğul olurdular. Bu işlər çoxlu qüvvə tələb etdiyindən qonşu və qohumlar bir-birlərinə kömək edirdilər. Qız uşaqlarının fiziki, əmək tərbiyəsindən çox əxlaq tərbiyəsinə xüsusi diqqət verilirdi. Onlara məclisdə, ailədə özünü necə aparmaq, yaşlı nəslə münasibət, qonaq qarşılayıb-yola salmaq və s. öyrədirdilər. Qızın hərtərəfli formalaşmasını «qızlar bulağından su içmək» lə əlaqləndirirdilər. Qızlar haqqında tez-tez deyilən «qoy qızlar bulağından su içsin gör nə qız olacaq?» ifadəsi də bununla bağlıdır. Bu belə izah olunur: Keçmişdə bulağa getmək ən çox qız uşaqlarının və gəlinlərin işi hesab edilirdi. Onlar orada qab, paltar yuyar, su gətirərdilər. Burada qızların söhbət məclisi olardı. Kiçik yaşlı qızlar onlara yaxın getməzdilər. Bulağa gedən qız geyiminə, səliqəsinə xüsusi diqqət yetirirdi. Belə qızlar həddi-buluğa çatmış hesab edilirdi. Naxçıvanda ən yaxşı qızlar haqqında indi də deyirlər: «Biş-düş, yer-yurd bilən, ədəb-ərknalı, abır-həyalı, sünbülündən su daman qızdır». Bu ifadələr

ümumi şəkildə hərtərəfli tərbiyə görmüş mənasındadır.

Oğlan uşaqlarının əmək tərbiyəsinə 7-8 yaşından başlayırdılar. Onlar mal-heyvanın suvarılması, örüşə aparılması, tövlənin təmizlənməsi, torpağın əkin üçün hazırlanması, suvarılması, qış odununun hazırlanması və s. işlərdə yaşlılara kömək edirdilər.

Uşaqların əmək tərbiyəsi zonalar üzrə fərqlənirdi: düzən zonada daha çox əkinçilik, dağlıq zonada maldarlıq adətləri, qaydaları mənimsənilirdi. Sənətkar, xırda alverçi (çərçi) ailələrində oğlan uşaqları bu sahəyə alışdırılırdı. Heç təsadüfi deyil ki, 30-cu illərə qədər Naxçıvanda adları çəkilən işlər ənənəvi xarakter daşıyırdı. Yəni dəmirçinin oğlu daha çox dəmirçiliklə, dəlləyin oğlu dəlləkliklə, papaqçının oğlu-papqçılıqla və s. məşğul olardı.

Araşdırmalar göstərir ki, valideynlər tərbiyə məsələlərində daha çox ənənəvilik prinsiplərinin qorunmasına əmək tərbiyəsinə, uşaqların mənəvi, fiziki inkişafına xüsusi diqqət yetirmişlər Oğlan uşaqlarına mərdlik, vətənə məhəbbət, silahdan istifadə etmək, at minmək və s. bu kimi cəhətlər aşılayırdılar.

Uşaqların tərbiyəsində, onların fiziki və zehni inkişafında müxtəlif oyunlar başlıca yer tuturdu. Oyunlar uşaqların yaşına uyğun qurulurdu. 7-8 yaşlı uşaqların oyunları cinslərə görə fərqlənmirdi. Bu yaşda daha çox «Evcik-evcik», «Siçan-pişik», «Bənövşə», «Qəcəmə-daş» və s. sadə oyunlar oynanırdı. Sonrakı yaş mərhələsində oğlan uşaqları daha çətin oyunlar oynayırdılar ki, qızlar belə oyunlarda iştirak edə bilmirdilər. Oğlanların oyunlarında meydan əsas yer tuturdu. Oyunlarda istifadə edilən başlıca alətlər: daş, ağac, qayış, top, ip, atla bağlı oyunlarda at və s. idi.

Oğlan uşaqları qızlardan fərqli olaraq 7-8 yaşından

başlamış müxtəlif meydan oyunlarında iştirak edirdilər. Belə meydanlar məhəllənin və ya kəndin mərkəzində, kişilərin toplaşdığı yerdə olurdu. «Qayışa girmə», «Cızığa salma», «Atlardan kimin atı», «Kavur, Saleh, Mindilli» və s. bu kimi oyunlar uşaqlarda dözüm, mətanət, kollektivin mənafeyini güdmək kimi mühüm cəhətlər aşılayırdı. Hərbi oyunu xatırladan «Qalaşəngi», «Ölü yerinə girmə» və s. onlardan strateji mövqe tutmaq, taktiki keyfiyyətlər tələb edilirdi.

Uşaqların zehni inkişafında «Yerüstü şahmat», «Cızığa düzmə», «Lağ-lağ» kimi oyunlar mühüm rol oynamışdır. Şeir forması sözlərlə müşayət olunan oyunlar isə fiziki hazırlıqla yanaşı, nitq mədəniyyətinin inkişafına böyük təsir göstərirdi: «Əzəli başdan gərək», «İllə-illə», «Hostana» və s. bu tip oyunlardandır.

Oğlan uşaqlarının zehini və fiziki inkişafında, milli vətənpərvərlik tərbiyəsində, mənəvi münasibətlərin formalaşmasında böyük əhəmiyyət kəsb edən meydan oyunları və meydan münasibətlərindən ayrıca olaraq bəhs etmək istərdik.

Yekun olaraq demək olar ki, son dövrlərdə, xüsusən XX yüzilliyin 70-ci illərindən başlayaraq bir sıra milli uşaq oyunları unudulmuş, uşaqların tərbiyəsində milli etigetlər xeyli zəifləmişdir. Bunları bərpa etmək, tərbiyədə milliliyin qorunub saxlanması məqsədi ilə etnopedaqogika, ailə pedaqogikası, milli uşaq oyunları, uşaq folkloru ilə bağlı tədqiqatların genişləndirilməsinə böyük ehtiyac vardır.

## 2.4.MEYDAN: FİZİKİ VƏ MƏNƏVİ TƏRBİYYƏ MƏRKƏZİ

Biz digər məsələlərdə olduğu kimi meydanla bağlı araşdırmalarda da uzun illərin yaddaşına, tarixi Naxçıvan ərazisindən toplanmış etnoqrafik çöl materiallarına, onların tarixi mənbələrlə qarşılaşdırmalarına əsaslanmışıq. 40 ilə yaxındır bir ucu Səlimin gəldiyi, bir tərəfi Bazarçay dərəsi gəzib dolaşırıq ulu türk yurdu Naxçıvanı, tarixən ona bağlı olan bölgələri. Yaxşı xatırlayıram, bir zamanlar mənim tədqiqata ilk başladığım illər idi, tanınmış etnoqraf Teymur Bunyadov dedi ki, Qadir, Naxçıvan etnoqrafiyası tam açılıb yığılmamış pambıq tarlasına bənzəyir, o, vaxtında yığılmasa tökülüb məhv olacaqdır. Sonra əlavə etdi ki, bizlər buralara ara-sıra gəlirik. Bu işlər sənin öhdəndə qalacaq. Zəngin material var, onları toplayarkən heç nəyi unutma. Tədqiqat sahənlə yanaşı imkan daxilində xalqla bağlı hər şeyi topla. Beləcənə, bu yurdun qədim yaşayış məskənləri, adəti, inamlar sistemi, əhalinin məşğuliyyəti, ümumiyyətlə, maddi və mənəvi mədəniyyətinin müxtəlif sahələrinə aid zəngin material toplandı. Ən zəif araşdırdığımız sahələrdən biri uzunömürlülük məsələləri idi ki, 1984-cü ildə Ümumittifaq səviyyəli ekspedisiyanın tərkibində bu sahədə də geniş araşdırmalar apardıq. Nəticədə təklikdə və o dövrün tanınmış demoqrafı V.İ.Kozlovla birlikdə Naxçıvanda uzunömürlülüklə əlaqəli bir neçə yazımız nəşr edildi.

Çöl materiallarının toplanmasında 1982-ci ildə Sisyan, 1983-cü ildə Dərələyəz bölgələrinə etnoqrafik səfərlərimiz xüsusi yer tutmuşdur. Məhz bu səfərlər nəticəsində tarixi Naxçıvanla əlaqəli geniş materiallar əldə edildi. Araşdırmaların əsas istiqaməti ailə məişəti, qədim inamlar sistemi, etnik

kimlik məsələləri olsa da ara-sıra ənənəvi tərbiyə, milli uşaq oyunları, xalq pedaqogikasına aid məqalələr də nəşr etdirdik(17, s.18-20; 51, s.106-107; 52, s.38-39). 1983-cü ildə Moskva şəhərində müdafiyə olunan «Azərbaycanlılarda müasir ailə məişəti» (Naxçıvan materialları əsasında) adlı dissertasiya işinin "Uşaqların doğulması və tərbiyəsi ilə bağlı adətlər, inamlar" adlı yarım başlığında bu məsələ geniş təhlil edilmişdir. Sonrakı illərdə ailədaxili münasibətlər, uşaqların fiziki və zehni tərbiyəsi, milli uşaq oyunları ilə əlaqəli keçirilən bir sıra konfranslarda məruzələrlə çıxışlar etmişdik. Beləliklə, özümüz də fərqində olmadan, o dövrdə SSRİ-nin ayrı-ayrı şəhərlərində nəşr edilmiş yazılar diqqəti cəlb etmiş, hətta «Советская этнография» jurnalının 1985-ci il sayında Naxçıvan Elm Mərkəzində, bizim rəhbərliyimiz altında bu sahədə geniş araşdırmalar aparıldığı yazılmışdı.

1985-ci ildə Moskvada milli uşaq oyunları ilə əlaqəli «Игры народов СССР» adlı kitab yüksək tirajla nəşr edildi və Moskva şəhərində keçirilən Beynəlxalq Kitab Yarmarkasında gümüş mükafata layiq görüldü. Kitabda bizim də məqaləmiz nəşr olunmuşdu (50, s.175-179). Mükafatdan müəlliflərdən biri kimi müəyyən miqdar da mənə düşdü. Bütün bunların nəticəsində mən 1986-ci ildə SSRİ Pedaqoji Elmlər Akademiyası Tərbiyənin Ümumi Problemləri institutunda Xalq Oyunları Şurasının, 1992-ci ildə isə Rusiya Xalq Pedaqogikası Assosiasiyasının üzvü seçildim. Bunlar keçici və keçmişdə qalan idi. Ən başlıcası isə zaman keçdikcə əlimizdə etnoqrafiya elminin müxtəlif sahələrinə aid zəngin materiallar toplandı ki, onun müəyyən hissəsindən müxtəlif kitab və məqalələrin yazılmasında istifadə etsək də çoxu xammal olaraq qalır. İndi çöl dəftərlərini vərəqlədikcə yazılması nəzərdə tutulan, müəyyən hissəsi işlənib yarımçıq

qalmış, özgə sözlə desək ipə-sapa düzülməmiş nə qədər yazılar var. Hərdən düşünürəm, neçə ki, ömür aman verib, onları işləyib nəşr etdiriməliyəm. Bu yazıda milli-mənəvi dəyərlərimizdə xüsüsi yer tutan, uşaqların ənənəvi tərbiyəsində, fiziki inkişafında ciddi rol oynayan, yaşlı nəslin yaddaşını təzələyən bir məsələdən-oyun və əyləncələrin keçirildiyi meydandan bəhs etmək niyyətindəyik. Çoxlarının adını eşitdiyi, mahiyyətinin duymadığı meydan məhfumundan. O meydandan ki, tarixin alt qatında yaranıb.

Ulu Daş çağından başlanır türk yurdu Naxçıvanın nağılı, söyləntisi, hələ qələmə alınmamış çox sayda rəvayətləri. Bu yurdda hər şey meydandan keçərdi-söz meydanı, hünər meydanı, namus, ar meydanı. Nə qədər meydan var idi?! Bu yurdun özü bir meydan idi. Bütün məsələlər bu meydanlarda həll edilərdi, kənardan gətirilən meyvə-tərəvəz, digər mallar da onlarda satılardı. Uşaqlar alverçilərin dalıca qaçıb, uca səslə yemişsatan, armudsatan gəldiyini car edərdilər. Onların da öz maraqları, nə isə almaq istəkləri var idi. Əyinlərində bir qədəh tuman və ya aşırmalı şalvar olan, isti günəşin altında yanıb yaxılmış bu oğlan uşaqları öz aləmlərində idilər. Böyük kəndlərdə hər məhəllənin öz meydanı vardı. Bir baş meydan da var idi-kənd meydanı. Bəzən məhəllənin və ya məscidin adı ilə tanınardı bu meydanlar. Meydanın özünəməxsus qanunu mövcud idi. Ora daha çox yaşlılar, müxtəlif oyunlar oynayan uşaqlar toplaşardılar. Onların ən sıx vaxtı çöl-tarla işləri azalanda idi. Elə ki, təsərrüfat işləri başladı meydanlar yaşlılara və uşaqlara qalardı. İşini bitirən bura gələrdi, dərdləşib söhbətləşərdi. Yaşlılar meydana nəzarət edərdilər. Əmək qabiliyyəti olan kişilər ora çox gəldikdə ağsaqqallar onları məzəmmətləyər və deyərdilər: «Sənin işin-gücün yoxdur,

nə avaralanırsan? Get işinin dalınca». Maraqlıdır ki, eyni münasibət məktəbli uşaqlara da aid idi. Yaşlılar onlardan da soruşardılar: «Sən dərslərini oxumusan?». Bəzən uşaqları sual-cavaba tutardılar. Ümumiyyətlə ailələrdə bu məsələlərə xüsusi diqqət verilərdi. Bir qayda olaraq oyunlar uşaqların boş vaxtllarında keçirilərdi. Sonralar meydanın bu xüsusiyyəti itdi. Onların bir çoxu ordakıların dili ilə desək «vaxt öldürmək» yerinə çevrildi. Keçmişdə meydanlar hamıya, daha çox yaşlılara, hətta ailəli cavan oğlanlara aid idi. O dövrdə bizim əmi, dayı deyib yenilməz, qorxmaz, hər şeyi bilən saydığımız bu mərdlər müxtəlif oyunlar oynayardılar. Meydanlarda «Qalaşənki», «Cızığa salma», «Şöküdü», hər bölgədə müxtəlif adlarla bilinən aşıq oyunları xüsusi yer tuturdu. Min illərdi ki, oynanırdı bu oyunlar. Qədim yaşayış məskənlərindən aşkar edilmiş çoxlu aşıq nümunələri bu oyunun İlk Tunc dövründən, bəlkə ondan əvvəl də bəlli olduğunu göstərir. Aşıq oyunları mövqe tutma, strateji, taktiki müdafiə, hücum kimi davam edərdi. «Kitabi-Dədə Qorqud»da da belə idi, XX yüzilliyin 60-cı illərində də. Özgə sözlə desək, aşıq oyunları ən azı beş min il bu ənənə mövcud olmuş, nəsillərdən-nəsillərə ötürülərək yaşadılmışdır. «Kitabi-Dədə Qorqud»da Buğac meydanda aşıq oynayarkən buğanı öldürüb Buğac adını alır(16, s.36). O təkcə Buğac adını almır. Bir anda aşıq oynamaqdan bəyliyə keçir, hakimiyyət qazanır. Oğuz bəyləri yığınaq olub el ağsaqqalı Dədə Qorqudu çağırırlar ki, gəlib ona yeni görəv, status versin, «sənin aşıq oynaman bitmişdir, ərlik, ərənlik, bəylik, igidlik məqamın başlamışdır» desin.

Hey Dirsə Xan! Oğlana bəylik vergil,
Təxt vergil-ərdəmlidir!
Boynu uzın bədəvi at vergil,

Binər olsun, hünərlidir!
Ağ ayıldan tümən qoyun vergil,-
Bu oğlana şişlik olsun, ərdəmlidir!
Qaytabandan qızıl dəvə vergil bu oğlana,
Yüklət olsun, hünərlidir!
Altun başlu ban ev vergil bu oğlana,
Kölgə olsun, ərdəmlidir!
Çigin quşlu cübbə ton vergil bu oğlana,
Geyər olsun, hünərlidir! (16. s.36).

Beləcə, yeni hakimiyyət, idarə üsulu yarandı, bir bəy də taxt sahibi oldu. Könlüm istər ki, bu kiçik bədii hissədə olan mənaya bir az yer ayırım. Allahım! Bu millət nə qədər zəngindir. Cəmisi bir neçə sətirdən ibarət olan nümunədə nələr yoxdur?! Bəylik vermək, idarə sisteminə malik olmaq, bir statusdan digərinə keçmək, sərbəst məşğuliyyət sahələri-maldarlıq (qoyunçuluq) yaratmaq, bədəvi ata, ticarətin, yükdaşımanın inkişafı üçün dəvəyə malik olmaq, yeni el, oba qurmaq, idarəçilik üçün saray, nəhayət türkün hakimiyyət rəmzi, tamğası olan quşlu cübbə vermək. Oğuz igidlərinə, alpanlarına diqqət versək onların özlərinə məxsus qiyafələri, atları var: Al məxmuri şalvarlı, atı bəhri qotazı Qaragünə oğlu Qarabudaq, qurqupma quşaqlı, qulağı altun küpəli Qazlıq qoca oğlu bəy Yegnək, altmış ərkəc dərisindən kürk eləsə, topuqlarını örtməyən, altı ökəc dərisinən külah etsə qulaqlarını örtmiyən, at ağızlı Aruz və s. Bəylər geyimləri, qiyafələri, atları ilə tanınardılar. Hər şey meydanda həll olardı. Bu meydan min illər mövcud olmuşdu, aşıq da həmin aşıq idi: Qurğuşunlu səqqə, zelaf, sürtuk (sürtülmüş), cünük, duruşqul, məməli, yaşıl, qırmızı, sarı, hər cür boyaqlı aşıqlar. Onlar da oynadı, biz də, ustad Şəhriyar da:

Bu damlarda çoxlu cızıq atmışam,
Uşaqların aşıqların udmuşam,
Qurğuşunlu saqa alıb satmışam (21. s.51).

Ustadın evin üstündə aşıq oynadığı bəlli olur. Naxçıvanda da evlərin üstü dam adlanır. Aran bölgələrində qışda qar az olduğundan uşaqlar məhəllə meydanlarını təmizləyib orada oynayırdılar. Dağ kəndlərində isə evlərin üstü, damı təmizlənər və orada oynayardılar. Bu təbii-coğrafi şəraitlə də əlaqəli idi. Dağ kəndlərində ənənəvi evlər, köməkçi tikillər dağ yamaclarında salınmaqla arxası yer səthi, yəni dağın, təpənin yamacı ilə eyni səviyyədə olurdu. Bir çox halda bir evin damı digər evin həyəti idi. Ona görə də uşaqlar evlərin, tövlələrin üstündə oynayardılar. El arasında deyirdilər: «Aşığı oynamaq üçün yığarlar, pulu xərcləmək». Nağıllarımızda, el arasında həddi buluğa çatmayan, evlənmək haqqı qazanmayanlara «hələ onun aşıq oynayan vaxtıdır» deyirdilər. Evlənməyi haqq etməyən oğlana istədiyi qız tərəfindən aşıq göndərilməsi adəti də olmuşdur. Yəni, sənin hələ aşıq oynayan vaxtındır... Aşıq oyunları ilə əlaqəli İ.Əliyevin «Azərbaycan etnopedoqogikası» kitabının «Aşıq-aşıq» oyunları bölümündə geniş məlumat vardır ( 13, s.203-223).

Bu meydanda çox oyunlar, oyunçular, meydan sulayanlar olub. «Cızığasalma», «Atlardan kimin atı», «Mola haray», «Mozu-mozu», «Eşşəyinə arpa ver», «Hostana», «İp sürütləmə», «Əzzəli başdan gərək», «Qayışagirmə», «Dirədöymə», «Ciqərəqatma», burada adını saya bilmədiyim, xatırladıqca bizləri uşaqlığımıza aparan, bir zamanlar el-el, oymaq-oymaq gəzib dolaşdıqca topladığım çox saylı oyunlar oynanıb.

Oyunlar uşaqların fiziki gücü, mənəvi dünyası idi. Onlar cinsə və yaşa görə fərqlənərdi. Hər şey evdən, təndir başından,

kürsüdən başlayardı. Burada oynanardı, «İynə-iynə», «Əlimi siçan dişlədi», «Siçan-pişik», «Atam-babam güney bacı», «Ya bundadır-ya bunda», «Yaşıl muncuq kimdədir», «Gizlən-qaç» («Gizlən-parç»), nə qədər incə, kövrək düşüncə tələb edən, cins bilməyən, evlərdə, həyətlərdə oynayıb tədricən meydana getmək hüququ qazandıran oyunlar və oyunçular. Bu oyunların hər birinin öz aləti vardı. Hamısı da ətrafda, yerli idi: daş, ağac, sümük, ip və s. Kim isə düzəltməzdi bunları. Ancaq uşaqlar özləri edərdilər. Hər kəs çalışardı ki, onun aləti daha yaxşı olsun. Allahım! nə qədər lopik daş axtarardıq. Harada görsəydik həmin daşları evə gətirərdik ki, onlarla «Lopik daş», «Ciqərəqatma», «Pozma», «Yeddidaş» oynayaq. Meydana qaldırmaq üçün daş gətirilirdi. Uzağa daş atmaq, daşı dizə, quşağa, sinəyə və baş üstünə qaldırmaq. Hər hansı bir daşı müəyyən məsafəyə aparmaq. Daş həm alət idi, həm də oyun vasitəsi. Hər məhəllədə böyük dibək daşları vardı. Daşdan idi məhəllə çeşmələrinin hovuzları, başı bəzəkli, çərhovuzlu, novlu kəhrizləri, çeşmələri, meydanlar onların yanında idi. Çox oyunları ağacla oynayardıq. Az qala hər oğlan uşağının çilingi, ələyatan ağacı (tubuluğu) var idi. Ağacla daha çox iki oyun oynanardı: «Çilik-ağac», «İllə-illə». «Çilik-ağac» bütün Azərbaycan üçün xarakterik olmuşdur.

Bu xırmanda «aradanxır» oynardıq,
Comalaşıb qarışqatək qaynardıq,
Yavaş-yavaş baxçalara ağnardıq,
Ağaclardan çilik-ağac kəsərdik,
Qoruqçunun qorxusundan əsərdik. (21, s.51)

Ağaclarla qılınclaşma, arxaya qoyma və s. oyunlar da oynanardı.

Topla oynanılan oyunlar da var idi: «Topa girmə»,

«Ölü yerinə girmə» və s. O dövrdə indiki kimi alabəzək, müxtəlif formalı toplar yox idi. Boynumuzu çiynimizə qoyub analarımıza, nənələrimizə, bizdən böyük, tikiş tikmək bacaran bacılarımıza yalvarar, arxalarınca dolaşardıq ki, bizə bərk parçadan, palaz-paltar qırıqlarından top tiksinlər. Vay onda idi ki, uşaqlardan kiminsə rezin topu olaydı. Artıq, top oyununun təyinedicisi o, idi. Hər şey bir yana birdə baxırdın ki, o uduzanda, məğlub olanda topu götürürdü ki, topum cırılır. Yenidən özümüzün parçadan düzəldilmiş, böyüklü-kiçikli «toplarımıza» ümid qalırdı. Bunlar içərisində ən yaxşısı keçədən düzəldilən idi.

Oyunlar daha çox hərəkətli olmaqla uşaqların fiziki inkişafında əsas rol oynayırdılar. Lakin oyunların müxtəlif saymacalarla başlaması, bir sıra oyunlarda fiziki hərəkətin şifahi nitqə uyğunlaşdırılması uşaqların zehninin və nitqinin inkişafına ciddi təsir göstərirdi. Bu oyunlardan «Ocaq yandı, su qaynadı», «Ana məni qurda vermə», «İllə-illə», «Əzəli başdan gərək», «Lağ-lağ», «Atlardan kimin atı». At demişkən ustad Şəhriyarın:

Ay, özümü o əzdirən günlərim,
Ağac minib at gəzdirən günlərim (21.s.40).

Sözləri xatırıma gəlir və özümün də ağac minib at gəzdirməyim yadıma düşür. Atçılıqla bağlı çox şey vardı orada. Cilav (cilov) əvəzi ip, qamçı, simvolik olaraq atı bağlamaq, guya tərlədiyi üçün ona su verməmək. Ağac minib at gəzdirənlərin ağacdan qılıncları; gilənar, alça ağaclarından əyməsi, oxu, yayı, bərk ipdən, daha çox kirişdən olan kamanları var idi. Onlar özlərini süvari döyüşçülər kimi aparırdılar. Beləliklə, ilk ağac minmədən başlanardı meydanlarda at yarışı, mərd yarışı, qılınc qurşama, ox atma, vətəni, eli qoruma. At çapan özünü Koroğluya,

Babəkə, Cavanşirə, hər hansı nağıl qəhramanına bənzədirdi. «Atının» adı da milli idi: Qırat, Alapaça və s.

El meydanı xalqın tamaşa, yığıncaq yeri idi. Burada kəndirbaz, kosa-kosa, müxtəlif bayramlar, xanbəzəmə, pəhləvan oyunları keçirilərdi.

Meydanların ətrafında, damların, divarların və ya burada olan qarağac, narbənd, tut və çinar ağaclarının kölgələrində öz yerləri vardı məhəllə ağsaqqalarının. Onlar bu meydanların daimi iştirakçıları idilər. Yastı daşlardan, qısa ya uzun tirlərdən düzəldilmiş xüsusi yerlərdə əyləşər, oyunlara tamaşa edərdilər. Onu da xatırlayıram ki, ilin soyuq vaxtlarında daş üstə oturmazdılar, «daş yeldi, xəstəlikdi»- deyərdilər. Kişilərdən fərqli olaraq yaşlı qadınlar qonşuların birinin həyətində və ya məhəllə meydanının az hərəkətli olan bir yerində oturub söhbətləşərdilər. Hər qadının kiçik döşəkçəsi var idi. Döşəkçəsini götürdüsə deməli o harasa gedəsi idi. Beləcə davam edərdi qadın-qadına söhbətlər. Bir şey də maraqlı idi. Qadınlar elə-belə quru söhbət etməzdilər. Kimisi teşidə yun əyirər, kimi corab, əlcək toxuyar, kimi yun didər və s.

Kiçiklərin, oyunçuların işinə yaşlılar qarışmazdı. Çünki meydan özü hər şeyi öyrədirdi. Balacalar özündən böyüklərdən öyrənə-öyrənə gələrdilər bu meydanlara. Oyunda səhv etsəydilər sonra düzəldilərdi. Dəcəl, cığal oyunçular oyuna şuluq qatardılar. Bəzən arada savaş çıxardı. Ətrafdakı ağsaqqallardan biri kimliyini bilmədiyi uşaqlara «bir qulaqburması» verərdi, bununla da məsələ bitərdi. Atalar çox qarışmasalar da bəzən analar işə müdaxilə edərdilər. Amma ətrafdakılar, xüsusən qonşular: «Uşaqla-uşağın arasına girməzlər. Bu gün savaşarlar, sabah barışarlar»- deyib, aranı sakitləşdirərdilər.

Uşaq oyunları yaş dövrünə görə fərqlənirdi. Evdə, həyətdə oğlanlar qızlarla birgə «Qəcəmədaş», «Beş daş», «Gizlən-parc», «lağ-lağ», «Ciqerəqatma» və s. oynayardılar. Meydan oyunlarına gəlincə qızlar onda iştirak etməzdilər. Bir qayda olaraq meydan oyunları 10-12 yaşından sonra oynanılardı. Bu vaxtdan, bəzən daha erkən yaşlarda qızlar özləri oyunlar təşkil edərdilər. Əgər oğlanların oyununda daha çox hərəkətlilik, güc üstünlük təşkil edirdisə, qızların oyunlarında evdarlıq, gəlincik düzəltmə, «Qəcəmədaş», «Beş daş», «Dom-dom», «Yelləncək», «Fincan-fincan», «Bənövşə», «Gizlən-parc» və s. bu kimi oyunlar geniş yayılmışdı. Hələ erkən yaşlardan qızlar gəlincik düzəltmək, nənni (beşik) asmaq öyrənir, «Xala-xala», «Evcik-evcik» oynayırdılar. Bu oyunlarda isə qonaq qəbul etmə, xörək bişirmək, uşağa qulluq və s. əsas yer tuturdu. Nisbətən yuxarı yaşlı qızlar oğlanlara qoşulub oynayanda onları məzəmmət edərdilər. Eyni vəziyyət qızlara qoşulub oynayan oğlanlara aid idi. Beləəri «qız kimi», «qızbibi» adlandırılırdı.

Oyunlarda qaydalara ciddi əməl olunurdu. Güclünün zəifi incitməsi yol verilməz idi. Hər kəs öz tay-tuşu ilə oynayardı. Yaşlı uşaqlar kiçiklərə nəzarət edərdilər. Kollektiv oyunlarda dəstə marağı əsas idi. Dəstələrə isə daha aktiv, bacarıqlı olanlar rəhbərlik edərdilər. Uşaqlar arasında qovğa, dalaş olanda «birə bir deyiblər» prinsipi hakim idi. Bu məsələdə yaş fərqi və fiziki inkişafa da xüsusi diqqət verirdilər. Uşaqlar aralarındakı mübahisəni özləri həll edərdilər. Elə uşaqlar olurdu ki, onları oyuna buraxmırdılar. Beləəri «oyunpozan», «dəcəl (cığal)», «davakar» və s. adlanırdılar. O dövr üçün bu bir tərbiyə vasitəsi idi. Uşaqlar arasında oğurluq bağışlanmaz günah sayılırdı. Yoldaşlarının hər hansı bir əşyasını, aşığını oğurlayan uşağı oyuna qat-

mazdılar. Onu görən kimi uşaqların hamısı bir ağızdan: «Oğurçu, oğurçu» və ya «oğurçu bəndə, gəlmə bu kəndə» deyib qışqırardılar. Bəli, bu böyük tənbih idi.

Dəstənin sirrini, gizli adları digərlərinə bildirmək olmazdı. Beləlləri «satqın», «şeytan» adlandırılardı. Onlar gələn kimi «danışmayın, içimizdə şeytan var», açıq şəkildə «sən şeytansan» deyib oyuna buraxmazdılar. Bu fikir bütün kənd üçün hakim idi. Özünü təklənmiş hiss edən, kollektivdən qopmuş birinin söz verib, ən müqəddəs saydığına and içib, əməlindən əl çəkməkdən özgə çarəsi qalmırdı. Bu bir tövbə idi, el tövbəsi.

Oyun zamanı gücsüzün, zəifin qəlbinə dəymək, kiminsə qüsurunu üzə vurmaq günah sayılırdı.

Uşaqlar arasında məhəllə və həbə (mərkəz) təsübü var idi. Böyük kəndlərdə bir məhəllənin uşağı az halda digər məhəllənin meydanına gedərdi, orada oyun oynayardı. Bu məsələdə qonaqlar müstəsna idi. Əksinə, onların oynaması müsbət cəhət kimi qiymətləndirilirdi. Meydanı, həbəni qorumaqdan, məhəllənin qeyrətini çəkməkdən, buradakı oyunlarda qalib gəlməkdən başlayırdı vətən sevgisi, yurdun, torpağın müdafiəsi, ar, namus, böyük, kiçik məsələləri. Meydanlar təkcə oyun mərkəzi deyildi. Burada həll olunurdu bir sıra məsələlər, el şənlikləri, buradan alınırdı bütün məlumatlar. Böyük kiçikliyindən asılı olaraq meydanlar sənətkarlıq və ticarət mərkəzləri idi. Lazım gələndə bir yerdə dairə çəkib onu da meydan adlandırardılar. Meydanlar ictimai yerlər, əyləncə mərkəzi, el səhnəsi idi. Burada aşıqlar deyişər, bağlaşar, bir-birinin sazını alar, pəhləvanlar meydan sulayar, özlərinə qənim axtarar, biri digərinin kürəklərini yerə vurardılar. Ətrafa, divarların, evlərin üstünə toplanmış insanlar alqış deyərdilər. Ay! «Kitabi-Dədə Qorqud»da

Ağ adlanan meydanlar! Sizi çox ucuz, oyunçusu ola bilmədiyimiz, daha çox televizorlardan izlədiyimiz, bəzən özümüzü unudub qeyri ixtiyari bağırdığımız meydanlara, oyunlara dəyişdik. Meydanlar ağ olmazdı, onların üzünü igidlər ağardardılar. İki meydan sulayan var idi. Biri tozu, torpağı yatırmaq üçün meydan sulayanlar. Bu meydan sulamaq deyildi, meydana su səpmək idi. Digəri gərdiş edib, at oynadıb, söz qoşub, saz çalıb: «Ay! mənə qənim» deyib nərə çəkənlərin meydanı.

Zaman keçdikcə meydanların, oyun və oyunçuların xarakteri dəyişdi. İndiki uşaqlardan hansı oyunları oynadıqlarını soruşduqda məktəb proqramına daxil edilən oyunlardan savayı çox az oyunun adını saya bilirlər. Milli qəhramanların, nağıl qəhramanlarımızın yerini Şirek, Hörümçək adam, Benten, bizim adını bilmədiyimiz çoxları tutublar. Uşağın fərdi yaradıcılığı itib, oyuncaqlar millilikdən çıxıb, nəzarətsiz şəkildə, komputerdə yaşına uyğun olmayan müxtəlif oyunlar oynayan, lazım olmayan proqramları izləyən uşaqların fiziki, milli, mənəvi tərbiyəsində, sağlamlığında ciddi zədələnmələr baş vermişdir.

İndi də meydanlar, meydançalar var. Onların çoxu bizlərə doğma deyil. Çünki bizlər onun oyunçusu olmamışıq. Orada el adəti, ağsaqqal sözü, el qiyməti yoxdur. Qaydalar oyunçuların ixtiyarında deyil. Saymacası, halay-palayı, oyunçuların hər oyun üçün seçdikləri, idarə edə bilmədikdə həmən dəyişdirdikləri dəstəbaşılar, oyunlar və meydanlar yoxdu.

Düşünürük ki, bu gün milli uşaq oyunlarının müəyyən hissəsini bərpa etmək olar. Bunun üçün lazımi şərait mövcuddur. Bütün məktəblərimiz hər cürə meydançalara malikdir. İndi kəndlərimizin siması tam dəyişilmiş, onların geniş

mərkəzləri vardır. Ən başlıcası isə milli-mənəvi dəyərlərimizə, xalq yaradıcılığına, onların bərpasına, qorunub saxlanmasına hərtərəfli dövlət qayğısı mövcuddur. Bunu son illərdə Novruz bayramı və digər el şənlikləri ilə bağlı keçirilən mərasimlər də sübut edir. Belə şənliklər milli-mənəvi dəyərlərin, xalq yaradıcılığının canlı, əyani nümayişidir. Bizlər isə yaradılmış şəraiti düzgün qiymətləndərməklə mili mədəniyyətimiz, tarixi keçmişimizlə bağlı dəyərləri dərindən araşdırmalı, nümayiş etdirməli və günün tələblərinə uyğun şəkildə qoruyub saxlamalıyıq. Belə düşünürəm ki, yazı ilə çoxumuz keçmişə, uşaqlıq yaşlarımıza qayıtdıq.

Amma, meydanla, yurdla bağlı bir niskilim də var. Yazmasam, deməsəm olmur. Mən bu niskili 1982-ci ildə Sisyan bölgəsində, Bazarçay dərəsində, 1983-cü ildə Dərələyəz elində gəzərkən, material toplayarkən gördüm.

Əlqərəz, çox meydan gördüm bu eldə, bu obada, kimi soruşdumsa kənd meydanına get dedilər. Bu qarış-qarış gəzdiyim tarixi Naxçıvan bölgəsində belə idi. Bu gün içimiz yana-yana gözlərimiz önünə gətirdiyimiz Ağdü, Urud, Ərəfsə, Şəki, Kotanlı, Axta, Gömür, Kabıd, Zeytə, Ayı səsi, Qabaqlı, Qurtqulaq, Mehri, Kərki adı siyahıya sığmayacaq çox sayda kəndlərimiz, yurdlarımız. Min illər boyu cövlan etdiyimiz, əbəm deyib uğrunda vuruşduğumuz, tozu-dumana qatdığımız meydanlarımız olan bu yurdlarımızı qarı düşmən alıb gədəsinə verdi, gədədən ağa düzəltdi. Qorqud öyüdünü, «əski pambıq bez olmaz, qarı düşmən dost olmaz» deyimini, «türkün türkdən başqa dostu yoxdur» sözlərini unutduğumuz, birinə kirvə, digərinə naçalnik, yoldaş deyib süfrəmizin başında oturtduğumuz üçün başımıza bu bəlalar gəldi. Kəndbə-kənd dolaşıb gəzdiyim, indi yağı düşmən əlinə keçən yurdları, o meydanları andıqca yadıma nələr düşür.

Körpələrimiz o meydanlarda oynamadılar, ağac minib at çapmadılar. Qocalarımız meydanların ağsaqqallarına çevrilmədilər, kəndlərin mərkəzlərində qoyulmuş daş, ağac oturacaqlara yad əli dəydi. Meydan murdarlandı! İndi bu yerlərdə şeytan meydan sulayır. Amma qoca dünya özü də bir meydandır. Onda çoxları at oynadıblar, çox arxalı köpəklər qurd basıblar. Atalar deyiblər: «Meydan boş olanda, tülkü bəylik edər». Ey! Yurddaşsız yurdlar! Yetim qalmış meydanlar biz sizə qayıdacağıq! Bunun geci, tezi var.

## 2.5. MÜASİR MƏİŞƏT MÜNASİBƏTLƏRİMİZDƏKİ BƏZİ MƏSƏLƏLƏRİN GENEZİSİNƏ DAİR: "BİLQAMIS", «KİTABİ-DƏDƏ QORQUD» DASTANLARI İLƏ ORTAQ CƏHƏTLƏR

Biz bir sıra yazılarımızda, xüsusən Nuh peyğəmbər, Dünya tufanı, Türk Ata və Naxçıvanla əlaqəli sivilizasiyaların araşdırmalarımızda Şumer-Türk əlaqələrinə geniş yer vermişik. Əlimizdə olan dəlillər bu əlaqələrin tarixiliklə yanaşı müasir məişət münasibətlərimizdə, adət və inamlar sistemimizdə ciddi şəkildə qorunub saxlandığını sübut edir. Tarixi və elmi əhəmiyyətini nəzərə alaraq onları ayrıca olaraq araşdırmaq qərarına gəldik. Tədqiqat zamanı tarixiliyi, varislik məsələlərini ardıcıl olaraq izləmək üçün qədim dövr

("Bilqamıs" dastanı), ondan sonrakı çağ ( "Kitabi Dədə Qorqud" dastanı) və müasir münasibətlərin qarşılaşdırmasını əsas götürdük.

Tarixdə bir sıra məsələlərlə yanaşı qədim şumerlərin kimliyi ətrafında da ciddi elmi mübahisələr mövcuddur. XIX yüzilliyin ikinci yarısına qədər bu xalq haqqında elmdə

elə bir tutarlı məlumat yox idi. Lakin həmin əsrin 50-ci illərindən Mesopotamiyada aparılmış geniş arxeoloji qazıntılar, elmi axtarışlar Miladdan çox öncə yaranmış şumer mədəniyyətini aşkara çıxardı. Söhbət bizdən 4-6 min il əvvəl mövcud olmuş bir xalqdan gedir. O xalqdan ki, müxtəlif cəhətdən qədim türklərlə bağlılığı təkzibedilməz faktdır. Mesopotamiya ərazisində aparılmış arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi mədəniyyət nümunələrinin araşdırılması genetik bağlılıqla əlaqəli yeni fikirlər ortaya qoyur. Şumerlərlə bağlı ən böyük sensasiya 1872-ci ildə Corc Smit tərəfindən Assuriyanın mərkəzi Nineviya şəhərində aparılan arxeoloji qazıntılar zamanı əldə edilmiş gil lövhələrdən biri üzərində Dünya Tufanı ilə bağlı kiçik bir mətnin aşkar edilməsi oldu. Bir sıra dini kitablara, tarixi əsərlərə daxil olmuş Nuh tufanı ilə bağlı əfsanənin izləri görünməyə başlandı. Bu axtarışların nəticəsi olaraq Smit müəyyən etdi ki, tufan haqqında rəvayət qədim şumer qəhrəmanlıq dastanının bir hissəsidir.

Beləliklə, tarixə ilk bitkin əsər bəxş edildi və dastan dünyanın bir sıra xalqlarının dilinə tərcümə olundu. 1985-ci ildə İ.Vəliyev dastanın İ. Dyakonovun ruscaya tərcüməsindən Azərbaycan türkcəsinə tərcüməsini nəşr etdirdi (7). Maraqlıdır ki, hələ C.Smitdən, dastanın yüzlərlə tədqiqatçılarından çox öncə Azərbaycan türkləri arasında, xüsusən, Naxçıvanda Nuh tufanı, Nuhun gəmisi ilə bağlı rəvayətlər geniş yayılmışdır ki, bu da öz əksini bir sıra yazılı mənbələrdə, XX yüzillikdəki tədqiqat işlərində tapmışdır. Deməli, xalq soy kökü baxımından, genetik cəhətdən bağlı olduğu rəvayəti hələ yazılı mənbə aşkar edilməmişdən çox öncə özünün qan yaddaşında, nəsildən-nəsilə ötürməklə qoruyub saxlamışdır. Bu baxımdan rəvayət dünyanın digər xalqlarına nisbətən türklərlə daha

doğma və yaxındır. Bir faktı qeyd edək ki, son illərdə Naxçıvanda, xüsusən Gəmiqaya ərazisində aparılmış hərtərəfli araşdırmalar nəticəsində Dünya Tufanı, Nuhun gəmisi ilə bağlı yeni faktlar ortaya çıxmışdır. Lakin çox təəssüflə qeyd edilməlidir ki, Dünya Tufanının tanınmış tədqiqatçılarından sayılan ingilis etnoqrafı və din tarixçisi C.C. Frezer özünün fundamental əsəri «Folklor və Vetxom Zavete» kitabında dünyanın ən kiçik xalqlarında tufanla bağlı rəvayətlərdən bəhs etsə də, Azərbaycan ərazisində, ümumiyyətlə, türk dünyasında tufanla bağlı rəvayətlərdən söhbət açmır(86).

Yuxarıdakılardan belə görünə bilər ki, biz şumerlərlə bağlı bütün məsələlər ətrafında bəhs edəcəyik. Əsla yox! Sadəcə olaraq bu, ümumi fikir yaratmaq üçündür. Bizim isə başlıca məqsədimiz məişət münasibətləri, inamlar, adət-ənənələr baxımında şumerlərin türklərlə, xüsusən, Azərbaycan türkləri ilə yaxınlığını açıqlamaqdan ibarətdir. Araşdırmanın daha elmi, tutarlı olması, varislik ənənələrinin necə qorunub saxlanmasını dərindən öyrənmək məqsədi ilə kökləri çox qədim dövrlərlə səsləşən oğuz qəhrəmanlıq dastanı «Kitabi-Dədə Qorqud»dan, həmçinin etnoqrafik və folklor materiallarından istifadə edilməklə müqayisələr aparılmışdır.

«Bilqamıs» (dastan «Gilqamış» və b. adlarla da verilir) dastanı ilə bağlı tarixi araşdırmalar onun ən azı m.ö 2100-ci ildə gil lövhələrə köçürüldüyünü söyləməyə imkan verir. Lakin dastandan aydın olur ki, Bilqamısın özü başına gələnləri sal bir qayaya döymüşdür:

O hər sirri bilərdi, o hər şeyi görərdi.
Yeri su basmasından, bizə xəbər verərdi.
Uzun yollar dolaşıb, yorulub əldən düşdü.
Başına gələnləri sal bir qayaya döydü,
Sonra hasara alıb, adını Uruk qoydu (7, s.8).

Yuxarıdakılara əsaslanaraq dastanın orijinalının qaya üzərinə döyüldüyünü və lövhələrin isə üz köçürmə olduğunu söyləmək olar. Dastanın 1 lövhəsində onun cadugər Sin-Like-Unninin dilindən söyləndiyi göstərilsə də, əslində onun yaradıcısı Bilqamısdır. Dastan 12 lövhədən (müəlliflərin çoxusu lövhələri nəğmə kimi təqdim edirlər), hər lövhəni bir nəğmə hesab edməklə 12 nəğmədən ibarətdir. Uyğun olaraq deyək ki, «Kitabi-Dədə Qorqud» 12 boydan ibarətdir və boyları Dədə Qorqud düzüb qoşmuşdur. Hər iki dastanla tanışlıq Bilqamısla Dədə Qorqud arasında oxşarlığın olduğunu sübut edir. Yuxarıdakı parçadan aydın olur ki, Bilqamıs hər sirri bilərmiş. «Kitabi-Dədə Qorqud»un müqəddiməsində yazılır: «Rəsul Əleyhissəlam zamanına yaqın Bayat boyundan Qorqud ata diyərlər, bir ər qopdı. Oğuzın, ol kişi təmam bilicisiydi,–nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həq-təala anın könlünə ilham edərdi...»(16, s.31)

Xatırladaq ki, Bilqamıs dövründə tək tanrıçılıq olmadığından o ayrı-ayrı allahlarla əlaqəyə girirdi. Hətta dastanda o yarım Tanrı kimi təqdim edilir:

O insandır, yarıdan çoxu tanrıdır ancaq
Heç kəs ona tay olmaz-onun görkəminə bax.(7, s.9)

Bilqamısla Dədə Qorqudun taleyi arasında oxşarlıq özünü hər ikisinin daimi həyat axtarması süjetində də göstərir.

Dostu Enkidunun vəfatından canını ölüm qorxusu almış Bilqamıs əbədi həyat axtarmağa başlayır. Min bir müsibətdən sonra gəlib Utnapiştinin yanına çatır. Ondan soruşur ki, sən də əvvəlcə mənim kimi adam idin. İndi necə olub əbədi həyat qazanmısan? Utnapişti ona məsləhət görür ki, gərək altı gündüz, yeddi gecə yatmaya. Amma Bilqamıs dözə bilmir, onu yuxu tutur.Utnapişti arvadına deyir:

Adamlar yalançı olur!
O da səni aldadacaq.
Gəl ona sən çörək bişir,
Balışının yanına qoy,
Neçə gün yatacaqdırsa,
Hər gün divarda bir xətt oy! (7, s.93)

Deyilən kimi edilir. Yeddinci gün təzə çörəyin iyi vurub Bilqamısı oyadır. Arzusu yerinə yetməyən Bilqamıs geri qayıdarkən Utnapişti arvadının xahişini və Bilqamışın əziyyətini nəzərə alaraq gənclik çiçəyi haqqında sirri ona açır:

Bu çiçək dənizin dibində
Göyəmtək bitib boy atır,
Qızılgültək tikanlıdır,
Tikanları ələ batır.
Çiçək sənə qismət olsa,
Əgər gedib ona varsan
Bax o gənclik çiçəyidir
Gəncliyinə qayıdarsan (7, s.96)

Bilqamıs əziyyətlə çiçəyi tapıb geri qayıdarkən yolda sərin suya rast gəlir, soyunub suya baş vurur. Yaxınlıqdakı ilan gülün iyini duyub onu oğurlayır və qabığından çıxıb cavanlaşır. Gənclikdən və əbədi həyatdan məhrum olmuş Bilqamıs Uruka qayıdır.

«Bilqamıs» dastanında olduğu kimi, O. Şaiq, V.M.Jirmunski, X.Koroğlu, Ə.Abid, M.Erkin və digər müəlliflərin topladıqları bir sıra rəvayətlərdə Dədə Qorqudun ölümdən qaçması, onun daimi həyat axtarmasından bəhs olunur. V.M. Jirmunskinin digər müəlliflərə əsaslanıb verdiyi rəvayətlərin birindən aydın olur ki, ölümün onu haqlayacağını hiss edən Dədə Qorqud baş götürüb öz doğma yurdundan

qaçır. Haraya gedirsə, görür qəbir qazırlar. Soruşur: «Kimə qazırsınız?» Cavab verirlər: «Qorquda». Quruda ölümün onu haqlayacağını bilən Dədə Qorqud əbasını suyun üzərinə atıb 7 gün yatmadan qopuz çalır. Lakin dözə bilməyib yuxulayır. Ölüm böyük bir ilan cildində gəlib onu sancır və Dədə Qorqud ölür.(58, s.545-548). «Bilqamıs»da olduğu kimi, Dədə Qorqud da ölümdən qaçmağa çalışır. Amma ilan onu əbədi həyatdan məhrum edir. Oxşar olaraq Sibir və Altay türklərində də belə bir inam vardır ki, insan ölərkən ilan onun kutun (ruhunu) oğurlayır.[9] Corc Frezerin «Folklor v Vetxom zavete» kitabında dünyanın digər xalqlarında da ilanın insanı daimi həyatdan məhrum etməsi inamı vardır. (86, s.22).

Müqayisələrdən görünür ki, baş vermiş qəzada yuxu əsas rol oynayır. «Kitabi-Dədə Qorqud» da deyilir ki, ol zamanda Oğuz yegitlərinə nə qəza gəlsə, yuxudan gəlirdi. Oğuz bəyləri 7 gün uyuyurdu. (Bilqamıs da 7 gün yatmışdı). «Bilqamıs» dastanında Bilqamıs və Enkidu başlarına gələcək hadisələri yuxuda görürlər. Bilqamıs Humbabanı öldürməyə gedərkən bir neçə dəfə dağa çıxıb deyir ki, dağ, mənə sən xeyirli yuxu gətir və yatıb yuxu görür. Burada bir tərəfdən türklər arasında yayılmış dağ inamı güclüdür, digər tərəfdən yuxu. «Kitabi-Dədə Qorqud»da Salur Qazan Ala dağda ovda olarkən uyuyur və qorxunc yuxu görür. Ovu yarımçıq qoyub gəlir ki, evi yağmalanıb, əhli-əyalı əsir edilib.

Qarşılıqlı müqayisələr şumer-oğuz dastanlarının genetik cəhətdən yaxınlığına dəlalət edir. Belə yaxınlıq təkcə dastanlar və onların qəhrəmanları baxımından deyil, məişət münasibətləri, inamlar baxımından da özünü göstərir. Genetik əlaqələri araşdırmaq məqsədi ilə biz hər iki dastandakı bir sıra etnoqrafik məsələləri və Azərbaycan türklərinin müasir

məişət münasibətlərini qarşılıqlı şəkildə araşdırmışıq. «Bilqamıs» dastanında göbək kəsmə ilə bağlı olaraq insana müəyyən hüququn verilməsi adəti diqqəti cəlb edir. Bilqamısın hərəmxanaya sərbəst getmək hüququndan bəhs edən Şamxat bu hökmün ona göbəyi kəsiləndən verildiyini bildirir. (7, s.21) Göbəkkərtmə ilə müəyyən hüquqların verilməsi adəti bütün türk xalqlarına məxsusdur. Onlar arasında göbəkkəsmə zamanı nikahlama mərasimi geniş yayılmışdır. Bu məsələ ilə bağlı «Kitabi-Dədə Qorqud»da Bayburanın oğlu Bamsi Beyrək boyunda Baybican bəy deyir: «Bəklər, Allah-Təala mənə bir qız verəcək olursa, siz tanıq olun, mənim qızım Baybura bəgin oğluna beşikkərtmə yovuqlu olsun!"(16, s.52). Beşikkərtmə etnoqrafik ədəbiyyatda «göbək kəsdi» kimi də işlədilir. Uşaqların «göbək kəsmə»-nişanlama adəti Azərbaycan türklərində XX yüzilliyin əvvəllərinə qədər mövcud olmuşdur. Ümumiyyətlə, türk xalqlarında uşaqların gələcək taleyində göbəyin kəsilməsi və düşmüş göbəyə münasibətin böyük rol oynaması inamı geniş yayılmışdır. Altay, Orta Asiya və Sibir türklərində uşağın göbəyinin düşmüş hissəsi xüsusi torbalarda qorunur.(88, s.98) Azərbaycan, Ön Asiya türklərində göbəyin düşən hissəsinə cinsə görə münasibət var. Naxçıvanda hələ də belə inam vardır ki, uşağın göbəyini harada basdırsan, o həmin yerə meyilli olar.

Azərbaycan türklərində övladlığa götürmə, qardaşlaşma ilə bağlı çox qədim inamlar və adətlər mövcuddur. Bu məsələdə başlıca rolu ana oynayır. Xüsusən, körpə uşağı övladlığa götürdükdə ana onu köynəyinin yaxasından keçirir və uşaq doğma hesab olunur. Böyük yaşlı uşaqlar isə xeyir-dua ilə övladlığa götürülür və doğma hesab edilir. Adətin izləri müəyyən cəhətdən şumerlərlə bağlanır. Bilqamıs öz

dostu Enkidunu anası Ninsunun yanına aparıb deyir:–Xeyir-dua ver ona, qoy mənə qardaş olsun. Ninsun onların Humbabanı öldürməyə gedəcəklərini bildikdən sonra Enkidunu çağırıb ona belə söyləyir:

«Enkidu, ey qüdrətli, ey mənim doğmadığım!
Tanrı üçün qurbanlıq, kahinlər, qızlar ilə
Mən səni Bilqamısa sirdaş elan etmişəm»,
Çıxarıb Enkidunun boynuna tilsim asdı.(7, s.33)

Bundan sonra dastan boyu Enkidu Bilqamısın yaxın dostu, qardaşı kimi təsvir edilir.

Dastanda Bilqamıs və Enkidu Humbabanı öldürmək üçün səfərə çıxarkən Ninsunun onların arxasınca su atması və sağ-salamat qayıtmaları üçün un qurban qoyması ilə bağlı inam və adətlər Azərbaycan türklərinin məişətində indi də geniş şəkildə qalır. Dastanda deyilir:

İgidlərin ardınca bir cam təmiz su atdı,
Pillələrə çıxıb o evin damına qalxdı.
Qalxıb tərif dedi O,
Şamaşın şərəfinə,
Əlini göyə tutdu, un qurban qoydu O,
Şamaşın şərəfinə. (7, s.32)

Azərbaycan türkləri suyu aydınlıq hesab etməklə uzaq səfərə çıxanın sağ-salamat qayıtması və işinin uğurlu olması üçün onun arxasınca su atarlar. Un qurban qoyulması adətinin paraleli Naxçıvan ərazisində daha geniş yayılmışdır. Böyük bir xatadan qurtarana deyirlər:–«Bir parça çörəyin övsanaya düşüb», «Allahın sənə yazığı gəlib, isti çörək yandırıb paylat». Bizcə, şumerlərdə mövcud olmuş adət və inam çox cüzi transformasiya ilə indi də yaşayır.

«Bilqamıs» dastanında verilmiş bir sıra deyimlər, Azərbaycan türklərinin atalar sözləri və zərb-məsələlərinə uyğun

gəlir. Humbaba ilə döyüşə gedərkən Bilqamıs söhbət açıb Enkiduya söyləyir:

«Təklikdə inan bizə o heç nə edə bilməz.
Ayrılıqda bizim də əlimizdən iş gəlməz.
Sıldırım tək keçilməz, ikilikdə keçilər»,
Üçqat hörülmüş kəndir asanlıqla qırılmaz,
Bir cüt şir balasının gücü şirdən az olmaz!(7, s.32)

Buna uyğun olaraq Azərbaycan atalar sözləri və zərb-məsələlərində deyilir:

Tək əldən səs çıxmaz.
El gücü, sel gücü.
El bir olsa, zərbi kərən sındırar və s.

Təkcə atalar sözləri və zərb-məsələlər baxımından deyil, qədim şumerlərin alqış və qarğışları ilə oğuz-türk alqış və qarğışları böyük yaxınlığa malikdir. Evlənmək təklifi ilə Məlaikə İştar Bilqamısa aşağıdakı alqışı deyir:

Sən evə buyuranda, daxil olanda bizə,
Öpsün ayaqlarını döşəməm, evim, taxtım,
Qarşında diz çöksün sənin dövlətlilər, ağalar,
Sənə xərac verilsin bol məhsulu düzlərin,
Neməti təpələrin.
Keçilərin üç bala,
Qoyunun əkiz doğsun,
Yük daşıyan eşşəyin
Qatıra çatsın sənin.
Cəng arabasında atlar yürüşdə dönməz olsun,
Boyunduruq altında gedən öküzlərinin
Əvəzi tapılmasın.(7, s.46-47)

«Kitabi-Dədə Qorqud» dastanında isə Dədə Qorqud boy boylayıb böylə deyirdi:–"Qarlı qara dağların yıxılmasın. Kölgəlicə qaba ağacın kəsilməsin. Qamən axan körklü

suyun qurumasın (qanatların qırılmasın). Qadir tanrı səni namərdə möhtac etməsin. Çaparkən ağ-boz atın büdrəməsin. Çalışanda qara polad üz qılıncın kütəlməsin..."

Azərbaycan türklərinin alqışlarının bəzilərinə diqqət yetirək: Dövlətin başında aşsın. Bucağın dolu olsun. Məhsulun ocaq vursun. Düşmənin puç olsun. Namərdə möhtac olmayasan və s.

Alqışlarla bərabər, şumerlərin və Azərbaycan türklərinin qarğışları ciddi yaxınlığa malikdirlər. «Bilqamıs» dastanındakı və bizim Naxçıvan ərazisindən topladığımız qarğışların qarşılıqlı tutuşdurulması bu yaxınlığı aydın şəkildə göstərir. Müqayisə üçün əvvəlcə «Bilqamıs»dakı, mötərizədə isə bizim topladığımız qarğışları təqdim edirik:

Gəl, a yava gəzəntə, sənə dilək diləyim.
(A küçələr yavası, gəzəntə).
Kökəlmiş qızlarını sevə bilməyəsən sən.
(Bala böyüdüb barını görməyəsən).
Onlarla toy-düyünə, şənliyə, getməyəsən.
(Övlad toyu görməyəsən, oğul evəndirib,
qız ərə verməyəsən).
Evində heç bir zaman sevinib gülməyəsən.
(Səni görüm üzün gülməsin).
Dörd yolun ayrıcında səfil dolanasan.
(Səni görüm küçələrdə qalasan).
Divarların dibində yatmaq adətin olsun.
(Divarların dibində sərgəndar qalasan).
Usta daman evinin üstünü düzəltməsin
(Evin başına uçsun, yurdun-yuvan dağılsın).
Uçuq divarlarına çöl yarasaları dolsun.
(Evin xaraba qalsın, yurdunda bayquşlar ulaşsın).
Ocağında qonaqlıq, nədə bir şənlik olsun.

(Ocağın sönsün, evindən vay səsi kəsilməsin, sənə toy qismət olmasın, ağzın acı olsun).
Qoy boğazın tutulsun, bağrın irinlə dolsun.
(Boğazına quşquyruğu düzülsün, boğazın qovuşsun, boğazına su damızsınlar, ürəyin parçalansın. Səni qan qusasan).

İştarin evlənmək təklifini qəbul etməyən Bilqamıs onun bütün eyiblərini açıb üzünə deyir:

Müsiəbidsən, xalqını düşmənlərə satırsan.
Səndəlsən, sahibinin ayağını sıxırsan.
Söylə, hansı ərini sevmisən axıracan
Hansı əməlin söylə, şöhrətləndirib səni?
Qoy sayım neçəsiylə, eyş-işrət etdiyini! (7, s.47)

Yuxarıdakı süjetin paralelinə «Kitabi-Dədə Qorqud» dastanında rast gəlirik. Beyrək 16 illik dustaqlıqdan qayıdıb tanınmadan toy məclisinə, oradan isə qadınların yanına varıb deyir:–Məsqudum budur ki, ərə varan qız qalxa oynaya, mən qopuz çalam. Beyrək Banuçiçəyin əvəzinə qalxıb oynayan Qısırca yenigənin, Boğazca Fatmanın eyiblərini açıb onlara deyir:

And içəyim bu gəz, boğaz qısırağa bindigim yox.
(Binubəni) qazavata vardığım yoq.
Evinizin ardı dərəcik degilmiydi?
İtinizin adı Bıraq deyilmiydi?
Sənin adın qırx oynaşlı Boğazca Fatma deyilmiydi? (16, s.64)

Bütün eyibləri sadalanan Fatma deyir: "Buy, dəli boğma cıqaracaq olanca eyibimizi qaqdı. (16, s.65)

İndi də Naxçıvanda savaşanlar biri digərini günahlandıraraq deyirlər ki, məndə abır-həya qoymadı məni rüsvay eylədi, olmazın eyiblərini mənə dedi.

Şümerlərdə dəfn və yasla bağlı adətlərin öyrənilməsi göstərir ki, bu baxımdan da onlarla qədim türklər və müasir Azərbaycan türkləri arasında ciddi yaxınlıq vardır. Dastanda ölümlə bağlı inamlar və təsəvvürlərə VII-VIII lövhələrdə, Enkidunun ölümünü hiss etməsi ilə bağlı olaraq rast gəlinir. Enkidu yuxuda görür ki, Humbabanı öldürüb sidri oğurladıqları üçün Allahlar ona və Bilqamısa ölüm hökmü vermək istəyirlər. Lakin sonradan razılaşırlar ki, Enkidu ölsün. Enkidu yuxusunu Bilqamısa söyləyib deyir ki, gedək Ellildən xahiş edək. Onların xahişini eşidən Şamaş deyir:
Atılmış püşkü daha, geri qaytarmaq olmaz,
İnsan gəldi-gedərdi, dünyada heç nə qalmaz (7, s.57).

Azərbaycan şifahi xalq ədəbiyyatında, xalqın inam və təsəvvürlərində bu dünyanın faniliyi, ömrün əcəldən asılılığı, insanın gəldi-gedər olması ilə bağlı geniş məlumatlar vardır. «Kitabi-Dədə Qorqud»da dünyanın faniliyi, insanın gəldi-gedər olması ilə bağlı deyilir:

–Qanı dediyim bəy ərənlər? Dünya mənim deyənlər? Əcəl aldı, yer gizlədi, fani dünya yenə qaldı. Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya (16, s.50).

Deməli, şümerlərin ölümlə, dünyanın faniliyi ilə bağlı təsəvvürləri müasir türklərin təsəvvürlərinə çox yaxındır. Dastanda maraqlı bir cəhət Enkidunun növbəti yuxusunda meyid evinə girməsi və orada bir sıra mələkləri görməsidir. O deyir:

Orada Etana ilə Sulukan da yaşayır,
Yerin məlaikəsi Ereşkiqal yaşayır.
Onun da qabağında yerin mirzəsi, o qız
Belet-seri diz çöküb.
Onun üçün oxuyur, tale yazılarını,
O başını qaldırıb önündə gördü məni.

Dedi ki, o adamı artıq əcəl almışdır! (7, s.61)

Yuxarıdakı misralarda insan həyatının tale yazısından asılı olduğu aydınlaşır. İndi də Azərbaycan türklərində deyirlər ki, yazıya pozu yoxdur, «Kitabi-Dədə Qorqud» da deyilir:

Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vədə irməyincə kimsə ölməz.(16, s.31)

Bu paralellərlə yanaşı, Yerin mələikəsi Ereşkiqal diqqəti cəlb edir. Funksiyası ilə tanışlıq göstərir ki, o Yerin altında olmaqla ölümü idarə edir. Ereşkiqalın funksiyası Sibir və Altay türklərinin inamlarına görə yeraltı dünyanın sahibi Erliyin funksiyasına çox yaxındır. Ereşkiqal kimi Erlikdə yerin altında yaşayır və öz adamları vasitəsilə insanların «kut»unu-canını alır.(87, s.71-75) Burada təkcə funksiya deyil, adlar da çox oxşardır. Demək olar ki, eynidir. Ereşkiqal-Erlik-hər iki ad yerlə, torpaqla bağlıdır. Müasir Azərbaycan türklərində də belə ifadələr vardır: «Səni qara yerə girəsən. Qara yer səni yesin.»

«Bilqamıs» dastanında Enkidunun ölümündə Bilqamısın səs çəkib ağladığı, saçını yolub, cır-cındır geyib baş-yaxasın açdığı məlum olur:

Dostum Enkidu üçün mən göz yaşı tökürəm.
Ağıcı arvadlartək hay salıb hönkürürəm.

Kətan kimi dartırdı, saçlarını yolurdu.
Paltarlarını didib, cırıq-cındır olurdu.(7. s.64)

Yuxarıdakı misralardan aydın olur ki, qədim şumerlərdə də müasir Azərbaycan türklərində olduğu kimi «ağıçı», «edibaşı» arvadlar olmuşdur. İslam dini ölənin dalınca ağlamanı qadağan etməsə də, təqdir də erməmişdir. Şəraitə görə mərhuma ucadan ağlamaq, saç yolub, üz cırmaq

pislənir, ağıçılıq peşəsi qadağan edilir. Bütün bu yasaqlara baxmayaraq, Azərbaycan türklərinin dəfn adətləri ilə tanışlıq göstərir ki, ənənəvi varislik məişətdə ində də qalmaqdadır. Mərhumun qohumları, ağı və bayatı demək qabiliyyəti olanlar ucadan ağlayırlar. «Şivən» adlanan ritualik ağlaşma mərasimində, xüsusən, mərhum cavan olduqda onu oxşaya-oxşaya səs çəkib ağlayırlar. Bu adət Bilqamısın Enkidunu oxşayıb ağlaması ilə yaxınlıq təşkil edir.

Ağır, güclü baltamı, dayağımı, arxamı,
Əyilməz xəncərimi, dözümlü qalxanımı,
Bayram bürüncəyimi, cəlalli paltarımı-
Şər iblis, yağı iblis mənim əlimdən aldı.
Səhrada heyvanları və vəhşi eşşəkləri
qovan qardaşım mənim!
Səhraları dolaşan Enkidu, dostum mənim-
mənim kiçik qardaşım! ( 7, s.64-65)

Bu ağının (oxşamanın) Azərbaycan türklərinin yüzlərcə bayatısı, ağısı ilə müqayisəsi oxşarlığın nə dərəcədə yaxın olduğunu göstərir. Dostu Enkidu üçün göz yaşı töküb ağlayan Bilqamısın baş-yaxasını açmaqla dartıb paltarlarını cırdığı aydın olur. «Kitabi Dədə Qorqud» dastanında Beyrəyin dustaq aparıldığını bilən atası qaba sarıq götürüb yerə çaldı, dartdı, yaxasını yırtdı... Ağbirçəkli anası bıldır-bıldır ağladı, gözünün yaşın tökdü, acı dırnaq ağ üzünə aldı-çaldı, al yanağın dartdı, qarğı kimi qara saçını yoldu, ağlayıbani siqlayıbanı evinə gəldi.

«Bilqamıs» dastanından aydın olur ki, mərhum vəfatından 7 gün sonra dəfn edilir.

Ürəkdən bağlandığım Enkidu sirdaşıma.
Axırda qismət oldu adi insan taleyi.
Qəbrə qoymadan əvvəl

Altı gecə, yeddi gün ona göz yaşı tökdüm.( 7, s.76)

Deməli, mərhum qəbrə qoyulana qədər müvəqqəti olaraq xüsusi yerdə saxlanmış və 7 gün ona yas tutulmuşdur. İndi də Altay və Sibirin bir sıra türk xalqlarında mərhum dəfn edilməmişdən o xüsusi yerdə saxlanır və sonra dəfn edilir. Tarixi mənbələrdən aydın olur ki, m.ö. Azərbaycanda da bu adət olmuşdur. Ümumiyyətlə, türk xalqlarının əksəriyyətində mərhuma ümumi yas 7 gün müddətində tutulur. Yuxarıdakılara yekun vuraraq demək olar ki, şumerlər, oğuzlar və müasir türklər arasında etnik cəhətdən böyük yaxınlıqlar mövcuddur. Ümumiyyətlə, bu istiqamətdə araşdırmalar hərtərəfli aparılmaqla şumer-türk əlaqələri dərindən öyrənilməlidir.

# ƏDƏBİYYAT


1. Abdullayev B. Haqqın səsi. Bakı: Azərnəşr, 1989.
2. Abdulla B. Mərasim folkloru // Azərbaycan ədəbiyyatı tarixi. 6 clilddə, I c. Bakı: Elm, 2004, s. 98- 154.
3. Azərbaycan ədəbiyyatı inciləri. 12 kitabda, II kitab, Dastanlar. Tərtib edəni B. Abdullayev. Bakı: Yazıçı, 1987.
4. Azərbaycan folkloru Antologiyası. Bakı, 1968, s. 267.
5. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964, s.242.
6. Babayev T. El ocaq başına yığışar. Bakı: Azərnəşr, 1998, 204 s.
7. Bilqamıs dastanı. Bakı: Gənclik, 1985, 104 s
8. Bünyadov T., Babayev T. Xalq təqvimi // Azərbaycan etnoqrafiyası 3 clilddə, III c., Bakı: Şərq-Qərb, 2007, s. 235- 249.
9. Cavadov Qəmərşah, Hüseynov Rauf. Udilər (tarixi-etnoqrafik araşdırma). İkinci nəşr. Bakı, 1999
10. Əsgərov R. İqlimdən-iqlimə, təqvimdən təqvimə. Bakı: Elm, 1987.
11. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı, 2004
12. İmadəddin Nəsimi. Seçilmiş əsərləri, iki cilddə, II cild, Bakı, 2004
13. İsmayıl Əliyev. Azərbaycan etnopedoqogikası, Bakı, 2009.
14. Fərhənge Səbba. Lüğət. Tehran: Səbba, 1365 H.Ş. 1192 s.
15. Həvilov Həvil. Martda mərək. Bakı: Azərnəşr, 1993.
16. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988.
17. Hacı Qadir Qədirzadə. Ənənəvi tərbiyə ilə bağlı etnoqrafik qeydlər. Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər. №4, Naxçıvan 2004, s.18-20.
18. Hüseyn Cavid. Seçilmiş əsərləri, 4 ciliddə, 3-cü cilid, Bakı, 1968.
19. Qədirzadə Türkan. Naxçıvanda Xıdır Nəbi-Xıdır İlyas bayramı və Anadolu türkləri ilə qarşılaşdırmalar. AMEA Naxçıvan Bölməsi, xəbərlər, 2009, 1.
20. Mahmudov Y. Odlar yurduna səyahət. Bakı. Gənclik, 1980.
21. Məhəmməd H. Şəhriyar. «Heydarbabaya salam» Seçilmiş əsərləri, Bakı, «Avrasiya press» , 2005, s.37-56.
22. Nəbiyev A. İlaxır çərşənbələri. Bakı: Azərnəşr, 1992.
23. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, 1982
24. Novruz bayramı ensiklopediyası. Tərtib edənlər: Bəhlul Abdulla, Tofiq Babayev, Bakı, "Şərq-Qərb", 2008

25. Orucov A. Azərbaycanın Naxçıvan bölgəsində xalq təqvimi ilə bağlı adətlər, inanclar və mərasimlər. Tarix ixtisası üzrə fəlsəfə doktoru dissertasiyası.
26. Şah İsmayıl Xətai, əsərləri iki cilddə, 1-ci cild, Bakı, 1975.
27. Yoloğlu G. Mövsüm mərasimləri. Bakı: Xəzər Universitetinin nəşriyyatı, 2009.
28. Zübeydi. Tacəl Əruz. II cild, Qahirə: Əl-xuda, 1342 H.Ş. 1003 s.
29. Ahundlu Yavuz. Azerbaycanın Ordubad bölgesinde Nevruz şölenleri ve halk tiyatrosu gelenekleri. MTHKK. Gelenek, Görenek, İnanclar Seksiyon Bildirileri. Ankara, 1997. s. 13-18.
30. Kadirzade Türkan. Kadirzade Türkan. Semeni Helvasının hazırlanmasıve onunla ilgili inançlar. II Uluslararası Doğu Anadolu Bölgesi Geleneksel Mutfak Kültürü ve Van yemekleri Sempozyumu materialları, İstanbul,2012. s.376-379.
31. Kalafat Yaşar. Kuzey Azerbaycan- doğu Anadolu ve Kuzey İrakda eski türk dini izleri (dini folklorik tabakalaşma). Ankara: Kültür Bakanlığı, 1998.
32. Kalafat Yaşar, Doğu Anadoluda Eski Türk inamlarının izleri. Ankara, 1990.
33. Kalafat Yaşar. Hz. Hızırdan sultan Nevruza. Ankara, 2011
34. Kaya Haydar. Alevi Bekması Erkanı, Evradı ve edebiyatı. 3-cü baskı, Istanbul. 1990.
35. Soylıu Sıtkı, Türk folklorunda və iselde kına yakma. İçel kültürü, Sayı 2, Mayıs, 1987
36. Temren Belkıs. Tarihte, günümüzde ve türk kültüründe Nevruz. HBVAD.Yıl 7, Sayı : 17, Ocak-Şubat-Mart. Ankara. 2001, s. 173-179.
37.Tulay Er. Ürgüp ve sevresi evlenme adetlerinde meydana gelen sostial ve kültrel degişmeler, V MTHKK Gelenek, Görenek, İnamlar Seksionu Bildirileri. Ankara, 1997 s.191-201.
Turan Mustafa. Tarihi kaynaklar işığında Nevruzun menşei meselesi. Milli folklor. TDFD. C.5. yıl 10, sayı 37, Bahar. Ankara. 1998, s. 90-104.
39. Алексеев Н.А. Ранные формы религии тюркоязычных народов Сибири. Новосибирск, Наука. 1980, 318 с.
40. Арутюнов С.А. Анализ и оценка избегания. «Советская этно-

графия». 1979, № 1, с.53-56.
41. Атакишиева М.Н. Семейный быть Азербайджанцев в прошлом и настоящем. По материалам Халданского района. Автореферат канд. дис. М., 1953
42. Бахлул Абдулла. Азербайджанский обрядовой фольклор и его поэтика. Баку, Элм, 1990.
43. Байрам-Алибеков Т. М. Шиитский праздник «Новруж». Каспий. 1986, № 54.
44. Бгажников Б.Х. О значении этической позиции ученого в этнографическом исследовании. «Советская етнография». 1975, № 6, с.57-62.
45. Бекмуратова А.Т. Быть и семья каракалпаков в прошлом и настоящем. Нукс, 1970.
46. Бируни А. Избранные произведения. Ташкент, 1957.
47. Бичурин Н.Й. Собранные сведений о народах, обитавших в Средней Азии в древние времена. Том 1, Москва-Ленинград. Изд. АН СССР, 1950.
48. Гаджиева С.Ш. Дагестанские терекеменцы Х1Х-начале ХХвв. Москва: Наука, 1990.
49. Гадирзаде Г.И. Новое и традиционное по внутрисемейных отнощениях азербайджанцев. Тезисы докладов Всесоюзной научной конференции. Махачкала, 1985, с. 37-38.
50. Гадирзаде Г.И., Григорьев С.Б., Егоров С.Н. Нахичеванская Автономная Республика: Игры без предметов, игры с предметами. Игры народов СССР, Москва «Физкультура и спорт», 1985, с.175-179.
51. Гадирзаде Г.И. Проблемы народной педагогики у азербайджанцев. Мир детства и традицонная культура. Москва, 1990, toplusunda, с.106-107.
52. Гадирзаде Г.И. Традиции азербайджанцев в сфере воспитании детей. Традиции в многонациональном обществе. Тезисы докладов Всесоюзной научной конференции. Минск: 1990, toplusunda, с.38-39
53. Геродот. История в девяти книгах Ленинград, 1972..
54. Грач А.Д. Принципы и методика историко- археологической реконструкции форм социалъного строя (курганным материалам

скифского времени Казахстана, Сибири и Центральной Азии. Социальная история народов Азии. Москва, 1975. kitabında.s.158-182.
55. Древнетюркский словарь. Л., 1969.
56. Дыренкова Н.П. Брак, термины родство и психические запреты у киргизов. Сборник этнографических материалов. Ленинград, 1927, № 1.
57. Дьяконова Б.П. Религиозные представления алтайцев и тувинцев о природе и человеке. Природа и человек в религиозных предствлениях народов Сибири и Севера. Л., Наука, 1976 китабында, с. 268-289.
58. Жирмунский В. М. Тюркский героический эпос. Ленинград, 1974.
59. Захаров А. Домашний и социальный бытъ женщин у Закавказских татар. СМОМПК. Вып. 20,Тифлис,1894,с.103-105;
60. Измаилов Керим-бек. Село Неграм Нахичеванского уезда Ериванской губернии. СМОМПК, вып. 27, отдел 1, Тифлис, 1899, с.192-201.
61. Каракашлы К. Об айрымах. Известия общества обследования и изучения Азербайджана. № 8, вып.1, Баку, 1929.
62. Караулов Н.А. Балкары на Кавказе. СМОМПК, 1908, т. 38, с. 132-157.
63. Катанов Н.Ф. О погребальных обычаях тюркских племен с древнейщих времен до наших дней. Изв. общества археологии, истории и этнографии при Казанском университете. Казань, 1884, т. 12, вып. 2, с. 109-142.
64. Кисляков Н.А. Очерки по историяя семьи и брак у народов Средней Азии и Казахстана. Ленинград, 1969.
65. Косвен М.О. Аталычество. «Советская этнография».1935, № 2.
66. Косвен М.О. Очерки по этнографии Кавказа. «Советская этнография».1946, № 2.
67. Косвен М.О. Авункулат. «Советская этнография». 1948, № 1.
68. Короглы Х. Огузский героический эпос, Москва: Наука, 1976.
69. Лобачева Н.П. Различные обрядовые комплексы в свадебных церемониях народов Средней Азии и Казахстана. Домусуль-

манские верования и обряды в Средней Азии, Москва: Наука, 1978, kitabında s.144-175.
70. Малов С.А. Памятники древнетюркский письменности. М.-Л., 1951.
71. Марков Г.Е. Обычай избегания и проблема «пережитков». «Советская этно-графия».1979, № 1.
72. Народы Кавказа. Том 2, Москва, 1962, с. 132.
73. Попов А.А. Семейная жизнь у долган. «Советская этнография». 1964.
74. Радлов В.В. Опыт словаря тюркских наречий. СПб. 1893, т. 1, с.246-247.
75. Сергеева Т.А. Об обычае избегания народов Грузии. Полевые исследования Института Этнографии АН СССР, 1974, Москва, 1975 kitabında s. 141-149
76. Серебрякова М.Н. О некоторых пережитках материнского рода и ранних форм семейно-брачных отнощений у турок Малой Азии. Страны и народы Востока. Вып. 8. Москва,1969, с.248-258.
77. Смирнова Я.С. Некоторые количественные показатели отхрда от обычаев избегания у кабардинцев и балкарцев. «Советская этнография». 1977, № 6, с.77-83;
78. Смирнова Я.С Избегания и процесс его отмиранияу народов Северного Кавказа. Этнические и культурно-бытовые процессы на Кавказе. Москва,1978 kitabında s.118-163;
79. Смирнова Я.С., Перщиц А.И. Избегание: формационная оценка или «эти- ческий нейтралитет». «Советская этнография». 1978, № 6,
80. Сысоев В.М. Карачай в географическом, бытовом и историческом отнощении. СМОМПК, 1913, вып.43, с. 51.
81. Тенишева А.Э. Празднование Невруза и Хыдыреллеза в Турции (конец ХЫХ в.). СЭ, № 6, 1991, с. 73-79.
82. Токарев С.А. «Избегание» и «этикет».»Советская этнография».1979, № 1, с.68-75.
83. Трофимова А.Т. Из истории семьи азербайджанцев Апшерона (1920-1950). Кавказский Этнографический Сборник. Вып.IV, Москва, 1969.
84. Уразманова Р.К. Народный праздник Сабантуй у татар. СЭ. № 1,

1977, с. 94-100.
85. Фархадова С.Т. Обрядовая музка Азербайджана. Баку, 1991.
86. Фрезер D.D. Фольклор в Ветхом Завете. Москва, 1986
87. Хдопина Н.О. Из мифологии и траиционных религиозных верований шорцев. Этнография народов Алтая и Западной Сибирии. Новосибирск, 1978.
88. Чанчибаева Л.О. Современных религозных пережитках у алтайцев. Этнография народов Алтая и Западной Сибирии. Новосибирск, 1978 kitabında. s. 98

**Hacı Qadir Qədirzadə**

**Milli-mənəvi dəyərlərimiz:**
***Bayramlar, mərasimlər, adətlər, münasibətlər***


*Nəşriyyat redaktoru*
Muxtar Qasımzadə

*Korrektoru*
Gülnar Əliyeva

*Kompyuter tərtibatı*
Abbas Əliyev
Ziya Məmmədov

Yığılmağa verilmiş 17.09.2012.
Çapa imzalanmış 02.10.2012.
Formatı 60X90 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 8,0 ç.v.
Sifariş № 1049 Tiraj 300 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1